# ELMİ İŞ

Beynəlxalq elmi jurnal

# SCIENTIFIC WORK

International scientific journal

www.aem.az

AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

**AZƏRBAYCAN RESPUBLİKASI**

---

**THE REPUBLIC OF AZERBAIJAN**

# ELMİ İŞ

**Beynəlxalq elmi jurnal**
**İmpakt Faktor: 2.255**

**Cild: 17 Sayı: 1**

# SCIENTIFIC WORK

**International scientific journal**
**Impact Factor: 2.255**

**Volume: 17 Issue: 1**

**Bakı – Baku**
**2023**

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
25.04.2007.
Registration No. 2212

Azərbaycan Mətbuat Şurası

Azerbaijan Press Council

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
AZ1073, Baku,
Matbuat avenue, 529,
“Azerbaijan” Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 809 67 68
+994 12 510 63 99

**e-mail**
elmmerkezi@aem.az

## Beynəlxalq indekslər / International indices

ISSN: 2663-4619
e-ISSN: 2708-986X
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Redaktor

**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
huseynova.mahira@yandex.ru

## Editor

**Prof. Dr. Mahira HÜSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
huseynova.mahira@yandex.ru

## Redaktor köməkçisi

**Tədqiqatçı Gülnar ƏLİYEVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
gulnar.musayeva1982@gmail.com

## Assistant editor

**Researcher Gulnar ALIYEVA**, Azerbaijan Science Center / Azerbaijan
gulnar.musayeva1982@gmail.com

## Dillər üzrə redaktorlar

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan

## Language editors

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, ANAS Institute of Linguistics / Azerbaijan

## Elmi sahələr üzrə redaktorlar

**Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rövşən VƏLİYEV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəfail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Akif AĞBABALI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Əlövsət QULİYEV**, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan

## Editors in scientific fields

**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV**, Azerbaijan State Economic University / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan VALIYEV**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUJOVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Akif AGHBABALI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Alovsat GULIYEV**, ANAS Institute of Soil Science and Agrochemistry / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

### Humanitar və ictimai elmlər

**Prof. Dr. Möhsün NAĞISOYLU**, AMEA / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV**, “İpək Yolu” Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Mehmet YÜCE**, Bursa Uludağ Universiteti / Türkiyə
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin “İqor Sikorski adına Kiyev Politexnik İnstitutu” / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. İzzət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şirindil ALIŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Boris KAYQORODOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Məhəbbət DƏMİRÇİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Aqil ŞİRİNOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Ziyadxan ƏLİYEV**, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aydan XƏNDAN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elçin BAYRAMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assos. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Dr. Aqşin ƏLİYEV**, Pekin Xarici Dillər Universiteti / Çin
**Dr. Rövşən RAMİZOĞLU**, Səlcuq Universiteti / Türkiyə

## Təbiət elmləri

**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Georgi DUKA**, Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Məsud AŞİNA**, Kopenhagen Universiteti / Danimarka
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. İbrahim CƏFƏROV**, AMEA / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mətanət ƏFƏNDİYEVA**, Milli İdman Tibbi və Reabilitasiya İnstitutu / Rusiya
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof. Dr. Nuran ABDULLAYEV**, Köln Universiteti / Almaniya
**Prof. Dr. Afət MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Şahanə HÜSEYNOVA**, Berlin Texniki Universiteti / Almaniya
**Prof. Dr. İbrahim MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Bilal BÜŞRA**, Ali Cinnah Universiteti / Pakistan İslam Respublikası
**Assoc. Prof. Dr. Fuad KƏRİMLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Məhiyəddin MEHDİYEV**, Mingəçevir Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

## Dəqiq elmlər

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Məsud ƏFƏNDİYEV**, "Helmholtz" Elmi-Tədqiqat Mərkəzi / Almaniya
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Yalçın ƏFƏNDİYEV**, Texas A&M Universiteti / ABŞ
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Yusif ŞÜKÜRLÜ**, AMEA Şəki Regional Elmi Mərkəzi / Azərbaycan

## Texnika elmləri

**Prof. Dr. Əminağa SADIQOV**, AMEA İdarəçilik Sistemləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Xəlil KƏLƏNTƏR**, Tohoku Universiteti / Yaponiya
**Prof. Dr. Qərib CƏLALOV**, AMEA Geologiya və Geofizika İnstitutu / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Yasin RÜSTƏMOV**, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Fazil KAZIMOV**, "Neftqazelmitədqiqatlayihə" İnstitutu / Azərbaycan

## EDITORIAL BOARD

### Humanities and social sciences

**Prof. Dr. Mohsun NAGHISOYLU**, ANAS / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Ahi Evran University / Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Juliboy ELTAZAROV**, «Silk Road» International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Mehmet YUJE**, Bursa Uludagh University / Turkey
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Izzet RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Boris KAYGORODOV**, Astrakhan State University / Russia
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Mahabbat DAMIRCHIYEVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Maharram MAMMADLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Agil SHIRINOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Ziyadkhan ALIYEV**, Azerbaijan State Art Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aydan KHANDAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elchin BAYRAMOV**, Baku State University / Azerbaijan
**Assos. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Dr. Agshin ALIYEV**, Beijing Foreign Studies University / The Republic of Chine
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuk University / Turkey

### Natural sciences

**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Georgi DUKA**, Moldova Academy of Sciences / Moldova
**Prof. Dr. Masud ASHINA**, University of Copenhagen / Denmark
**Prof. Dr. Nikolay BRIKO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Ibrahim JAFAROV**, ANAS / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Matanat AFANDIYEVA**, National Institute of Sports Medicine and Rehabilitation / Russia
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Duygu KILICH**, Amasya University / Turkey
**Prof. Dr. Nuran ABDULLAYEV**, University of Cologne / Germany
**Prof. Dr. Afat MAMMADOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Shahana HUSEYNOVA**, Technical University of Berlin / Germany
**Prof. Dr. Ibrahim MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan

**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Ali AZGANI**, University of Texas at Tayler / USA
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Bilal BUSRA,** Ali Jinnah University / The Islamic Republic of Pakistan
**Assoc. Prof. Dr. Fuad KERIMLI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahiyaddin MEHDIYEV**, Mingachevir State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Dr. Fuad RZAYEV**, Zoology Institute of ANAS / Azerbaijan

## Exact sciences

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Masud AFANDIYEV**, «Helmholtz» Scientific Research Center / Germany
**Prof. Dr. Garib MURSHUDOV**, Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Arzu SARDARLI**, First Nations University of Canada / Canada
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Yalchin AFANDIYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Yusif SHUKURLU**, Shaki Regional Scientific Center of ANAS / Azerbaijan

## Technical sciences

**Prof. Dr. Aminagha SADIGOV**, Institute of Management Systems of ANAS / Azerbaijan
**Prof. Dr. Khalil KALANTAR**, Tohoku University / Japan
**Prof. Dr. Garib JALALOV**, Institute of Geology and Geophysics of ANAS / Azerbaijan
**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valeriy LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yasin RUSTAMOV**, Institute of Soil Science and Agrochemistry of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Fazil KAZIMOV**, Oil Gas Scientific Research Project Institute / Azerbaijan

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/86/8-12

**Mahirə Nağı qızı Hüseynova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmləri doktoru
huseynova.mahira@yandex.ru

# MAHMUD KAŞĞARİNİN "DİVAN"INDA SÖZLƏRİN TARİXİ ÇOXMƏNALILIĞI

**Xülasə**

Çağdaş dövrdə olduğu kimi, qədim dövrlərdə də sinonimlik, antonimlik, omonimlik polisemiya ilə bağlı hadisədir. Mahmud Kaşğarinin "Divan"ında çoxmənalılığa xidmət edən leksik-semantik söz qruplarının əmələgəlmə yolları rəngarəngdir. Sinonim, antonim, omonim vahidlərin əksəriyyəti mənşə etibarilə dövrün ayrı-ayrı türk ləhcələri hesabına yaranıb, formalaşmışdır. Sinonim, omonim, antonim sözlər də "Divan"ı zənginləşdirən semantik söz qruplarından olub, bəziləri mənşəcə alınma sözlərə aiddir və bunlar olduqca azlıq təşkil edir. Tarixi dövrlərdə də çoxmənalılıq keyfiyyəti sözə bir neçə sinonimik, omonimik, antonimik cərgəyə daxil olmağa şərait yaratmışdır. Bu semantik söz qruplarının zənginləşməsində rəngarəng forma və mənalara malik olan sözlər, nitq vahidləri olduqca mühüm rol oynamışlar. Məqalədə daha çox sinonimlərə diqqət yetirilir və onu yaradan qədim söz formalarının mənalarından danışılır, çağdaş türkcələrdə onların mənaları, formaları müqayisə edilir.

***Açar sözlər:*** *polisemiya, "Divan" qədim türk ləhcələri, sinonim sözlər, leksik-semantik söz qrupları*

**Mahira Naghi Huseynova**
Azerbaijan State Pedagogical University
Doctor of Philological Sciences
huseynova.mahira@yandex.ru

**Abstract**

As in modern times, synonymy, antonymy, homonymy in antiquity are phenomena associated with polysemy. In the "Divan" of Mahmud Kashghari, there are colorful ways of forming lexical-semantic groups of words that serve polysemy. Most synonymous, antonymous, homonymous units were created and formed at the expense of separate Turkic dialects of that time. Synonymous, homonymous, antonymous words are part of the semantic groups of words that enrich the "Divan", and some of them belong to borrowed words, and they are quite a minority. In historical times, the quality of polysemy allowed the word to enter into several synonymous, homonymous and antonymic rows. A very important role in the enrichment of these semantic phrases was played by words with colorful forms and meanings, speech units. The article pays more attention to synonyms and talks about the meanings of the ancient word forms that form it, and also compares their meanings and forms in the modern Turkish language.

***Keywords:*** *polysemy, "Divan" ancient Turkish dialects, synonymous words, lexical-semantic word groups*

## Giriş

Qədim türk dili və ləhcələri zəngin çoxmənalılıq xüsusiyyətlərinə malik olmuş, bu da onun lüğət tərkibindəki sözlərin elastikliyini, çevikliyini, ifadəliliyini səciyyələndirən keyfiyyətlərdən biri kimi xarakterizə olunmalıdır. Çoxmənalılıq keyfiyyət və xüsusiyyətinə malik qədim leksik vahidlər

məna çalarlarına görə bir-birindən əsaslı şəkildə fərqlənirlər. Müəyyən bir sözün tarixi dövrlərdəki çoxmənalılığı ilə çağdaş türkcələrlə müqayisəli linqvistik təhlili bu keyfiyyətləri əsaslı şəkildə aydınlaşdıra bilər. Məsələn, "Divan"da "çalmaq" feili ilə bağlı 3 leksik vahid, yaxud hərəkət məzmununu özündə ehtiva etdirən söz qeydə alınmışdır: 1) "Çaldı: ol anı *çaldı*" = o onu yerə çaldı, məğlub etdi (Kaşğari, II cild, 2006:50). "Çalmax" sözü Azərbaycan dilinin Çəmbərək və Cəbrayıl şivələrində həm qədim formasını, həm də mənasını qoruyub saxlamışdır: − Əhmət oğlun yaman *çaldı* böyünnəri (1999:90). 2) "Çaldı: "Ol sözüg məninq kulakka *çaldı* = o, sözü mənim qulağıma eşitdirirdi". Bu söz məsəldə də işlənmişdir: Çarsa tütnür, *çalsa* bilnür = çaxmaq çaxılsa, tüstü çıxar, söz qulağa çatsa, bilinər, arzu-dilək anlaşılar" (Kaşğari, II cild, 2006:50). Azərbaycan dilinin dialekt arealı üçün qədim "kulanka çaldı" (qulağın söz eşitməsi) xarakterikdir. Fikrimizcə, bu forma və məna Novruz bayramında qulan salına gedərkən eşidilən sözün arzu-diləkcə anlaşılması kimi başa düşülə bilər. Müasir dövrdə "Qulaq gündə bir söz eşitməsə, kar olar" məsəli qədim formanın dəyişikliyə məruz qalmış ekvivalenti də ola bilər. 3) "Çaldı: tonuğ taş üzə *çaldı* = paltarı yumaq üçün daşa çırpdı". Bu söz aşağıdakı şeir mətnində də işlədilmişdir:

İtım tutup kudhu *çaldı,*
Anınq tüsin kıra yoldı,
Basın alıp kudhı saldı,
Boğuz alıb tünəl bağdı".

İtim onu tutub yerə *çaldı,*
Tüklərin tamam yoldı,
Başından tutub aşağı basdı,
Boğazından yapışıb tamam boğdu
(Kaşğari, II cild, 2006:50-51).

Qədim dövrlərdə tonu (paltarı) çay kənarında, bulaq başında yuyarkən onları iri, qəmbər daşlara çırpmaq bir ənənə halı idi və bu ənənə türk xalqlarında çağdaş dövrdə davam etməkdədir. Hazırda Azərbaycanın dağlıq bölgələrində pal-paltarı çay kənarında daha təmiz olmaq üçün ya toqqaşla döyəcləyir, ya da ki, onu aşağı-yuxarı qaldırıb daşa çırpmaqla həyata keçirirlər ki, bu əməliyyat "çalmaq (vurmaq, döyəcləmək, çırpmaq)" sözünün ekstralinqvistik əlamətidir. Linqvistik əlamətinə gəldikdə isə "çıırpmaq" mənasında bu söz Azərbaycan dilinin dialekt arealı üçün səciyyəvidir. Qədim "çalmaq" feili çağdaş türkcələrdə öz məna postulatlarını daha da genişləndirmişdir. Belə ki, Azərbaycan dilinin Cəbrayıl, İsmayıllı şivələrində "oğurlamaq, xəlvəti götürmək" anlamında işlənən bu söz eyni mənada "çalmak" şəklində Türkiyə türkcəsində də çıxış edir. Bu söz "oğurlamaq" mənasında başqırd dilində "urlav, saldiriv", qazax dilində "urlav", qırğız dilində "ürdö kmtü", özbək dilində "oğurlämäk", tatar dilində "urlav, urlasu, çaldüri", türkmən dilində "çilmak, oğurlämäk", tatar dilində "urlav, urlasu, çaldüri", türkmən dilində "çilmak, oğurlämäk", uyğur dilində "oğurlamak" şəkilləridə işlənir (1993:114-115). Musiqi alətində "çalmaq" sözü Türkiyə türkcəsində, Azərbaycan, özbək, türkmən, qaqauz, uyğur dillərində "çalmak" fonetik tərkibində işlənir (1993:114-115). "Çalmaq" sözünün "süpürmək" mənası Azərbaycan dilinin Basarkeçər, Cəbrayıl, Göyçay, Mingəçevir, Şəki, Zəngilan dialekt və şivələri, "südü mayalamaq" mənası isə Ağdam, Böyük Qarakilsə, Cəbrayıl, Gədəbəy şivələri üçün səciyyəvidir (1999:90). Bunlardan əlavə "çalmak" sözü Salyan şivəsində həm "oxşamaq, bənzəmək", həm də "eşitmək, xəbər tutmaq" mənalarını ifadə edir (2007:88). Bir söz üzərində apardığımız tarixi-linqvistik təhlillər göstərir ki, tarixi çoxmənalılıq keyfiyyəti sözə bir neçə omonimik variantda daxil olmağa şərait yaradır və bu keyfiyyət türkcələrin tarixi inkişafı ilə sıx bağlı olan mühüm bir cəhətdir.

İstər tarixi, istərsə də çağdaş türkcələrdə çoxmənalılığı formalaşdıran linqvistik hadisələr omonim, sinonim, antonim sözlərdir və "bu semantik söz qruplarının sərhəd məsələsi birinci növbədə polisemiyadan asılıdır" (Pylevskaya, 1967:98). Çoxmənalılığı reallaşdıran leksik-semantik söz qruplarının qədim dövrlərdə əmələ gəlmə yolları olduqca müxtəlif və rəngarəngdir. Məsələn, "Divan"da "kök" sözünün 5 mənada işləndiyi göstərilir ki, tarixi omonimliklə səciyyələnən bu

leksik vahidlərin eyni cür səslənib müxtəlif və rəngarəng məna ifadə etmə xüsusiyyətini linqvistik təhlilə cəlb etmək olduqca maraqlıdır: 1) Müasir dövrdə "göy" fonetik tərkibində "hava, səma" mənasındakı söz lüğətdə "kök" fonetik tərkibində qeydə alınmışdır: ayas kök = açıq hava, açıq göy (Kaşğari, II cild, 2006:182; 1999) Çağdaş türkcələrdə "göy rəngi, göy rəng" mənasında işlənən "göy" sözü "kök" fonetik tərkibində işlənmiş və lüğətdə bu söz lüğətdə sifətin çoxaltma dərəcəsinin morfoloji göstəricisi ilə göstərilmişdir. Kaşğari qeyd edir ki, "rənglərdə və bu şeyin vəsfində mübaliğə, şiddətləndirmə dərəcəsi" yaratmaq üçün bütün türk dillərində sifətin ilk hərfi alınır və onu "p" hərfi artırılır. Bu iş oğuzlada "m" hərfinin vasitəsilə həyata keçirilir. Tünc göy rəngdə olan nəsnəyə türklər "köp kök", oğuzlar isə "köm kök" deyirlər ki, hər ikisi "gömgöy" mənasındadır (Kaşğari, II cild, 2006:342). 3) "Divan"da "şəhərin dörd yanını saran yaşıl bölgə" anlamında "kök" sözü qeydə alınmşıdır: "kənd köki = şəhərin dörd yanında yerləşən bağlar, bostanlar; şəhərin qaraltısı". Bu sözlə ağacların yaşıllığı murad edilir (Kaşğari, 2006, III cild:139); 4) lüğətdə "yəhər bağı" mənasında digər bir "kök" leksimindən bəhs olunmuşdur: "Kök" sözü həmin dövrdəki bir məsəldə də işlənmişdir: "ər sözü bir, ədhər köki üç = kişi sözü bir olur, yəhər bağı − üç" (kişilik əlaməti sözündən dönməmək, sözünün üstündə durmaq, sözü bir olmaqdır). Eləcə də yəhərin bağı, yəhərin qabırğasının bağı üç olur. Üçdən artıq olsa, deşiyin çoxluğu ucundan yəhərin qaşı qırılar, üçdən az olsa, yükə dayanmaz. Bu məsəl verdiyi sözü yerinə yetirməli olan adam haqqında söylənilir" (Kaşğari, II cild, 2006:229). Bu məsəlin müasir ekvivalenti "kişinin sözü bir olar" – deyimidir. 5) Lüğətdə "kök" sözhü "kök, əsil" mənasında izah olunmuşdur: kökünq kim = əslin, kökün kimdir, hansı boydasan? (Kaşğari, II cild, 2006:279). Bütün bu nəzərdən keçirdiklərimiz qədim "kök" sözünün omonim variantlarıdır. İndi isə həmin sözün verdiyi mənaların sinonim variantlarına nəzər salaq: "Yəhər bağı" söz birləşməsinin ikinci komponentindəki "bağ" sözü eyni formada qeydə alınmış, "bağ, düyün, ip, örkən, çatı" mənalarında izah edilmişdir. Qədim dövrdə olduğu kimi Azərbaycan dilinin dialekt arealında "göy" sözünə sinonim olaraq "yaşıl" sözündən istifadə olunur. Müasir Azərbaycan dilində qədim "kök" (öy) sözünün məna variantları daha da genişlənmişdir: I. Göy = hava, səma, asiman, ərş; II. Göy = mavi, yaşıl; III. Göy = xəsis, zəllə, simic; IV göy = kal, yetişməmiş; V. Göy = göyümtül, göymtraq, gömgöy, göpgöy, mamitraq, mavimsov, göyümsov; VI. Kök = bitki; kök = arıq, cılız sözlərinə antonim; kök = əsil, soy. Nəsil, boy (Seyidəliyev, Qurbanova, 2003:107).

Qədim "kök" sözünün məna variantlarını çağdaş türkcələrlə qarşılaşdırmaq və onların həm omonimliyini, həm sinonimliyini, həm də antonimliyini müəyyənləşdirmək olar. "Hava, asiman, ərş, səma, göy" mənasında "Divan"da əksini tapan "kök" sözü heç bir fonetik dəyişikliyə uğramadan müasir qazax, qırğız, özbək, uyğur dillərində işlənməkdədir və sinonim variantları müasir qazax dilində "aspan, avl", qırğız dilində "asman", özbək dilində "äsmän", tatar dilində "hava", uyğur dilində "asıman" sözləridir. Çağdaş Türkiyə türkcəsində qədim "kök" sözü "göy", başqırd türkcəsində "kük", tatar dilində də "kük", türkmən türkcəsində "göy" fonetik variantlarında çıxış edir (1993:228-229). Kaşğari dövründə "kök" sözünün "kal, yetişməmiş" və yaxud "xəsis, simic" mənaları yaranmamışdır. Bu və ya digər mənalar həmin sözün tarixi inkişafının sonrakı dövrlərinin məhsuludur. Əsasını qədim "kök" sözü təşkil edən çağdaş "göy" sözü Azərbaycan dilinin dialekt arealında, həmçinin qohum türkcələrdə öz məna postulatlarını genişləndirmişdir. Belə ki, Azərbaycan dilinin Çəmbərək, Kalinino şivələrində "kürəkən" mənasında işlənən "göy" sözü İraq türkman ləhcəsində də eyni mənana çıxış edir (2004:363). "Göy//küəy" – "kürəkən, yeznə" mənası bildirən bu söz demək olar ki, dialekt və şivələrimizin əksəriyyətində işlənir və qohumluq bildirir. Küyü, küyöö, küen, kuev kimi formalarda Altay dillərində, qazax, qırğız, qapaqalpaq və aözbək dillərinin lüğətlərində qeydə alınmışdır (Bayramov, 2004:285). "Göy" sözünün "yetişməmiş, kal" mənası da Kaşğari dövründə işlənməmişdir ki, bu da türkcələrin tarixi inkişafı nəticəsi olaraq meydana çıxmışdır. Tarixi dövrlərdə çoxmənalılığı yaradan leksik-semantik söz qruplarından biri də sözlərin sinonimliyidir (10).

**Sözlərin tarixi sinonimliyi.** "Divan"da eyni mənalı sözün quruluşca müxtəlif variantları olur və bu variantlar tarixi sinonimliyi səciyyələndirir. Məs.: büdik = hoppanma, oynama, atılıb-düşmə (Kaşğari, I cild, 2006:410); büdhi = oynamaq, rəqs etmək. Büthidi: kız büthidi = çariyə rəqs etdi,

oynadı". "Divan"da qeyd edilir ki, başqası da belədir (büdhir – büdhimək). Bu atalar sözündə də işlənmişdir: kurtağa *budhik* bilməz, yerim tar ter = qarı oyun bilməz, yerim dardır deyər". Bu söz bir şeyi ən yaxşı şəkildə bacardığını iddia edən, ancaq məqamı çatanda edə bilməyən və müxtəlif uydurmaqlarla işin içindən çıxmağa çalışan adam haqqında söylənir (Kaşğari, III cild, 2006:241). Büdik, bühdi, budhir qədim söz formaları feillərdən ibarət sinonimlərdir.

"Divan"da "əmr. Buyruq, fərman" mənasında "buyruk və "bıruk" sözləri qeydə alınmışdır (Kaşğari, IV cild, 2006:116). Sözün sinonim variantının ikincisi, yəni "biruk" sözü XI əsrdə adamları dərəcəsinə görə şahın hüzuruna olan, yer göstərən adamın adı: hacib, təşrisatçı, seremonyustar, qosmeystar. Bu sözün əsli "buyruk"dan gəlir, əmr mənasındadır. Çünki xanın yanına gələnlərə əmri o verir" (Kaşğari, I cild, 2006:380). "Əmr, buyruq" mənasında "Divan"da qeydə alınmış "buyruk" sözü çağdaş dövrdə Türkiyə türkcəsində sinonim variantları ilə "buyruk", Azərbaycan dilində "buyruq, əmr, fərman", başqırd dilində "boyorv, kusıv, boyorok biriv", qazax dilində "buyurmak, amir etüv", qırğız dilində "bıyrü, carlık kılü", özbək dilində "duyurmak", tatar dilində "boyıtık birü, boyıru, amir birü", türkmən dilində "buyurmak, permän bermek", uyğur dilində "buyurmak" şəkillərində işlənir (1993:86-87). Sinonimlərin tarixiliyi ilə müasirliyinin müqayisəsi göstərir ki, türkcələrin tarixi inkişafı nəticəsində sinonim sözlərin variantları genişlənmiş, çoxüzlü sinonim variantlar yaranmışdır. Müasir dövrdə olduğu kimi, XI əsrdə də sinonim sözlərin əsas xüsusiyyəti eyni məfhumu müxtəlif leksemlərlə ifadə etməsidir: buyun, budun, budhun sinonim sözləri lüğətdə "boy, qövm, ulus" mənasında qeydə alınmışdır. Bu üçüzlü sinonimin sözlərin tarixi varinatlarına və məna çalarına nəzər salaq: Uluş: kəndi Çigillə. Balasağun və onun yaxınlığındakı Arğu şəhərlərinin əhalisi şəhərə "uluş" deyir. Balasağun şəhərinə "Kuz uluş" da deyilir (Kaşğari, I cild, 2006:132). "Xalq" mənasında "budun" sözü şeir mətnində də işlənmişdir: Ərtiş suvın keçsədi, Budun anın ürküşür = İrtış suyun keçmək istədi, Xalq bundan ürküsüz" (Kaşğari, I cild, 2006:209). Budun bir ikindininq əvlərin örtəşdi = xalq bir-birinin evlərini yandırdı (Kaşğari, I cild, 2006:269). Qədim "uluş" sözü Müasir Azərbaycan dilində "xalq, millət, el" sinonim varinatları ilə işlənir. Müasir Türkiyə türkcəsində qədim "uluş" sözü "ulus" (s-ş samit əvəzlənməsi ilə) eyni fonetik tərkibdə Azərbaycan dilində işlənir. "Uluş" sözü müasir qazax dilində ult, ulıs, qırğız dilində "ulut, ulus", fonetik tərkibində işlənərək qədim formatı qoruyub saxlamıqdır (1993:916-917). Müasir qazax və qırğız dillərində "ult/ulut" fonetik variantları "millət" mənasında işlənir ki, bu söz digər qohum türkcələr üçün universalidir. Bu fikri həmin sözün "el, xalq" sinonim dubletləri haqqında da söyləyə bilərik.

"Divan"da "tuluq kimi şeylərin büküntüsü" mənasında sinonim variant yaradan "buğul//biğul//biğuqa leksik vahidlər qeydə alınmışdır (Kaşğari, IV cild, 2006:108). Bu qədim formalar Müasir Azərbaycan dilində də öz mənaları ilə "büküntü, qırıntı-çıxıntı, qırış" şəkillərində çıxış edərək sinonim variantlar yaradır. Söz ki, bu forma və mənalar "tuluq və ona bənzər qablar dolarkən əmələ gələn şeylər" haqqında söylənilir.

Lüğətdə "yulğunabənzər ağac, dəvələr yeyir" mənasında "yulğuna və malğuna" ikiüzlü sinonim sözlər əks olunmuşdur (Kaşğari, IV cild, 2006:111). "Divan"ın ikinci cildində qeyd olunur ki, "bulğuna" yulğun koluna bənzər kövrək, qırmızı bir ağacdır, dəvələr yeyir, malğuna da deyilir" (Kaşğari, II cild, 2006:477).

"Divan"da "dəvi və dəri kimi şeylərin bürüşməsi" anlamında "burkuğ və buruş" sinonim sözlər qeydə alınmışdır (Kaşğari, IV cild, 2006:113). Sözün qədim sinonim variantı "burış" sözü "dəridəki və paltardakı qırış, buruşuqluq" mənasında işlənmişdir. Bu qədim sinonim variantlardan biri dəriyə, digəri isə platara aid edilir.

"Divan"da "islatdırmaq" anlamında "çıylat", "tərlətdirmək" mənasında "çılat" sinonim sözlər əks olunmuşdur ki, bunlardan biri paltara, digəri isə ata aid edilir (Kaşğari, IV cild, 2006:144-145). Türk dillərinin tarixi inkişafı ilə bağlı olaraq bu qədim sözlər semantik baxımından öz sinonim cərgəsini daha da genişləndirmşidir ki, bunlara nümunə olaraq, "yaş, tər, nəm, nəmiş, höyüş, rütubət, islaq" sinonim variantlarını göstərə bilərik (Seyidəliyev, Qurbanova, 2003:216). Müasir türkcələrin hamısında bu forma və mənalar işlənməkdədir.

## Nəticə

Dilin başqa leksik-semantik kateqoriyaları kimi çoxmənalı söz qruplarından olan sinonimlər də tarixi bir hadisədir və Mahmud Kaşğarinin "Divan"ında əks olunma və ya qeydə alınma baxımından zənginliyi ilə diqqəti cəlb edir. Araşdırmalarımızdan əldə etdiyimiz nəticələr göstərir ki, türk dillərinin inkişafı nəticəsində sinonimik cərgə həm genişlənə bilər, həm də əksinə, onun sərhədi daha məhdud, dar bir şəkil ala bilər. Odur ki, müasir dövrdən fərqli olaraq tarixi dövrlərdəki sinonimik cərgələrin qədim türk lüğətləri üzrə araşdırılmasının, dəyərli nəticələrin əldə edilməsinin böyük elmi əhəmiyyəti vardır.

## Ədəbiyyat

1. Kaşğari, M. (2006). Divanü lüğat-it-türk. II cild. Bakı: "Ozan".
2. Azərbaycan dilinin dialektoloji lüğəti. (1999). Ankara.
3. Comparative dictionary of Turkish dialects. (1993). Ankara.
4. Azərbaycan dilinin dialektoloji lüğəti. (2007). Bakı: "Şərq-Qərb".
5. Pylevskaya, M.F. (1967). Problemy sintakticheskogo roda, yego granitsy i vozmozhnosti vydeleniya dominanty. V sb. «Leksicheskaya sinonimii». Moskva: «Nauka».
6. Kaşğari, M. (2006). Divanü lüğat-it-türk. III cild. Bakı: "Ozan".
7. Seyidəliyev, N., Qurbanova, T. (2003). Azərbaycan dilinin sinonimlər lüğəti. Bakı: "Maarif".
8. İraq-Türkman ləhcəsi. (2004). Bakı: "Elm".
9. Bayramov, İ. (2014). Qərbi Azərbaycan şivələrinin leksikası. Bakı: "Elm və təhsil".
10. http://static.bsu.az/w15/Azerbacan%20DIALEKTOLOGIYASI-2019-352-07.02.2019.pdf
11. Kaşğari, M. (2006). Divanü lüğat-it-türk. I cild. Bakı: "Ozan".
12. Kaşğari, M. (2006). Divanü lüğat-it-türk. IV cild. Bakı: "Ozan".

Göndərildi: 15.10.2022 Qəbul edildi: 15.12.2022

DOI: https://doi.org/10.36719/2663-4619/86/13-25

**Ələmdar Əli oğlu Şahverdiyev**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
anyaz1@mail.ru

# "ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ"NƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN MÜNASİBƏTİ VƏ TARİXİ REALLIQ

**Xülasə**

1988-ci ildən 2020-ci ilə kimi 32 il ərzində "Qarabağ məsələsi"ni sülh yolu ilə həll etməyən beynəlxalq təşkilatlar Azərbaycanın tarixi qələbəsini qəbul etmək istəmirlər.

Dünya erməniliyi Cənubi Qafqaz coğrafi anlayışından imtina edərək Cənub-Şərqi Avropa terminini ön plana çıxarır. Bununla onlar həm Avropa dövlətlərini, həm də Avropanı təmsil edən beynəlxalq təşkilatları yenidən Qarabağ məsələsinə cəlb etməklə bu problemə beynəlxalq münaqişə statusu verilməsini istəyirlər.

***Açar sözlər:*** *BMT, İKT, AB, MDB, münaqişə*

**Alamdar Ali Shahverdiyev**
Baku State University
Ph.D in history
anyaz1@mail.ru

# The attitude of international organizations to the "Armenia-Azerbaijani conflict" and historical reality

**Abstract**

The international organizations that did not resolve the "Karabakh issue" peacefully for 32 years from 1988 to 2020 do not want to accept the historical victory of Azerbaijan.

World Armenians reject the geographical concept of the South Caucasus and put the term Southeast Europe in the foreground. With this, they want to give this problem the status of an international conflict by involving European countries and international organizations representing Europe again in the Karabakh issue.

***Keywords:*** *UN, ICT, EU, CIS, conflict*

## Giriş

SSRİ-də XX əsrin 80-ci illərinin ortalarında baş verən hakimiyyət dəyişikliyi ölkəni iqtisadi və siyasi böhrandan çıxara bilmədi. Əksinə ölkə daxilində milli zəmində yeni münaqişə ocaqları yarandı. SSRİ-nin yeni rəhbəri M.S.Qorbaçovun müsəlman-türk respublikalarına qeyri-insani münasibəti var idi. Ona görə də o, SSRİ rəhbərliyində yüksək dövlət postu tutan türk nümayəndələri tutduqları vəzifələrdən kənarlaşdırılmağa başladı. Heydər Əliyev Sov.İKP MK-nın 1987-ci il oktyabr plenumunda tutduğu vəzifədən azad edildikdən sonra Mərkəzi Moskva hökumətinin Azərbaycana münasibəti daha kəskin xarakter aldı (Əliyev, 1997:19).

Ermənistan SSR Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətini özünə birləşdirmək üçün əsassız ərazi iddialarını irəli sürdü, Azərbaycanın daxili işinə kobud müdaxiləyə başladı və regionda separatçılığı qızışdırdı.

Sovet rəhbərliyinin səhv siyasəti nəticəsində ölkə daxilində milli münasibətlər kəskinləşdi və mərkəzdənqaçma meylləri artdı. Mərkəzi Moskva hökuməti tərəfindən fəaliyyəti qadağan olunan bir sıra siyasi-terror təşkilatları, o cümlədən, ASALA, Daşnaksyutun və KRUNK (Komitet revolyutsionnyy upravleniye narodov Karabakha − Ə.Ş) kimi terror təşkilatları dövlət təhlükəsizlik orqanlarının gözü önündə Ermənistan SSR və DQMV-i ərazisində açıq fəaliyyətə keçdi. Azərbaycan dövlətinin və ərazi bütövlüyünün üzərini təhlükə aldı. O zamankı, Azərbaycan

rəhbərliyi qətiyyətsizlik göstərib ümidini Mərkəzi hökumətə bağlayaraq Ermənistanın Azərbaycan dövlətinin daxili işlərinə qarışmasına və əsassız ərazi iddialarına qarşı heç bir əməli tədbir görə bilmədi. 1988-ci ildən başlayaraq münaqişənin birinci mərhələsində Ermənistan tərəfi Azərbaycana qarşı təzyiqini artırmaq üçün Ermənistan adlandırılan Qərbi Azərbaycan torpağında azərbaycanlılara ağır işgəncə verərək onları öz tarixi torpaqlarından silah gücünə çıxararaq etnik təmizləmə həyata keçirdi. Bu proseslər Mərkəzi Moskva hökumətinin "gözü" önündə baş verirdi.

SSRİ deyilən sovet imperiyası dağılandan və 1991-ci il oktyabrın 18-də Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonrakı mərhələdə Ermənistan özünün Azərbaycana qarşı olan məkrli planlarından nəinki əl çəkdi, əksinə Azərbaycana qarşı elan olunmamış müharibənin miqyasını genişləndirdi. Bu mərhələdə erməni silahlı birləşmələri 1992-ci il fevral ayının 25-26-da Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Xocalı şəhərində soyqırım həyata keçirərək burada Azərbaycan türklərinin izini itirmək üçün bu şəhəri yer üzündən silməyə çalışdı. Keçmiş DQMV ərazisindəki azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən etnik təmizləməyə məruz qaldı və tarixi torpaqlarından qovularaq məcburi köçkün statusu ilə respublikanın müxtəlif şəhər və rayonlarına yerləşdirildi.

1992-1993-cü illərin hərbi kompaniyasında, 1923-cü il iyul ayında qeyri-azərbaycanlılardan təşkil olunmuş sovet-kommunist hökuməti tərəfindən Azərbaycan ərazisində siyasi məqsədlər üçün yaradılan "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin ərazisi ilə yanaşı, bu inzibati vahidliyə daxil olmayan daha yeddi rayon − Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan Ermənistan ordusu və keçmiş DQMV ərazisindəki qeyri-qanuni erməni silahlı birləşmələri tərəfindən işğal olundu. Beləliklə, Birinci Qarabağ müharibəsi nəticəsində Ermənistan ordusu Ermənistan ərazisinin 46%-i qədər Azərbaycan torpağını işğal etdi. Bütün bu proseslər dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların "gözü" önündə baş verdi. Azğınlaşmış Ermənistan dövləti işğal etdiyi Azərbaycan torpaqlarında "Beynəlxalq hüquq gücün tərəfindədir" mövqeyindən çıxış edərək, qeyri-qanuni hakimiyyət strukturları formalaşdırdı.

Azərbaycan Respublikası dərin iqtisadi və siyasi böhran keçirirdi. Müharibənin ölkənin insan resursuna və iqtisadiyyatına vurduğu maddi ziyan milyardlarla dollar təşkil edirdi. Azərbaycanın BMT-də Daimi Nümayəndəliyinin BMT Baş Katibinə ünvanladığı 26 oktyabr 1996-cı il tarixli məktubunda göstərilir ki, ilkin və axıra qədər müəyyən olunmayan məlumatlara görə Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticəsində vurulmuş maddi və mənəvi zərərin ümumi dəyəri on milyardlarla ABŞ dolları təşkil edir. Digər mənbələrdə bu rəqəm 60 mlrd. ABŞ dolları həcmində qiymətləndirilir.

İslam Konfransı Təşkilatının sənədlərində də bu rəqəm, 60 mlrd. ABŞ dolları həcmində göstərilir. İslam Konfransı Təşkilatının 2008-ci il mart ayının 13-14-də keçirilmiş XI Zirvə görüşündə qəbul olunmuş "müsəlman Umması XXI əsrdə" adlı "Üzv ölkələrə, İKT üzvü olmayan ölkələrə və müsəlman icmalarına iqtisadi yardım göstərilməsinə aid fəaliyyət haqqında" 2/11-E (İS) nömrəli qətnaməsinin Azərbaycana aid olan hissəsində qeyd edilir ki, Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə Azərbaycana dəymiş iqtisadi zərərin həcmi 60 mlrd. ABŞ dollarıdır. Əslində bu rəqəm real görsənmir, çünki bu illər ərzində əldə edilməmiş mənfəət nəzərə alınmayıb. Hesablamalar bu günə yenidən aparılsa, əldə edilməmiş mənfəət nəzərə alınmaqla, bu rəqəm 220 mlrd. ABŞ dolları civarındadır (Qarayev, 2012:20).

Bu böhrandan yeganə çıxış yolu mükəmməl idarəetmə təcrübəsi olan dünya miqyaslı siyasətçi, ictimai xadim Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanın siyasi rəhbərliyinə qayıtması idi.

Müasir Azərbaycan Respublikasının qurucusu olan Heydər Əliyev beynəlxalq şəraiti düzgün qiymətləndirərək 1994-cü il may ayının 12-də Bişkekdə müvəqqəti atəşkəs rejimi haqqında sazişin imzalanması ilə hərbi əməliyyatları dayandıraraq Azərbaycanı iqtisadi və siyasi böhrandan çıxarmaq üçün uzunmüddətli vaxt qazanmış oldu. Beynəlxalq münasibətlər sistemində bu cür riskli qərarların qəbul olunması təcrübəsi azdır (3). Bu cür təcrübəyə misal olaraq, Birinci Dünya müharibəsi illərində, daha dəqiq desək, 1918-ci il mart ayının 3-də Sovet Rusiyası ilə Almaniya arasında imzalanmış Brest-Litovski sazişini göstərmək olar. XXI əsr Azərbaycan Respublikasının

qurucusu olaraq Heydər Əliyev ölkəni böhrandan çıxarmaq üçün antiböhran proqramını cəmiyyətə təqdim etdi. Bu proqramın məqsədi cəmiyyətdə siyasi sabitliyi təmin etmək, geniş miqyaslı iqtisadi islahatlar keçirmək, Azərbaycanın neft-qaz ehtiyatlarını istismar etmək və dünya dövlətlərinə ixrac etmək üçün dünyanın aparıcı dövlətlərinin iri şirkətlərini Azərbaycan ilə iş birliyinə cəlb etmək idi (4). Bu yol ilə Azərbaycan beynəlxalq iqtisadi münasibətlərin etibarlı tərəfdaşına çeviriləcəkdi. Heydər Əliyevin müəllifi olduğu antiböhran proqramının tərkib hissəsinə daxil olan vacib məsələlərdən biri, Qarabağ probleminin sülh yolu ilə həll edilməsi idi. O, çox yaxşı bilirdi ki, Qarabağ problemini həll etmək iradəsinə malik olan beynəlxalq təşkilat yoxdur. Çünki bunun Azərbaycan üçün acı təcrübəsi var idi. Belə ki, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan BMT Təhlükəsizlik Şurasının Ermənistanın təcavüzünü qınayan və dərhal işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasını tələb edən 4 qətnaməsi vardı, amma heç biri icra olunmamışdı (5).

İkinci dünya müharibəsindən sonra yaranan *Birləşmiş Millətlər Təşkilatı* müasir dünya quruluşunun ayrılmaz bir hissəsinə çevrilib. Birləşmiş Millətlər Təşkilatı etnik-dini və siyasi münaqişələr üzrə balanslaşdırılmış qərarlar tapılması üçün fəaliyyət göstərən bir beynəlxalq təşkilatdır. Birləşmiş Millətlər Təşkilatı (bundan sonra qısa olaraq BMT kimi yazılması davam edəcək − Ə.Ş) öz hüquqi təbiətinə görə beynəlxalq hüquq subyekti olan universal xarakterli beynəlxalq dövlətlərarası təşkilatdır.

Azərbaycan Respublikası 1992-ci il mart ayının 2-də BMT-nin üzvlüyünə qəbul olunmuş və 1992-ci il mayın 6-da Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır (Əhmədov, 1998:57). Azərbaycanın BMT ilə əməkdaşlığının əsas istiqamətlərindən biri beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsinə cəlb etməyi və BMT-nin potensial imkanlarından istifadə etməklə bu münaqişənin ədalətli nizamlanmasına və sülh sazişinin əldə olunmasına çalışmaq idi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına və bu münaqişəyə aid BMT əsas orqanları tərəfindən mühüm əhəmiyyət daşıyan bir neçə qərar və qətnamə qəbul edilmişdir. Məhz bu səbəbdən bu qərarların təhlili və araşdırılması xüsusi maraq kəsb edir.

BMT-nin Nizamnaməsinin 24 maddəsinə uyğun olaraq BMT-yə üzv olan dövlətlər beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üzrə əsas vəzifəni BMT-nin Təhlükəsizlik Şurasının üzərinə qoyurlar. 1992-1996-cı illərdə BMT-nin Təhlükəsizlik Şurasının Sədri və BMT Baş Katibi Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təsdiqləyən və münaqişənin sülh yolu ilə həll olunmasına yönəlmiş ATƏT-in Minsk Qrupunun səylərini dəstəkləyən bir sıra bəyanatlarla çıxış etmişdi (4).

1992-ci ildə Şuşanın işğalı Azərbaycanı yenidən BMT-yə müraciət etmək məcburiyyətində qoydu. May ayının 12-də BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ problemini müzakirə edərək bəyanat verməklə kifayətləndi.

BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini pisləyən və qeyri-şərtsiz Azərbaycan torpaqlarından çıxması ilə bağlı 4 qətnamə qəbul edib. BMT Təhlükəsizlik Şurasının 1993-cü il 30 aprel tarixli 822 nömrəli qətnaməsində erməni qoşunlarının Kəlbəcərdən və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edirdi (Qarayev, 2012:26).

BMT TŞ-nin 1993-cü il 29 iyul tarixli 853 nömrəli qətnamədə, erməni qoşunlarının Ağdam və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsi tələb edilirdi (Qarayev, 2012:27-30).

BMT TŞ-nin 1993-cü il 14 oktyabr tarixli 874 nömrəli qətnaməsi, erməni qoşunlarının işğal etdiyi Füzuli (23 avqust, 1993), Cəbrayıl (26 avqust, 1993), Qubadlı (31 avqust, 1993) və digər ərazilərdən geri çəkilməsini tələb edirdi.

BMT TŞ-nin 1993-cü il 12 noyabr tarixli 884 nömrəli qətnaməsində erməni qoşunlarından işğal etdiyi Zəngilan rayonundan və digər ərazilərdən çıxmasını tələb edirdi. Çox təəssüf ki, BMT TŞ-nin qətnamələri icra olunmadığından bu qətnamələr Azərbaycan üçün təsəlliverici sənəddən başqa bir şey deyildi. Eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasına olan ümidləri puça çıxarırdı.

*BMT Baş Məclisi* tərəfindən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair bir neçə mühüm əhəmiyyətli qətnamə və qərar qəbul edilmişdir. BMT Baş Məclisinin 1998-ci il 16 yanvar tarixli "Birləşmiş Millətlər Təşkilatı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq haqqında" adlı A/RES/52/22 qətnaməsinin 16-cı bəndində "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında olan münaqişə" ifadəsi əks olunmuşdur (21). BMT Baş Məclisının 9 fevral 2000-ci il qəbul olunmuş A/RES/54/117, 2 mart 2001-ci ildə qəbul olunmuş A/RES/55/179 nömrəli qətnamələrində, Azərbaycanın Dağlıq Qarabağ regionundakı vəziyyət ilə bağlı qərar qəbul etmişdir (21). 2 mart 2001-ci il qətnaməsinin qəbulunda səsvermədə 147 dövlət onun lehinə, 1 dövlət isə əleyhinə səs vermişdi. Bu dövlət Ermənistan idi. 2002-ci il 14 fevral A/RES/56/216, 2003-cü il 6 fevral A/RES/57/298 nömrəli qətnamələrində də Azərbaycan ərazilərinin erməni işğalından azad olunması tövsiyə olunurdu.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və bu münaqişə nəticəsində humanitar sahədə yaranmış ağır nəticələrin aradan qaldırılmasına dair BMT-nin Baş Məclisi özünün 48-ci sessiyasının 20 dekabr 1993-cü ildə keçirilmiş 85-ci plenar iclasında "Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında" A/RES/48/114 saylı qətnamə qəbul etmişdir. Bu sənəddə ilk dəfə BMT səviyyəsində etiraf edilir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanda humanitar vəziyyət ciddi şəkildə pisləşmiş və qaçqın və məcburi köçkünlərin sayı bir milyonu keçmişdir.

2006-cı il 7 dekabrda BMT Baş Məclisi A/RES/60/285 saylı qətnaməsində ermənilərin Azərbaycanın işğal etdiyi ərazilərində yanğınların törədilməsinə son qoyulması tələb olunurdu (Qarayev, 2012:32).

Ümumiyyətlə, Birləşmiş Millətlər Təşkilatının bütün strukturlarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qəbul etdiyi qərar və qətnamələrin Azərbaycan üçün əhəmiyyəti, bu qətnamələrdə "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu" və "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" düsturunun etiraf edilməsidir. Digər hallarda, BMT Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsində əməli addım atmadı, qəbul etdiyi qətnamələr kağız üzərində qaldı (14).

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında İslam Konfransı Təşkilatının (bundan sonra İKT kimi yazılacaq − Ə.Ş.) qərarlarının da müəyyən rolu olmuşdur**.

İKT-nin yaradılması haqqında qərar Mərakeş Krallığının paytaxtı Rabat şəhərində 1969-cu il sentyabr ayının 25-də keçirilmiş dövlət və hökumət başçılarının zirvə görüşündə qəbul olunmuşdur (15).

İKT-nin birinci nizamnaməsi 1972-ci ilin mart ayında, ikinci sonuncu nizamnaməsi isə 2008-ci il mart ayının 13-14-də Seneqalın paytaxtı Dakar şəhərində İKT dövlət və hökumət başçılarının XI Zirvə görüşündə, ikinci və hal-hazırda qüvvədə olan nizamnaməsi qəbul olunmuşdur. Bu nizamnamə 39 maddədən ibarətdir. Nizamnamənin I fəslinin I maddəsinin 4-cü bəndində Azərbaycanın səyi nəticəsində işğal altında olan dövlətlərin öz ərazi bütövlüyünü bərpa etməsi hüququnun üzv dövlətlər tərəfindən birmənalı dəstəklənməsi barədə müddəa təsbit edildi. Bu isə öz növbəsində Azərbaycan üçün gələcək xarici siyasət kursunun istiqamətləndirilməsinin hüquqi bazasının möhkəmləndirilməsində müstəsna əhəmiyyət kəsb etməsinə xidmət edir (16). Azərbaycan İKT-yə 8 dekabr 1991-ci ildə tamhüquqlu üzv kimi qəbul olunub. Postsovet məkanında Azərbaycan İKT-yə üzv qəbul olunan ilk müstəqil dövlətdir. İKT dünyanın beynəlxalq hökumətlərarası regional təşkilatların ən vaciblərindən biridir. İKT ən böyük və ən nüfuzlu müsəlman hökumətlərarası regional təşkilatdır.

Ümumiyyətlə, İKT ona üzv olan dövlətlərin sayına görə BMT-dən sonra dünyanın ikinci beynəlxalq hökumətlərarası təşkilatıdır. Hal-hazırda İKT dörd qitədə-Asiya, Avropa, Afrika və Cənubi Amerikada yaşayan əhalinin ümumi sayı 1,5 milyard insan təşkil edən 57 ölkəni birləşdirir. İKT müasir beynəlxalq münasibətlər sistemində xüsusi çəkiyə malikdir. İKT-nin müasir beynəlxalq əlaqələr sistemində xüsusi yeri BMT və İKT arasında əməkdaşlıq haqqında bağlanmış müqavilədə öz əksini tapıb (17).

İKT dünyada müxtəlif xalqlar arasında beynəlxalq sülhün və təhlükəsizliyin harmoniyasının yaranması və əməkdaşlığın inkişaf etdirilməsində müsəlman dünyasının maraqlarını müdafiə etməyə və qorumağa yönəlmiş İslam dünyasının kollektiv səsi kimi çıxış edir (18).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair İKT tərəfindən həm İKT-yə üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşlərində, həm də İKT-yə üzv ölkələrinin xarici işlər nazirləri səviyyəsində çoxlu sayda qətnamə və qərarlar qəbul olunmuşdur (İbayev, 1998:48).

1998-ci ildən bəri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair müddəalar İKT baş orqanı – üzv dövlətlərin dövlət və hökumət başçılarının zirvə görüşlərində (sammitlərində), qəbul olunmuş bir sıra sənədlərdə öz əksini tapmışdır. Onların içərisində 2000-ci ilin noyabr ayında İKT doqquzuncu Zirvə görüşündə (Doha, Qatar dövlətində) qəbul olunmuş yekun Kommunikenin 61-ci bəndini göstərmək olar. Burada qəbul olunmuş 21/9-P (İS) saylı qətnamə “Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü”, 21/9-E (İS) saylı qətnamə “Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında”, 25/9-C saylı qətnamə “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında” adlanır. 2003-cü ilin oktyabrında İKT-nin onuncu Zirvə görüşündə (Putrajaya, Malayziya), “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında” 12/ 10-P (İS) saylı qətnamə qəbul olunmuşdur. 2008-ci il mart ayında On birinci Zirvə görüşündə (Dakar, Seneqal Respublikası) “Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü haqqında” 10/11-P(İS) saylı qətnamə qəbul etmişdir (Karayev, 2008:212).

Ümumiyyətlə, bu günə qədər İKT-nin Zirvə görüşlərində və İKT Xarici İşlər Nazirləri Şurasının sessiyalarında Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin pisləyən qərar və qətnamələr qəbul edilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair İKT tərəfindən qəbul olunmuş sənədləri təhlil etməklə bu nəticələrə gəlmək olar. Birinci, İKT Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması faktını təsdiq edir; İkinci, İKT Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan torpaqlarından dərhal və qeyri-şərtsiz çıxmasını tələb edirdi; Üçüncü, İKT Ermənistanı təcavüzkar kimi tanıyaraq BMT-nin ali strukturlarından Ermənistana qarşı qəbul etdiyi qətnamə və qərarların icra olunmasını tələb edirdi; Dördüncü, İKT tərəfindən Ermənistanın təcavüzkar dövlət kimi tanınması o deməkdir ki, Ermənistan Respublikası birbaşa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin iştirakçısıdır. Bu fakt sonradan öz əksini 2008-ci ildə imzalanmış Moskva Bəyannaməsində tapmışdır. Bu faktın beynəlxalq sənədlərdə əks olunmasının böyük əhəmiyyəti var (Qarayev, 2012:61-64).

Ən nəhayət, İKT Ermənistanın işğalçı siyasətini insanlığa, mədəni və dini irsə qarşı törədilmiş cinayət faktı kimi qəbul edir.

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Avropa regional təşkilatlarının qəbul etdiyi qərarların da müəyyən rolu olub.**

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı − ATƏT özündə Avropa, Şimali Amerika və Asiyanın (Mərkəzi Asiyanın) 56 dövlətini birləşdirir və onun əhatə etdiyi ərazi,Kanadanın Vankuver şəhərindən Rusiyanın Vladivastok şəhərinə kimi uzanır. ATƏT-in əsasını təhlükəsizlik konsepsiyası təşkil edir. Azərbaycan Respublikası 1992-cil yanvar ayının 30-u ATƏM-ə üzv qəbul olunub. Azərbaycan 1992-ci ilin iyul ayının 10-da ATƏM-in Helsinkidə keçirilən ölkələrin dövlət və hökumət başçıları səviyyəsində keçirilən Zirvə görüşündə təşkilatın sənədlərini imzaladı. ATƏT-ə üzv ölkələrin dövlət və hökumət başçıları səviyyəsində Lissabon (1996, 2-3 dekabr), İstanbul (1999, 18-19 noyabr), Astana (2010, 1 dekabr) Zirvə görüşlərində üzv ölkələrin təhlükəsizliyi ilə bağlı mühüm sənədlər qəbul olunmuşdur (Məmmədov, 2011:307).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ATƏT-in diqqət mərkəzində saxladığı məsələlərdən biri olmuşdur. Bu təşkilat münaqişənin həlli prosesində vasitəçilik missiyasını öz üzərinə götürmüş və bu istiqamətdə müəyyən uğur əldə etmək üçün bir sıra addımlar atmışdır. 1992-ci ilin fevralında ATƏT-in ilk missiyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair məruzə hazırlamaq məqsədilə Azərbaycana gəldi. Missiyanın məruzəsi Yüksək

Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) fevral ayında Praqa şəhərində keçirilən iclasına təqdim olundu. Bu məruzədə Dağlıq Qarabağın Azərbaycan ərazisi olması faktı bir daha təsdiqləndi. YVŞK münaqişənin nizamlanmasına sülh yolu ilə nail olmağın zəruriliyini bəyan etdi. 1992-ci ilin mart ayında ATƏM-in nümayəndələri regiona yenidən səfər etdilər. YVŞK-nin iclasında məruzə dinlənildi və münaqişə tərəflərini sülh konfransının keçirilməsinə şərait yaratmağı tövsiyə etdi. 1992-ci il mart ayının 24-də YVŞK-nin zəmanəti əsasında ATƏM-in Xarici İşlər Nazirləri Şurası da Dağlıq Qarabağa dair sülh konfransının çağrılması barədə qərar qəbul etdi. Bu addımlardan sonra 1992-ci il mart ayının 24-də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll etmək məqsədi ilə ATƏT-in Minsk qrupu yaradıldı. Konfransda ABŞ, Fransa, Almaniya, İtaliya, Türkiyə, Çexiya, Slovakiya, Belarusiya, İsveç, Azərbaycan və Ermənistanın iştirakı nəzərdə tutulurdu. 1992-ci ilin mayında ATƏM-in YVŞK tərəfindən konfransın keçirilməsi barədə qərar qəbul olundu. Bu konfransda münaqişənin həllinə dair yekun sənəd qəbul olunmalı idi. ATƏM-in sədri konfransda iştirak edəcək dövlətlərlə məsləhətləşmə apararaq, Dağlıq Qarabağın erməni icmasının nümayəndələrinin də konfransa dəvət olunması tövsiyə olundu. 1994-cü il dekabr ayında Macarıstanın paytaxtı Budapeşt şəhərində ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti Zirvə görüşü keçirildi. Bu görüşdə münaqişə tərəflərinə hərbi əməliyyatların dayandırılması çağırışı edildi. ATƏM-in Minsk qrupu ilə əməkdaşlıq çərçivəsində Rusiya Federasiyasının səyi nəticəsində 1994-cü il mayın 12-də Bişkek şəhərində Ermənistan ilə Azərbaycan arasında müvəqqəti atəşgah razılaşması imzalandı (Məmmədov, 2011:312-325).

ATƏM bu addımı alqışlayaraq, bəyan etdi ki, BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə sadiq qalaraq münaqişənin sülh yolu ilə həll olunmasına çalışacaq. ATƏM-in Zirvə görüşündə qəbul etdiyi sənəddə münaqişənin həlli üçün sülhməramlı qüvvələrin göndərilməsi nəzərdə tutulurdu. Budapeşt Zirvə görüşünün əsas nəticələrindən biri Minsk Qrupunda həmsədrlik institutunun yaradılması oldu. 1996-cı ilin dekabrında Lissabonda ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti Zirvə Görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının əsas parametrləri müəyyən edildi. Bu parametrlər ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatında öz əksini tapmışdır. ATƏT-in Zirvə görüşündə qəbul olunan sənəddə üç prinsip tövsiyə edilirdi. Bu prinsiplər bunlardır:

- Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək səviyyəli özünüidarəetmə hüququ verilməli;
- Münaqişə tərəflərinin nizamlama prosesinin müddəalarına riayət etməli.

ATƏT-in İstanbul (1999, 19 noyabr) və Astana Zirvə Görüşünün (2010, 2-3 dekabr) sənədlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk Qrupunun üç həmsədr dövləti tərəfindən (ABŞ, Rusiya, Fransa) sülh yolu ilə həll olunması missiyası dəstəklənirdi. 1994-cü ildə ATƏT-in Minsk qrupunun həmsədrləri simasında münaqişənin nizama salınması mexanizmi təsbit edilmişdir. BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ABŞ, Rusiya və Fransa həmsədr dövlətlər olaraq münaqişənin nizamlanmasına dair bir neçə təklif vermişdir. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif problemin paket həllini, həmin ilin oktyabrında verdikləri ikinci təklif isə mərhələli həllini nəzərdə tuturdu.

1998-ci ilin noyabrında həmsədrlər yeni, üçüncü təklifi – "ümumi dövlət" təklifini verdilər. Bu təkliflərin bəzi müddəalarının beynəlxalq hüququn norma və prinsiplərinə zidd olmasına baxmayaraq, Azərbaycan Prezidenti həmsədrlərin birinci və ikinci təkliflərinin danışıqlar prosesinin konstruktiv istiqamətdə davam etdirilməsi üçün əsas kimi qəbul edilməsinə razılıq vermişdir. Hətta bu halda da, Ermənistan tərəfi qeyri-konstruktiv mövqe nümayiş etdirərək təkliflərlə razılaşmadı. Halbuki bu təkliflərdə erməni tərəfi üçün kifayət qədər güzəştlər nəzərdə tutulurdu. Həmsədrlərin "ümumi dövlət" təklifini Azərbaycan tərəfi qəbul etmədi. Çünki heç bir hüququ bazası olmayan "ümumi dövlət" məfhumu Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabərhüquqlu "ümumi dövlət" subyekti statusu verirdi. Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum edir və faktiki olaraq, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirirdi (Dağlıq Qarabağ münaqişəsi, 2005:134).

1999-cu ilin aprelindən başlayaraq Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində yeni format yarandı. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqu idi. Bu format Ermənistan tərəfinin birinci Qarabağ müharibəsinin nəticəsi olaraq özünü qalib tərəf kimi aparmasından və ədalətsiz mövqe nümayiş etdirməsindən irəli gələrək iflasa uğradı.

ATƏT-in Minsk qrupu həmsədrləri sülh danışıqlarını uğursuzluq sindromundan çıxarmaq üçün növbəti bir cəhd göstərdi. Bu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin hazırladığı Yenilənmiş Madrid prinsipləri adlanır. Madrid prinsipi ATƏT-in 2009-cu ilin noyabrında İspaniyanın paytaxtı Madriddə keçirilən Nazirlər konfransında ATƏT-in Minsk Qrupunun Həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinə təqdim etdikləri saziş planıdır. Madrid prinsipləri Praqa prosesində bərpa edilmiş və 2006-cı ilin iyununda ictimaiyyətə açıqlanan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün baza prinsiplərinə əsasən irəli sürülmüş sülh təşəbbüsünün davamı hesab edilir. Bu sənəd ATƏT-in Helsinki yekun Aktının müddəalarına əsaslanır və 1994-cü il atəşkəs sazişindən sonra münaqişə tərəfləri arasında sülh danışıqları nəticəsində ortaya çıxan yeganə sənəddir. Yenilənmiş Madrid prinsipləri 2007-ci ilin noyabrında ATƏT-in Minsk qrupu tərəfindən Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinə təqdim edilmiş əsas prinsiplərə əsaslanan sülh təşəbbüslərindən biridir. Yenilənmiş Madrid prinsipləri aşağıdakılardır:

- Dağlıq Qarabağın ətraf ərazilərinin Azərbaycanın nəzarətinə qaytarılması;
- Dağlıq Qarabağa təhlükəsizlik və özünüidarə hüququnu təmin edən müvəqqəti statusun verilməsi;
- Dağlıq Qarabağla Ermənistanı birləşdirən dəhliz;
- Bütün məcburi Köçkünlərin və Qaçqınların öz keçmiş yaşayış yerlərinə qayıtmaq hüququ;
- Sülhməramlı əməliyyatların daxil olduğu beynəlxalq təhlükəsizlik zəmanəti.

Yarandığı gündən ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığı, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, ümumilikdə onun bütün sonrakı fəaliyyəti istənilən nəticəni verməmişdir. Həmsədrlər, əsasən vasitəçilik fəaliyyəti ilə məşğul olaraq bu günədək danışıqlar prosesinə beynəlxalq hüquq normaları çərçivəsində lazımi təsir göstərə bilməmişlər (Qarayev, 2012:68)

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında AŞPA-nın qərarlarının da müəyyən rolu olub**. Avropa Şurası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında mühüm əhəmiyyət kəsb edən bir neçə qərar və qətnamə qəbul etmişdir. Avropa Şurasının bu qərarlarında nüfuzlu beynəlxalq təşkilatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi əks olunur. 1997-ci il aprelin 10-da xüsusi məruzəçi Saytlnqerin məruzəsi əsasında Avropa Şurasının əsas orqanlarından biri olan Avropa Şurası Parlament Assambleyası "Zaqafqaziyada münaqişələr haqqında" 1119 nömrəli (1997) qətnamə qəbul etmişdir. Abxaziya və Dağlıq Qarabağ münaqişəsinə dair Assambleya qeyd etmişdir ki, "öz təbiətinə görə bu münaqişələr fərqlənsə də, lakin Assambleya qeyd edir ki, onların siyasi nizamlanması üçün, 1975-ci il Helsinki Yekun Aktına və 1990-cı il Paris Xartiyasına əsaslanan prinsiplər aşağıdakılardır:

- sərhədlərin toxunulmazlığı, xüsusən çoxmillətli sülhməramlı qüvvələrdən istifadə edərək bu regionda bütün insanların təhlükəsizliyinin qarantiyası;
- bütün maraqlı olan tərəflərin danışıqları əsasında Abxaziya və Dağlıq Qarabağa geniş muxtariyyət verilməsi;
- insan hüquqlarına riayət edilməsini nəzərə almaqla, qaçqınların və məcburi yerlərini dəyişmiş şəxslərin öz evlərinə qayıtması hüququ və onların reinteqrasiya olunması əsasında münaqişəyə cəlb olunan bütün tərəflərin danışıq predmeti.

AŞPA-da xüsusi məruzəçi D.Atkinsonun 29 noyabr 2004-cü ildə təqdim etdiyi məruzəsində (sənəd 10364) qeyd olunur ki, "Azərbaycan ərazisinin mühüm bir hissəsi hələ də erməni qüvvələri tərəfindən işğal olunub". D.Atkinsonun məruzəsində xüsusi qeyd olunur ki, 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edən zaman Dağlıq Qarabağ onun tərkibində idi və Azərbaycanın sərhədləri beynəlxalq səviyyədə bu şəkildə tanınmışdı.Bu məruzənin əsasında AŞPA Minsk

Konfransının məşğul olduğu Dağlıq Qarabağ problemi ilə bağlı 1416 nömrəli (2005) qətnaməni qəbul etmişdir. Bu qətnamədə Azərbaycan ərazisinin mühüm bir hissəsinin-Dağlıq Qarabağ regionunun Ermənistan tərəfindən işğal olunması faktı öz əksini tapmışdır. Bu fakta aid qətnamədə deyilir ki, "Assambleya bir daha bəyan edir ki, təşkilatın üzvü olan hər hansı bir ölkə tərəfindən xarici ərazinin işğal edilməsi, Avropa Şurasının üzvü kimi bu ölkənin öhdəliklərinin ciddi pozulmasını təşkil edir" (Qarayev, 2012:85).

Bu qərar çox böyük əhəmiyyətə malikdir. İslam Konfransı Təşkilatından sonra AŞPA öz qərarında Ermənistanı Azərbaycanın ərazilərini işğal edən dövlət kimi göstərdi və faktiki bu dövləti Azərbaycana qarşı təcavüzdə ittiham etdi. Ümumiyyətlə, AŞPA Azərbaycana qarşı ədalətli mövqe tutan nüfuzlu beynəlxalq təşkilatlardan biridir.

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsində Avropa Birliyinin də müəyyən rolu olub**. Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın əsasını Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) qoymuşdur. Bu sənəd 1996-cı il aprel ayının 22-də imzalanmış və bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1 iyul 1999-cu ildə qüvvəyə minmişdir. Avropa Birliyi "Şərqi Partnyorluq" proqramı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qərarlar qəbul etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində NATO, GUAM kimi təşkilatların müxtəlif proqramlarında tövsiyə xarakterli qərarlar öz əksini tapıb. Ancaq 29 ilə yaxın ən nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsinə aid qərar və qətnamələr qəbul olunsa da, bu qərarlar kağız üzərində qaldı.

Ermənistan xarici havadarlarının himayəsi altında beynəlxalq təşkilatların qərarlarına məhəl qoymadı. Burada beynəlxalq təşkilatların da günahı var. Bu təşkilatlar münaqişə tərəflərini bərabərhüquqlu tutaraq və ikili standartlardan yanaşaraq bu və digər formada ermənilərin tərəfini tutmaqla, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində möhkəmlənməsinə şərait yaratdılar.

ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması missiyası beynəlxalq hüquq normalarına, humanizm və ədalət prinsiplərinə söykənmədiyindən problemin sülh yolu ilə həll olunmasını qeyri-mümkün etdi. Sülh danışıqlarının gedişində həmsədrlərin birbaşa olmasa belə, dolayısı ilə Ermənistanı dəstəkləməsi Azərbaycan tərəfini mürəkkəb situasiya ilə üz-üzə qoydu. Ermənistan tərəfi qalib dövlət kimi çıxış edərək nəinki işğal etdiyi Azərbaycan torpaqlarından çıxmaq istəyirdi, əksinə növbəti müharibəyə hazırlaşaraq Azərbaycanı biabırçı sülh sazişi imzalamaqla təhdid edirdi. Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin gözü önündə işğal olunmuş Dağlıq Qarabağ və ətraf ərazilərdə sürətlə silahlanma həyata keçirir, istehkam qurğuları inşa edirdi. Ermənistanın Baş Naziri Nikol Paşinyan dəfələrlə bəyan etmişdir ki, əgər yeni müharibə başlayarsa, onlar yeni ərazilər işğal edəcəklər. Bu çağırış bir daha Ermənistanın işğalçı dövlət olduğunu təsdiq edən fakt idi. Ermənistanın dünya ictimaiyyətinə bu cür "meydan oxumasının" səbəbi aşağıdakılardır:

- ATƏT-in Minsk qrupunun simasında, beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Ermənistanın bərabərhüquqlu tərəf kimi tanınması;
- ATƏT və digər beynəlxalq təşkilatların Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan 60 min (hal-hazırda 40 min) erməni əhalisinin Azərbaycan əleyhinə hərəkətləri separatizm deyil, "Millətlərin öz müqəddəratını təyinetmə hüququ" mövqeyindən yanaşması (halbuki, hal-hazırda Qafqaz regionu daxil olmaqla, dünya dövlətləri içərisində ən az erməni əhalisi yaşayan ərazi Azərbaycandır);
- Ən nəhayət, beynəlxalq münasibətlər sistemində etnik-dini zəmində ikili standartların mövcud olması.

2016-cı il aprel ayının 1-5 arası baş vermiş 4 günlük müharibədə Ermənistan ordusunun bir neçə istiqamətdə ağır məğlubiyyətə uğraması həm Ermənistan, həm də ATƏT-in Minsk qrupu daxil olmaqla ermənilərin havadarları üçün ciddi xəbərdarlıq siqnalı olmalı idi. Bu hadisə Azərbaycan üçün Böyük Zəfərin başlanğıcı idi (28). 29 il davam edən danışıqların heç bir nəticə verməməsi,

həmçinin Ermənistanın Baş Naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi populist bəyanatları, onun Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri kimi təxribatçı xarakter daşıyan hərəkətləri, 2019-cu il mart ayında Ermənistanın Müdafiə naziri David Tonoyanın ABŞ-da rəsmi səfərdə olarkən, "yeni torpaqlar üçün yeni müharibə" çağırışı, Ermənistanın Madrid prinsiplərindən imtina etməsi və ən nəhayət, 2020-ci il iyul ayında Ermənistan ordusunun Ermənistan-Azərbaycan sərhədində təxribat törətməsi münaqişənin müharibəyə çevrilməsinə gətirib çıxardı. Bu hadisə eyni zamanda, həm Azərbaycan, həm də Qərb üçün önəmli olan vacib infrastrukturu- dəmiryol və boru layihələrini təhdid altına aldı. 2020-ci il sentyabr ayının 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT TŞ-nin 75-ci sessiyasına ünvanladığı çıxışında, dünya ictimaiyyətinə Ermənistanın təxribatçı əməllərdən və işğalçılıq niyyətindən əl çəkmədiyini bəyan etdi (24).

Azərbaycan Respublikası 44 günlük Vətən müharibəsində (27 sentyabr-10 noyabr 2020) qəhrəmanlıq tarixi yazaraq torpaqlarını erməni işğalından azad etdi. Müharibənin ilk həftəsində ATƏT-in həmsədrləri olan dövlətlər regionda baş verənləri kənardan müşahidə edirdi. ATƏT-in həmsədrləri elə hesab edirdilər ki, müharibədə Azərbaycan tərəfi məğlub olaraq yeni torpaq itkiləri ilə üzləşəcək və sonda,Azərbaycan həm ATƏT-in sülh missiyasının, həm də Ermənistanın istəyinə uyğun təslimçi sülh sazişinə imza atacaq. Müharibənin gedişində Azərbaycan Ordusunun uğurları həm ATƏT-in həmsədri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa), həm də Cənubi Qafqaz regionunda geostrateji marağı olan dövlətlərin davranışlarını dəyişdirdi. Bu müharibədə ATƏT-in Minsk qrupunun həmsədri olan **Fransa** dövləti vasitəçi missiyası ilə bir araya sığmayan hərəkət edərək, birtərəfli mövqe nümayiş etdirməklə açıq şəkildə Ermənistanı müdafiə etməyə başladı. Bu dövlət ərazisindəki təlim düşərgələrində terrorçu dəstə hazırlayıb və silah-sursat göndərməklə Ermənistana birbaşa yardım edirdi. Bunu müharibə gedən günlərdə Fransadan Ermənistana çarter reysləri ilə göndərilən yüklərin təyinatı və sərnişinlərinin tərkibi (onların mülki şəxslər olmaması) faktı təsdiq edir. Fransa BMT Təhlükəsizlik Şurasının və "Böyük 8-lər"in üzvü olması hüququndan istifadə edərək BMT Təhlükəsizlik Şurasında dinləmələr keçirilməsinə nail oldu (29 sentyabr, 2020). BMT TŞ-nin iclasının gündəliyində duran əsas məsələ: "Dağlıq Qarabağ" və onun ətrafındakı ərazidə hərbi əməliyyatları dayandırmaq, Azərbaycan Ordusunun hərbi əməliyyatlardan əvvəl olduqları mövqelərinə geri çəkilməsini təmin etmək və Azərbaycana "işğalçı dövlət" damğası vurmaq idi. Bu iclasda İngiltərə veto hüququndan istifadə edərək Fransanın məkrli planlarını alt-üst etdi. Fransa İrəvan və Bakını hərbi əməliyyatları dərhal dayandırmağa və danışıqlara yenidən başlamağa çağırdı. Bu, Fransanın ədalətli mövqe nümayiş etdirməsi anlamına gəlmir, sadəcə olaraq Ermənistanı düşdüyü ağır durumdan çıxarmaq cəhdi idi.

**Rusiya** müharibənin gedişində hərbi əməliyyatlara birbaşa müdaxilə etməsə də, müxtəlif vasitələrlə Ermənistana hər cür yardımını (hərbi, maliyyə və s.) göstərməyə davam etdi. Rusiya Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ münaqişəsinin tərəflərini dərhal atəşi dayandırmağa çağırdı. Danışıqlar ilk növbədə Ermənistanın təqsiri üzündən pozulduğuna görə müharibənin bərpası qaçılmaz idi.

Ermənistan rəhbərlərinin mövqeyi açıq-aşkar danışıqları pozmağa yönəlmişdi. Ona görə də hərbi əməliyyatların başlaması an məsələsi idi. Rusiya dəfələrlə bildirib ki, Ermənistan KTMT (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) çərçivəsində müttəfiqdir, amma Dağlıq Qarabağ Ermənistana aid deyil, odur ki, Qarabağ ərazisindəki hərbi əməliyyatlarla bağlı Rusiya vasitəçilikdən savayı hər hansı öhdəlik daşımır.

Bu fikirləri Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergrey Markov Report İnformasiya Agentliyinin Rusiya bürosuna açıqlamasında dilə gətirdi. Ermənistan ordusu və onun xarici havadarları Azərbaycanın münaqişə zonasından uzaqda yerləşən yaşayış məntəqələrini (Tərtər, Gəncə, Bərdə) bombardman edərək, hərbi əməliyyatları Ermənistan ərazisinə keçirmək istəyirdi. Ermənistanın məqsədi Rusiyanın simasında KTMT-nin üzvü olan dövlətləri müharibə aparan tərəfə çevirmək idi. Lakin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik və uzaqgörən siyasəti və xalqımızın iradəsi sayəsində ermənilərin bu niyyəti iflasa uğradı (Qlobal siyasət, 2013:299-303).

**ABŞ** prezident seçkiləri ərəfəsində olduğu üçün 44 günlük Vətən müharibəsinə münasibətdə heç bir mövqe nümayiş etdirmədi. 2020-ci il dekabrın 18-də "ABŞ-Azərbaycan münasibətləri və II Qarabağ müharibəsinə" dair beynəlxalq vebinar keçirildi. Vebinarda çıxış edən ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Robert Sekuta bəyan etdi ki, "Coğrafi mövqeyini nəzərə alsaq Azərbaycan regionda xüsusi rol oynayır. Xüsusən bu ölkənin Rusiya və İranın qonşuluğunda yerləşməsi hər zaman diqqətə alınmalıdır. Azərbaycan həmçinin Avropa və Asiya arasında bağlantı rolunu oynayan vacib mərkəzə çevrilib. R.Sekuta bildirdi ki, Qarabağda baş verən son proseslər regionda vəziyyəti kəskin dəyişib, lakin ABŞ bu prosesdə heç bir rol oynamayıb. Növbəti illər ərzində ABŞ-ın yeni administrasiyası yeni mərhələyə imza ata bilər. Bu baxımdan münasibətlərə yenidən baxılmasına ehtiyac var. ABŞ Azərbaycanla Ermənistan arasında sülhün yaradılmasına töhfə verə bilər (26).

"Atlantik Council"-də Qlobal Enerji Mərkəzinin direktoru, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Morninqstar da vebinarda çıxış edib. O deyib ki, Bayden administrasiyasının Azərbaycana və bütövlükdə regional proseslərə daha çox cəlb olunacağına ümid edirəm (25).

Onun sözlərinə görə, Qarabağ müharibəsi zamanı Azərbaycan böyük nailiyyət əldə edib və illər sonra ərazisinin böyük hissəsini azad etməyə nail olub. O, münaqişənin tamamilə həll olunmasını istədiyini deyib və regiondakı bütün ölkələrin, o cümlədən Ermənistanın da bunda maraqlı olduğun bildirib. İrs Fondu (Heritage Foundation) yanında Xarici Siyasət Araşdırmaları üzrə Allison Mərkəzinin direktoru Luyk Koffi ABŞ-Azərbaycan münasibətlərinin gələcək perspektivləri baxımından bir sıra təkliflərlə çıxış edib (23).

Onun sözlərinə görə yeni administrasiya zamanı daha çox rəsmi şəxslərin Azərbaycana səfərləri təşkil olunmalıdır. Həmçinin o, Azərbaycanın münaqişə zonasına və Gürcüstana yaxın yerləşən ikinci böyük şəhəri Gəncədə ABŞ konsulluğunun açılmasının vacibliyini qeyd edib. Onun sözlərinə görə, bununla ABŞ həmin yerlərdə vəziyyəti daha yaxşı anlaya bilər. O, həmçinin bildirib ki, Ermənistan və Azərbaycanı bir araya gətirməkdə ABŞ fəaliyyətini artırmalıdır. Hərbi əməliyyatların davam etdiyi dönəmdə ABŞ Dövlət katibinin birinci müavini Stiven Biqan Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramov və Ermənistan Xarici İşlər naziri Zöhrab Minatsakanyanla əlaqə saxlayaraq hər iki tərəfi dərhal hərbi əməliyyatları dayandırmağa, vəziyyəti daha da gərginləşdirməmək üçün aralarındakı mövcud olan birbaşa rabitə əlaqələrindən istifadə etməyə və regiondakı gərginliyi daha da artıran ritorika və hərəkətlərdən uzaq olmağa çağırıb. ATƏT-in Minsk qrupunun amerikalı sabiq həmsədri Riçard Hoqland: "Beynəlxalq hüquqa görə, Ermənistan başqa bir suveren dövlət olan Azərbaycanın suveren ərazisinə soxulub və işğal edib". O, qeyd edib ki, ABŞ-ın əsas siyasəti bütün millətlərin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləmək və qorumaqdır.

Vətən müharibəsinin ilk günlərindən müxtəlif beynəlxalq təşkilatların üzvü olan dünyanın bir çox dövlətləri, o cümlədən qardaş *Türkiyə, Pakistan, Gürcüstan, Qazaxıstan, Əfqanıstan, Bosniya və Herseqovina, İsrail, Malayziya, Macarıstan* Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyərək, Ermənistan dövlətinə Azərbaycan ərazilərindən çıxması haqda çağırış etdilər.

**Türkiyənin** Müdafiə naziri Hulusi Akar Azərbaycanın tərəfində olduğunu bildirib və Ermənistanın mövqeyinin Qafqazda sülh və sabitliyin ən böyük əngəl olduğunu vurğulayıb. Ədalət və İnkişaf Partiyasının mətbuat katibi Ömər Çelik də rəsmi "Twitter" səhifəsində etdiyi paylaşımda Ermənistanın Azərbaycana qarşı hücumlarını sərt şəkildə qınayıb. Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalın məsələ ilə bağlı rəsmi "Twitter" səhifəsində Türkiyənin bu hücumlara qarşı Azərbaycanın yanında olduğunu bildirib:

"Erməni xalqını onları fəlakətə aparan hökumətlərinə və onları bir kukla kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyaya işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram". 30 ilə yaxındır məsələyə etinasız yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həll üçün göstərilən fəaliyyətdən təəssüf ki, çox uzaqdır. "Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır" − deyə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan öz çıxışında vurğulayıb.

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu, həmçinin Ədalət və İnkişaf Partiyası (AKP) sədrinin müavini Numan Kurtulmuş Azərbaycanın Ankaradakı səfirliyini ziyarət edib. Onlar Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahimlə görüşüblər. Mövlud Çavuşoğlu səfirlikdəki çıxışında deyib: "Bu problemin həlli çox sadədir. Bunun üçün Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından çıxmalıdır. Ermənistan torpaqlardan çəkilməyənədək problem həll olunmayacaq. Azərbaycanın ərazi bütövlüyü ilə bağlı BMT-nin qərarı mövcuddur. ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişənin həlli üçün heç bir konkret addım atmayıb. Türkiyə Respublikası müharibədən sonrakı dövrdə də Azərbaycanın mövqeyini dəstəkləməkdə davam edir. Bunu 2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında imzalanmış bəyannamə bir daha sübut edir.

Şuşa bəyannaməsi həm Azərbaycan, həm də Türkiyə üçün mühüm siyasi və tarixi əhəmiyyət kəsb edir. Bu bəyannamə, 1921-ci il Qars müqaviləsi daxil olmaqla, Azərbaycanla Türkiyə arasında bu günə qədər imzalanmış bütün dövlətlərarası sənədləri əhatə edir və iki qardaş dövlət arasında bütün sahələr üzrə strateji əməkdaşlığı nəzərdə tutur (28).

**Gürcüstan** Respublikasının Prezidenti Salome Zurablşvili tərəfləri barışığa çağırmış, Gürcüstan Parlamentinin deputatı Ruslan Hacıyev parlamentdə çıxışında "Azərbaycanın ərazi bütövlüyünün bərpasının tez bir zamanda Gürcüstanın ərazi bütövlüyü məsələsinin həllinə yol açacağına inandığını" bildirmişdir. Gürcüstan Respublikasının 3-cü Prezidenti Mixail Saakaşvili öz Facebook səhifəsində "Mənim mövqeyim ərazi bütövlüyü prinsipinə əsaslanır, yəni Dağlıq Qarabağ Azərbaycan Respublikasının suveren ərazisidir və heç bir şeyin onu dəyişdirməyəcəyi" fikrini ifadə etmişdir. Müharibədən sonrakı bir ildə Gürcüstan hökuməti Türkiyə, Azərbaycan və Ermənistan arasında birbaşa dialoqun bərpa olunması üçün vasitəçilik missiyasını həyata keçirir (29).

**Pakistan** Xarici İşlər Nazirliyi bəyanat verdi ki, Ermənistan vəziyyətin daha da gərginləşməməsi üçün hərbi müdaxiləni dayandırmalıdır. Azərbaycanın Dağlıq Qarabağla bağlı mövqeyini dəstəkləyirik və bu mövqe BMT TŞ-nin qərarlarına uyğundur. Pakistan dövləti Vətən müharibəsi dövründə Azərbaycana hər cür mənəvi, siyasi dəstəyini göstərməklə Azərbaycanın yanında olduğunu bildirdi.

**İsrail** dövləti Vətən müharibəsinin getdiyi müddətdə Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini bildirdi. Yisrael Beiteini partiyasının lideri, ölkənin keçmiş Xarici işlər və Müdafiə naziri olmuş Aviqdor Liberman yerli "Vesti" nəşrinə açıqlamasında qeyd etdi ki, "...Tarixdən gördüyümüz kimi hələ Sovet İttifaqı yaranandan əvvəl də Dağlıq Qarabağ əsasən Azərbaycanın tərkibində olub. Ermənistan Baş Naziri vəzifəsində Dağlıq Qarabağdakı klanlarla bağlı olmayan ilk şəxs olan Nikol Paşinyanın seçilməsindən sonra müsbət dəyişiklik olacağına bəslənən ümidlər özünü doğrultmadı" (27).

Paşinyan daha da sərt mövqe tutaraq "Dağlıq Qarabağ Ermənistandır və nöqtə deyə məlum bəyanatı verdi"- deyən partiya lideri beynəlxalq hüquq nöqteyi-nəzərindən Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu xatırladaraq bəyan edib ki, elə buna görə də BMT üzvü olan heç bir dövlət, o cümlədən Ermənistanın özü də Dağlıq Qarabağı suveren qurum kimi tanımayıb. İsrail dövləti beynəlxalq hüquq prinsiplərinə sadiq qalaraq hökumətin başında kimin olmasından asılı olmayaraq hər zaman Azərbaycanı dəstəkləyib. Məhz ona görə də, müharibənin ilk günlərində Ermənistan İsraili Azərbaycana göstərdiyi dəstəyinə görə kəskin tənqid etdi. Ermənistan İsrailin bu mövqeyinə öz etirazını bildirmək üçün İsraildəki səfirini geri çağırdı (28).

**İran İslam Respublikası** Vətən müharibəsi zamanı və müharibədən sonrakı dövrdə tamamilə fərqli mövqe nümayiş etdirdi. Döyüş əməliyyatlarının getdiyi müddətdə (29 sentyabr) dövlət rəsmiləri İran üzərindən Ermənistana daşınan yüklərin nədən ibarət olduğunu müəyyən etmək məqsədi ilə Şərqi Azərbaycan vilayətinin Norduz gömrük-sərhəd keçid məntəqəsində nəzarətin gücləndirildiyini bildirdi. İranın Ali Rəhbərinin Şərqi Azərbaycan üzrə nümayəndəsi Seyid Həsən Amili Azərbaycan Ordusunun qələbəsindən sevindiyini bildirdi, müharibədən bir il sonra həmin Seyid Həsən Amili Azərbaycan Respublikasına qarşı ağır ittihamlar irəli sürdü. O, bu hərəkətləri ilə Fars şovinizminin əsl simasını göstərdi (28).

Vətən müharibəsindən sonrakı bir ildə bəzi beynəlxalq təşkilatlar susqunluğa son verərək Azərbaycana qarşı əsassız iradlar tutmağa başladılar. Bu təşkilatlar Dağlıq Qarabağ probleminin həll “olunmadığı” iddiasını irəli sürərək ATƏT-in Minsk qrupu formatının bərpa olunmasını tələb edir. Bu təşkilatların məqsədi Ermənistanı dəstəkləməklə onun xeyrinə hansısa uğura nail olmaqdır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müdrik və qətiyyətli mövqeyi bu qurumlar üçün ciddi xəbərdarlıqdır. Prezident İlham Əliyev bunu 2021-ci il sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasında ümumi müzakirələr çərçivəsində video müraciət formatında çıxışında bir daha təsdiq etdi (30).

## Nəticə

XX əsrin 80-ci ilin II yarısında keçmiş SSRİ imperiyasının süqutunda maraqlı olan beynəlxalq güc mərkəzləri çoxmillətli bir dövləti parçalamağın ən asan üsullarından biri kimi onun ərazisində etnik-dini münaqişə ocaqlarının yaradılmasını hesab etdi. Bu baxımdan SSRİ-nin tərkib hissəsi olan Azərbaycan SSR hədəf seçilən ittifaq respublikalarından biri idi. 1988-ci ildə Azərbaycan SSR-nin ayrılmaz bir hissəsi olan keçmiş DQMV-də erməni separatizminin baş qaldırması bunun iyrənc bir nümunəsi idi. ATƏT-in Minsk qrupu və ATƏT-in Minsk qrupunun Həmsədrlik institutunun yaradılması ilə “Dağlıq Qarabağ” probleminin həlli Azərbaycanın yuristfikasiyasından çıxarıldı. Bununla beynəlxalq müstəvidə bu münaqişənin həllində marağı olan beynəlxalq təşkilatlar və dövlətlər tərəfsizliyini qoruya bilmədi.Bu münaqişənin həlli istiqamətində etnik-dini ayrıseçkilik zəminində ikili standart ortaya çıxdı. Ona görə də Azərbaycan ərazi bütövlüyünü bərpa etmək üçün hərbi resurslarından istifadə etmək qərarı verdi. 30 ildən çox bir müddətə münaqişə dondurulmuşdu. Ermənistan dövləti,dünya erməniliyi işğal etdikləri Azərbaycan ərazilərində “erməniləşdirmə” siyasəti həyata keçirməklə Azərbaycan torpaqlarını özünküləşdirirdi. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-a kimi davam edən 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında Azərbaycan Silahlı Qüvvələri ərazilərimizi işğaldan azad etməklə Zəfər tarixi yazdı. Bu tarix Azərbaycan xalqını və dövlətini yüzilliklərə daşıyacaq bir lokomativdir.

## Ədəbiyyat

1. Əliyev, H. (1997). Müstəqillik yollarında. I-IV kitablar. Bakı.
2. Qarayev, R. (2012). Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq. Bakı, 344 s.
3. http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/ bmt-qetnameleri. htm
4. http://www.osce.org/documents/mcs/ 1975/08/4044_ru. Pdf
5. http://www.nato.int/cps/en/natolive/official_texts_68828.htm?mode=pressrelease
6. Əhmədov, E. (1998). Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 137 s.
7. İkinci Qarabağ müharibəsinin birinci ildönümü: ötən müddət ərzində nə dəyişib? (https://www. bbc. com/azeri/azerbaijan-58685829. amp)
8. Dağlıq Qarabağ münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi. (2005). Bakı, 167 s.
9. 29 iyul 1993-cü il tarixli BMT Təhlükəsizlik Şurasının 853 (1993) nömrəli qətnaməsi (http://www.un.org/russian/documen/scresol/res 1993/ res 853.htm)
10. 14 oktyabr 1993-cü il tarixli BMT Təhlükəsizlik Şurasının 874 (1993) nömrəli qətnaməsi (http://www.un.org/russian/documen/ scresol / res 1993 / res 874. htm)
11. 12 noyabr 1993-cü il tarixli BMT Təhlükəsizlik Şurasının 884 (1993) nömrəli qətnaməsi (http://www.un.org/russian/documen/scresol/res 1993/res884.htm)
12. 2 mart 2001-ci il tarixli BMT Baş Məclisinin qətnaməsi (http://daccessdds.un.org/doc/UNDOC/GEN/N00/570/15/PDF/N0057015.pdf? OpenElement)
13. İbayev, V. (1998). İslam Konfransı Təşkilatı. Bakı, Elm, 98 s.
14. İbayev, V. (1998). İslam Konfransı Təşkilatının Ermənistan-Azərbaycan münaqişəsi ilə

əlaqədar qəbul etdiyi qətnamələr beynəlxalq hüquqa əsaslanan sənəddir. Qanun jurnalı, № 7 (47).
15. Karayev, R.M. (2009). Sootnosheniye i vzaimosvyaz printsipov territorialnoy tselostnosti i ravnopraviya i samoopredeleniya narodov v teorii i praktikemezhdunarodnogo prava. Baku, 304 s.
16. Qarayev, R.M. (2008). Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində İslam Konfransı Təşkilatının qərarlarının əhəmiyyəti. "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı, №3, (15), s.66-70; №4, s.66-70.
17. Qarayev, R.M. (2008). Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində NATO qərarlarının rolu və əhəmiyyəti. Nəqliyyat hüququ, № 4, s.140-147.
18. Məmmədov, N. (2011). Geosiyasətə giriş, II cild. Bakı: "Azərbaycan" nəşriyyatı, 416 s.
19. İkinci Qarabağ müharibəsi: Qərb və Rusiya mediasının yanaşması (https://apa.az/az/xeber/siyasi/Ikinci-Qarabag-muharibsi-Qrb-v-Rusiya-mediasinin-yanasmasi-colorredTHLILcolor-619554)
20. Qlobal siyasət: təhdidlər, çağırışlar, ümidlər. (2013). Bakı: Qanun Nəşriyyatı, 320 s.
21. İkinci Qarabağ müharibəsi (https://www. virtualkarabakh. az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi. html)
22. İkinci Qarabağ müharibəsinə reaksiyalar (https://az. m. wikipedia. org/wiki/%C4%B0kinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99sin%C9%99_reaksiyalar)
23. http://ru.trend. az/news/official/chronicle/1695644html
24. İkinci Qarabağ müharibəsi: "Azərbaycan bir sıra ölkələr və beynəlxalq təşkilatlarla münasibətlərinə yenidən baxacaq" (https://aqreqator. az/az/siyaset/1081650)
25. BMT Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il tarixli 822 (1993) nömrəli qətnaməsi (http://www.un.org/russian/ docu-men/scresol/res 1993/res822.html)
26. İkinci Qarabağ müharibəsi (https://az.m.wikipedia. org/wiki/%C4% B0kinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99si)
27. http:/www.un.org/en documents/charter/index.shtml
28. 9 fevral 2000-ci il tarixli BMT Baş Məclisinin qətnaməsi (http://daccess-ods.un.org/access.nsf/Get?Open&DS=A/RES/54/117&Lang=R)
29. İbayev, V. (2006). Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. Bakı: Elm, 696 s.
30. Babayev, Z.A. (2008). NATO-nun formalaşması prosesində postsovet ölkələrinin NATO ilə əməkdaşlığının beynəlxalq hüquqi tənzimlənməsi. Nəqliyyat hüququ, № 4. s.94-105.
31. Ilham Aliyev: «My blagodarim NATO za zanyatuyu pozitsiyu v Karabakhskom konflikte» http://1news.az/politics/20090427054434891. html
32. "Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatına qəbulu" adlı 2 mart 1992-ci il tarixli BMT Baş Məclisinin qətnaməsi.

Göndərildi: 19.10.2022 Qəbul edildi: 11.12.2022

DOI: https://doi.org/10.36719/2663-4619/86/26-34

**Zəhra Abas qızı Allahverdiyeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
zahra.allahverdiyeva@mail.ru
https://orcid.org/0000-0002-8697-0395

# NİZAMİ GƏNCƏVİNİN DAVAMÇISI XACU KİRMANİ VƏ ONUN "KAMALNAMƏ" POEMASI

**Xülasə**

Şərq ədəbiyyatında epik şeirin inkişafı, o cümlədən Nizami Gəncəvinin "Xəmsə" mövzularının təsir dairəsinin öyrənilməsi ədəbiyyatşünaslığın aktual problemlərindən biri olaraq qalmaqdadır. Problemin nəzəri aspektləri XX əsr elminin əsas sahələrindən biri olaraq daim diqqət mərkəzində olmuşdur. A.Y.Krımski, Y.E.Bertels, V.M.Jirmunski, F.Köprülü, A.Sirri Ləvənd, H.Araslı, M.Mübariz, Q.Əliyev, R.Əliyev, R.Azadə, Q.Beqdeli, Xəlil Yusifli, N.Araslı, İ.Həmidov, T.Kərimli, M.Kazımov, A.B. Kudelin, A.V.Mixaylov, M.Y.Borev və başqaları bu sahədə əhəmiyyətli elmi-nəzəri fikirlər yürütmüşlər.

Təqdim olunan məqalədə Nizami ədəbi məktəbinin davamçısı, XIV əsrin məşhur filosof-şairi Xacu Kirmaninin "Xəmsə" yaradıcılığından "Kamalnamə" məsnəvisi tədqiqata cəlb olunur. Araşdırmalar göstərir ki, Xacu Kirmaninin "Xəmsə"si Azərbaycan poeziya məktəbinin dahi nümayəndəsi Nizami Gəncəvinin humanist ideyalarının və bədii üslub xüsusiyyətlərinin yeni-orta əsrlər dövrünə uyğun olaraq modern tərzdə davamıdır.

Poema 12 babdan (fəsildən) ibarətdir. Hər bir fəsildə islami-sufi fəlsəfənin tarixi və mahiyyəti haqqında şərhlər, dövrünün ictimai-əxlaqi görüşlərini əks etdirən fəlsəfi-didaktik məzmunlu hekayələr verilmişdir.

Əsər minacat, nət, şairin mürşidi Əbu İshaq Kaziruninin mədhi, seyri-süluk, salikin kamil nəfsə yetişməsi, aləmin şərhi, salikin 4 ünsürlə − su, torpaq, yel və odla mükaliməsi, odla mükalimədə can aləminə işarə etməsi, seyri-sülukla səfər etmə, mütənahi (sonu olan) dünyadan namü-tənahi (sonu olmayan) dünyaya keçid, ovçu könüllərin bəyanı, susmağın fəziləti və onun xüsusiyyətləri, Aristatalisin hekayəsi, dövranın vəfasızlığı haqqında, Əmir əl-möminin İmam Əlinin mübariz aşiqlə döyüşü, cavan qazi və Rum qeysərinin qızının hekayəsi, Həsən Bəsri haqqında hekayə, İbrahim Ədhəm haqqında, Sultan Mahmud Qəznəvi və Hindistan padşahının oğlunun hekayəsi, İmam Qəzali və qardaşının hekayəsi, daim Xızrı arzulayan padşah haqqında hekayə, sözün ilkinliyi, yəni Allaha bağlı olması və mənaya həsr olunmuş xüsusi başlıqlar və başqa maraqlı məzmunlu hissələr Xacu Kirmaninin zəngin ideya-fəlsəfi görüşlərini və sənətkarlıq qüdrətini əks etdirir. Əsərin sonunda şairin Cəmaləddin Əbu İshaq İncuya sitayişi, oğlu Mücirəddin Əbu Səid Əliyə nəsihəti və kitabın xətm olunması haqqında bölmələr Xacu Kirmani sənətinin mükəmməl bədii-fəlsəfi xüsusiyyətlərini nümayiş etdirir.

Məqalədə Xacu Kirmani "Xəmsə"sinin indiyədək tam tədqiq olunmayan halqası − "Kamalnamə" adlı fəlsəfi məzmunlu didaktik əsəri tədqiqata cəlb olunur; burada tarixi-fəlsəfi məsələlər və şairin poetik axtarışları nəzərdən keçirilir.

***Açar sözlər:*** *Nizami Gəncəvi, Xacu Kirmani, Xəmsə, "Kamalnamə", cavab, didaktik üslub*

**Zahra Abas Allahverdiyeva**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
Ph.D in Philology
zahra.allahverdiyeva@mail.ru
https://orcid.org/0000-0002-8697-0395

# Khaju Kirmani the successor of Nizami Ganjavi and his poem "Kamalname"

## Abstract

The study of the interactions and connections between the cultures and literatures of the peoples of the Near and Middle East is an important problem that is always in the focus of world and Azerbaijani literary criticism. In the twentieth century, the theoretical aspects of the problem have been identified, and considerable research has been conducted in various areas on the basis of the historical-comparative method.

In the past, A.Y.Krymsky, Y.E.Bertels, V.M.Jirmunski, F.Koprulu, A.Sirri Lavand, H.Arasli, M.Mubariz, G.Aliyev, R.Aliyev, R.Azade, H.Yusifli, N.Arasli, I.Hamidov, T.Kerimli, M.Kazimov, A.B.Kudelin, A.V.Mikhailov, M.Y.Borev and others made important scientific and theoretical ideas in this field.

The study of numerous works in Eastern literature under the influence of Nizami Ganjavi's "Khamsa" themes on the basis of the above-mentioned principles remains one of the urgent problems of literary criticism.

In the presented article, the prose "Kamalname" from the works of "Khamsa" by the famous philosopher-poet of the XIV century Khaju Kirmani, the successor of Nizami literary school, is involved in research. Research shows that Khaju Kirmani's "Khamsa" is a modern continuation of the humanist ideas and artistic style features of the great representative of the Azerbaijani school of poetry Nizami Ganjavi in accordance with the new-medieval period.

The poem consists of 12 chapters. Each chapter contains comments on the history and essence of Islamic-Sufi philosophy, and philosophical-didactic stories reflecting the socio-moral views of the time.

The work praises, praises, praises the poet's mentor Abu Ishaq Kaziruni, seyri-suluk, Salik's perfect maturity, interpretation of the world, salik's dialogue with the 4 elements − water, earth, wind and fire, pointing to the world of soul in dialogue with fire, seyru-suluk The transition from the world of the unseen to the world of the unseen, the declaration of the hunter's heart, the virtue of silence and its characteristics, the story of Aristatalis, the infidelity of the times, the battle of Amir al-Mu'minin with Imam Ali, the story of the young judge , The story of Hasan Basri, the story of Ibrahim Adham, the story of Sultan Mahmud Ghaznavi and the son of the king of India, the story of Imam Ghazali and his brother, the story of the king who always dreamed of Khidr, the originality of the word It reflects the rich ideological and philosophical views of Khaju Kirmani and the power of art. At the end of the work, the sections on the poet's worship of Jamaladdin Abu Ishaq Inju, his son Mujiraddin Abu Said Ali's advice and the completion of the book demonstrate the perfect artistic and philosophical features of Khaju Kirmani's art.

***Keywords:*** *Nizami Ganjavi, Khaju Kirmani, Khamsa, the answer, “Kamalname”, didactic style*

## Giriş

Dünya xalqları mədəniyyətində ədəbi təsirin tarixi-ictimai qanunauyğunluqlarının ədəbiyyatşünaslığın aparıcı metodoloji tələbləri çevrəsində, əsasən hermenevtik metodun prinsipləri üzrə həyata keçirilməsi vacibdir. Bu cəhətdən, Nizami Gəncəvi yaradıcılığının ədəbi qaynaqlarının araşdırılmasını aşağıdakı prinsiplər əsasında aparmaq vacibdir:

1. Problemin həllinə dünya xalqları mədəniyyətlərinin dialoqları müstəvisində yanaşılması;
2. Mövzu, ideya və süjet orijinallıqlarının öyrənilməsi;
3. Konseptual və kulturoloji prinsiplər əsasında müqayisəli təhlillərin aparılması.

Şərq ədəbiyyatında epik şeirin inkişafı, o cümlədən Nizami Gəncəvinin “Xəmsə” mövzularının təsir dairəsinin öyrənilməsi ədəbiyyatşünaslığın aktual problemlərindən biri olaraq qalmaqdadır. Problemin nəzəri aspektləri XX əsr elminin əsas sahələrindən biri olaraq daim diqqət mərkəzində olmuşdur. A.Y.Krımski, Y.E.Bertels, V.M.Jirmunski, F.Köprülü, A.Sirri Ləvənd, H.Araslı, M.Mübariz, Q.Əliyev, R.Əliyev, R.Azadə, Q.Beqdeli, X. Yusifli, N.Araslı, İ.Həmidov, T.Kərimli, M.Ka-

zımov, A.B.Kudelin, A.V.Mixaylov, M.Y.Borev və başqaları bu sahədə əhəmiyyətli elmi-nəzəri fikirlər yürütmüşlər.

Viktor Jirmunski Şərq ədəbiyyatında ədəbi əlaqələr zəminində yaranan əsərlərin romantik xüsusiyyətləri və tipoloji nöqtələrinin müəyyənləşdirilməsinin mexanizmi ətrafında müəyyən tədqiqatlar aparmışdır. O, Yaxın və Orta Şərq xalqları ədəbiyyatında analoji təzahürlərin sosial-tarixi qanunauyğunluqlar olduğunu, qədim xalq eposlarının öz yerini psixoloji mövzulara, məhəbbət romanlarına verdiyini göstərərək yazırdı: "Seçilmiş qəhrəmanları birləşdirən sevgi hissinin əzəmətli "romantik" xarakteri, eşqin "xidmət" mənasında anlayışı, bu hisslərin təsviri, aşiqin sevgilisini görəndə keçirdiyi hallar, nəhayət, bu stereotipik emosional həyəcanlar (ümumiyyətlə, introspektiv monoloqlar, dialoqlar, lirik mesajlar şəklində) tamamilə yeni bir sənət tipi ortaya çıxartmaq zərurəti yatarmışdır. Bu baxımdan, fransız Kretyenin poetik romanları tipoloji olaraq, çağdaş ədəbiyyatda fars dilində, əslən azərbaycanlı olan Nizami (təxminən 1140-1203) poemalarına bir janr və bir tarixi dövrün əsəri olaraq o qədər yaxınlaşır ki, qarşılıqlı ədəbi təsir məsələlərindən də danışmaq olar" (Jirmunski, 1971:190).

Ədəbi əlaqələri "müxtəlif dövrlərdə sərhəd və zaman kəsiyi tanımayan mədəni dialoqlar" adlandıran nəzəriyyəçi alim Yuri Borev bu ənənənin 16 tipini göstərir ki, bizim tədqiqata cəlb etdiyimiz mövzuya uyğun olaraq, onlardan yalnız 6-na diqqət yetirmək kifayətdir:

1. Ənənənin novatorluq əsasında davamı;
2. Sələfin yaradıcılığına yaxınlıq hiss olunsa da, yaradıcılıq prinsiplərində zidd mövqe;
3. Bir əsərin bədii sistem elementlərinin (süjet, tərz, qəhrəmanların xarakteri və kompozisiya) başqa bir əsərdə tətbiqi. Eyni zamanda, yeni əsərdə mənbədən fərqli cəhətlərin mövcudluğu;
4. Yaxınlıq tipi; Müəllif təsirləndiyi sələfinin yaradıcılıq təcrübəsinin bəzi cəhətlərini götürür; burada orijinalın üslubi xüsusiyyətləri gözlənilmir və yaranmış əsər yeni hadisə olaraq ortaya çıxır.
5. Təqlid – lakin təqlidin də müxtəlif dərəcələri vardır. Yeni mətnin orijinala tam oxşarlığı. Sələfin dünyagörüşü sisteminin, əsas üslubi xüsusiyyətlərin, yaradıcılıq manerasının eynilə surətinin yaradılması;
6. Epiqonçuluq – yaradıcı təqlidlə deyil, əhəmiyyətsiz dərəcədə dəyişikliklərlə orijinalı təkrarlamaq (Borev, 1989:11).

Yaxın Şərq ədəbiyyatının lirik və epik-məsnəvi janrı orta çağlar mərhələsində yüksək inkişaf zirvəsinə çatması və zənginliyilə seçilməsində əhəmiyyətli dərəcədə Nizami Gəncəvi "Xəmsə"sinə borcludur. Nizami öz yaradıcılığı ilə Yaxın Şərq ədəbiyyatında mürəkkəb, zəngin məzmunlu və çoxşaxəli, bitkin süjetli epik-məsnəvi janrının inkişafına və təkmilləşməsinə daha geniş imkanlar açmışdır və "Xəmsə" ənənələrində fars, türk və hind ədəbiyyatının böyük bir nəsli yetişmiş, Nizami mövzularında yazdıqları epik-romantik səpkili əsərlərilə orta əsrlər ədəbiyyatının bu istiqamətdə inkişafını təmin etmişlər.

Nizami Gəncəvi "Xəmsə"sinə, Əmir Xosrov Dəhləvidən sonra, XIV əsrdə öz "Xəmsə" yaradıcılığı ilə cavab vermiş Xacu Kirmani istedadı və zəkasına görə öz müasirləri arasında seçilən sənətkardır. Xacu Kirmaninin həyat və yaradıcılığına dair dünya şərqşünaslığında Ş.Rye, P.Xammer, F.Erdman, Şefer, Pitsi, E.Braun, A.Krımski, Y.E.Bertels, Y.Ripka, Z.Səfa, M.Moin, Ə.S.Xansari, S.Nəfisi, K.Ayni, S.N.Kirmani, F.Köprülü, N.Sayfiyev, H.Araslı, A.S.Ləvənd, Q.Əliyev, M.Kazımov, M.Məhəmmədi, B.Quliyeva və başqa alimlərin əhəmiyyətli tədqiqatları mövcuddur.

Nizami ardıcılları təbii olaraq öz sələflərindən fərqlənməyə cəhd etmişlər. O cümlədən, Əmir Xosrovdan sonra, ikinci olaraq Nizamini izləyən Xacu Kirmani də orijinallığa can atırdı. Görkəmli şərqşünas alim Mehdi Kazımovun haqlı olaraq qeyd etdiyi kimi, "Xacunun "Xəmsə"sində yalnız nəzirənin bir şərti – vəzn az-çox şəkildə qorunub saxlanmışdır. O, yalnız "Rövzətül-ənvar" ("Nur bağları") poemasında Nizamini təqlid edir ki, bu da özünü əsərin adı və kompozisiyanın saxlanmasında büruzə verir" (Kazımov, 2012:311).

Xacu Kirmani 1281-ci ildə (hicri-689) Kirman şəhərində anadan olmuşdur. Bu tarix Xacunun özünün "Gül və Novruz" əsərinin sonunda verdiyi məlumata əsasən müəyyənləşdirilmişdir. Şair həmin əsərində yazır:

شب روز الف از مه شده کاف
فکنده آهوی شب نافه از ناف
رسیده ماه ذیلحجه بعشرین
بیام اورده کردون خشت زرین
ز هجرت ششصد و هشتاد و نه سال
شده پنجاه روز از ماه شوال
من از کتم عدم بر داشتم راه
سمن زار وجودم شد چرا کا
(Kuhi, 1928).

Əlif (kimi) may gecəsində, Ay qaf olmuşdu.
Gecənin ahusu göbəyindən nafə(ətir) saçırdı.
Zilhiccə ayının 20-si yetişmişdi,
Fələk qızıl külçəsini göyə qaldırmışdı.
Hicrətdən altı yüz həştad doqquz il,
Şəval ayından on beş gün keçmişdi.
Mən səssiz yoxluqdan yola düşdüm,
Səmənzar vücudum nədən saman oldu?

Bu beytlərdəki tarixə əsasən, Xacu Kirmani özünün hicri 689-cu ildə şəvval ayının 15-də anadan olduğunu göstərir. Buna baxmayaraq, şairin doğum tarixi ətrafında tədqiqatçıların fikri yekdil deyildir. Belə ki, bu beytlərə əsasən, Hüseyn Kuhi şairin zilhiccə ayında doğulduğunu göstərmişdir (Kuhi, 1928).

Əli Nəzmi Təbrizi isə onun anadan olma tarixini 10 il əvvələ çəkərək, 679-cu il şəvval ayının 15-ə aid etmişdir (Nəzmi,1999:91).

Xacunun ata-anası Kirmanın sayılıb-seçilən zadəganlarından olmuş, hələ uşaqlıq vaxtından onu əsilzadələrə məxsus "Xacə" deyə çağırmışlar. Səid Nəfisinin hicri 1307-ci ildə (m.1928) qələmə aldığı
" نخلبند شعرا " احوال و منتخب اشعار خواجوی کرمانی – ("Şairlərin nəxlbəndi" – Xacu Kirmaninin həyatı və seçilmiş şeirləri) adlı əsərində yazdığına əsasən, Xacu təxəllüsü − "Xacə" sözünün incə, əzizləmə formasıdır və şair həmin adı özünə təxəllüs götürmüşdür (Nəfisi, 1928:8).

Bir çox təzkirə və mənbələrdə verilən məlumatlara əsasən, yaxın adamları onu evdə və dostları arasında "Xacu" deyə çağırırmış və bu adla da şairliyə başlamışdır.

Xacunun əsərlərindən məlum olur ki, onun bütün uşaqlığı Kirmanın ziyalı şəxsiyyətləri, xüsusən şairlər arasında keçmişdir. Bir çox tədqiqatçıların da qeyd etdikləri kimi, özünün "Rövzətül-ənvar" əsərində Xacuya şairlik ilhamının uşaqlıqdan verildiyini, yuxuda bir mələyin ona gələcəyin böyük şairi olacağı haqqında xəbər verdiyini söyləmişdir. Şair "Rövzətül-ənvar" əsərində "Kiçik yaşımda yuxuda gördüyüm bir mələk və onun təbiri" hekayəsində təsvir edir ki, kiçik yaşlarında, səba zamanında onun vəqt ayinəsində səfa var idi. Müəlliminin söhbəti şairin ilhamını qəm aparan rüzgar kimi oyadırdı. Bir löbət camallı (mələk) onun yuxusuna girdi və ona xəbər verdi: "Ey şirin sözlü tuti! Sən məliki-süxəndan olacaqsan. Əqlin, kamalın göylərə bülənd olacaqdır" (Xacu, 1991:42).

Səid Nəfisi, Bastani Parizi, Hüseyn Kuhi Kirmani, Əli Nəzmi, Səid Niyaz Kirmani kimi alimlər şairin həyatına və dövrünə dair araşdırmalarda onun Şərqin bir sıra mədəniyyət mərkəzlərinə, o cümlədən Məkkə, Təbriz, Marağa, İsfahan, Şiraz, Bağdad, Misr və başqa şəhərlərə səfər etdiyini, görkəmli sufilərlə görüşdüyünü qeyd etmişlər.

Onu xüsusi qeyd etmək lazımdır ki, Xacunun əsərləri onun həyatı və səfərlərinin salnaməsidir. "Humay və Humayun"da yazır:

چو افتاده آهوی سر در کمند
درین شهرتاکی شوی شهربند
برو ترک ین محنت آباد گیر
لب دجله و راه بغداد گیر
ز هر گوشه درمان دردی طلب
ز هر چشمه ای آبخوردی طلب
(Xacu, 1991:324).

Ahu kimi başın kəməndə düşüb,
Bu şəhərdə nə vaxtadək şəhərbənd olacaqsan.
Bu möhnətli yeri tərk elə,
Dəclə kənarını və Bağdad yolunu tut.
Hər guşədən dərdinə dərman tələb (eylə)
Hər çeşmədən içməyə su tələb (eylə).

Şair 1318-1336-cı illərdə İraqi-ərəbi, Xuzistanı, Azərbaycanı, Təbriz, İsfahan, Həmədan kimi şəhərləri gəzir. Oradan Ərəbistana − Hicaza gedir. Xacu “Divan”ında yazır:

صبر ایّوب کسی را که نباشد در رنج
حذر از محنت کرمان نکند چون نکند
چون درین مرحله خواجو اثر از گنج نیافت
ترک این منزل ویران نکند چون نکند
(Xacu, 1995:180).

Bir kəsin ki, əzab içində Əyyib səbri olmaya,
Kirman möhnətindən həzər etməsin, necə etməsin?
Bu mərhələdə indi ki, xəzinədən əsər tapmadı Xacu,
Bu viran mənzili tərk etməsin, necə etməsin?

Beləliklə, Xacu Kirmani öz səyahətlərində dövrünün görkəmli sufi şeyxlərilə görüşür ki, bu da onun dünyagörüşünün inkişafında mühüm rol oynamış olur. Şairin mürşidiyyə təriqətinə mənsub olduğunu, Şeyx Əbu İshaq Kazeruninin müridi olduğunu tədqiqatçılar qeyd etmişlər.

Şair gəzdiyi ölkələrdə insan cəmiyyətinin dərd və ağrıları ilə üzləşmiş, haqsızlıq və zülmün ədalət üzərində təntənəsini görüb könlü qubar bağlamış, zəngin yaradıcılığı dövrünün sufi-humanist dünyagörüşünün təsiri altında formalaşmış və əsərlərində zülm və ədalətsizliyə qarşı kəskin etirazını bildirmişdir.

XIV əsrdə Əmir Xosrovdan sonra ikinci olaraq, Nizami “Xəmsə”sinə cavab yazmış Xacu Kirmani istedadı və zəkasına görə öz müasirləri arasında seçilən sənətkardır. Şairin müasirləri − Xacə Salman Savəci, Nasir Buxari, Təbib Şirazi, Mövlana Müzəffər və başqa şairlər məşhur idilər. Bu şairlər içərisində Xacu Kirmanidən başqa kimsə Nizami “Xəmsə”sinə bütöv şəkildə nəzirə, yaxud cavab yazmağa girişməmişdir. Onların arasında Xacu Kirmaninin müasiri Bağdad sarayına-Hülaku xanı Həsən Bozorga (1336-1356), sonralar isə cəlairilər sarayına yaxın olan Salman Savəci seçilirdi. O dövrdə qəsidə ustası kimi məşhur olan Salman Savəci, həmçinin Nizami ədəbi məktəbinə mənsub sənətkardır. O, “Xəmsə” mövzularında iki məsnəvi: “Fəraqnamə” və “Cəmşid və Xurşid” əsərləri yazmağa nail olmuşdur. “Cəmşid və Xurşid” Nizaminin “Xosrov və Şirin” əsərinə nəzirə olaraq yazılmışdır.

Xacu Kirmaninin “Xəmsə” halqasında 4-cü məsnəvisi olan “Kamalnamə” hicri 744/miladi 1343-cü ildə yazılmışdır. Şair özü əsərin sonunda poemanın yazılma tarixini qeyd etmişdir:

مه دی بود و چرخ سنجابی
در پس ابرهای سیمابی
زال زر در هزیمت از بهمن
رفته در زیر آبگون جوشن ...
شد به تاریخ هفصد و چل و چار
کار این نقش آزری چو نگار (Xacu, 1991:197).

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 2.255. 2023 / Cild: 17 Sayı: 1 / 26-34 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 2.255. 2023 / Volume: 17 Issue 1 / 26-34 e-ISSN: 2708-986X

Tərcüməsi:
Dey(qış) ayı idi, sincabi(boz dələ rəngli)göylər,
Gümüşü buludların arxasında gizlənmişdi.
Qızıl Zal Bəhmənin məğlubiyyətində,
Mavi zirehin altına girmişdi...
Yeddi yüz qırx dörd tarixində,
Bu Azəri nəqşi gözəl kimi (bəzəndi).

"Kamalnamə" həcm etibarilə Xacunun əvvəlki poemalarından azdır. Əsər 1884 beytdən ibarətdir. Poema Nizami Gəncəvinin "Yeddi gözəl" əsərinin vəzninə uyğun − xəfif bəhrində yazılmışdır. Məsnəvinin elmi-tənqidi mətni ilk dəfə İran alimi Səid Niyaz Kirmani tərəfindən hazırlanaraq, Xacu Kirmaninin "Xəmsə" (1991) külliyatına daxil edilmişdir. Bu mətnin mükəmməl əlyazma nüsxəsi hicri 750/miladi 1371-ci ildə katib Məhəmməd bin İmran tərəfindən yazıya alınmışdır. İran alimi Nida bin Əlinin verdiyi məlumata əsasən, "Kamalnamə"nin bu əlyazma nüsxəsi 5980 nömrəli şifrə altında İran Milli kitabxanasında saxlanılır" (Nida, 2011:19).

"Kamalnamə"nin məzmunu Şərq poeziyasında qədim dövrlərdən mövcud olan fəlsəfi-didaktik üslubda yazılmışdır. Məlumdur ki, Nizami Gəncəvinin "Məxzənül-əsrar" ("Sirlər xəzinəsi") əsərinin məzmun və üslub xüsusiyyətləri Sənainin "Hədiqətül-həqayiq" əsərindən tamamilə fərqlidir və Nizami Gəncəvi bu əsərlə Şərqin didaktik şeir üslubunu zirvəyə qaldırmışdır. Nizami yaradıcılığına yerli türk fəlsəfi-dini qaynaqlarının da mühüm təsiri olmuşdur. Təsadüfi deyildir ki, Y.E.Bertels qeyd edirdi ki, "...didaktik forma Xorasan şairlərinə hələ Sənainin ilk sufi poeması yaranana qədər də məlum olmuşdur" (Bertels, 1962:173).

"Kamalnamə" əsəri 12 babdan (fəsildən) ibarətdir. Hər bir fəsildə islami-sufi fəlsəfənin tarixi və mahiyyəti haqqında şərhlər, dövrünün ictimai-əxlaqi görüşlərini əks etdirən fəlsəfi-didaktik məzmunlu hekayələr verilmişdir. Müəllif bu əsərdə islam fəlsəfəsi və əxlaqında mühüm rol oynamış olan sufizm təriqətinin mahiyyətini, mərhələlərini şərh edir, eləcə də, məşhur islam filosof və şeyxlərinin həyat və fəaliyyətlərinə aid bədii hekayələr vasitəsi ilə cəmiyyyətə ümumbəşəri ideyalar və yüksək əxlaq təlqin edir. Əsər minacat, nət, şairin mürşidi Əbu İshaq Kaziruninin mədhi, seyri-süluk, salikin kamil nəfsə yetişməsi, aləmin şərhi, salikin 4 ünsürlə − su, torpaq, yel və odla mükaliməsi, odla mükalimədə can aləminə işarə etməsi, seyri-sülukla səfər etmə, mütənahi (sonu olan) dünyadan namü-tənahi (sonu olmayan) dünyaya keçid, ovçu könüllərin bəyanı, susmağın fəziləti və onun xüsusiyyətləri, Aristatalisin hekayəsi, dövranın vəfasızlığı haqqında, Əmir əl-mömінin İmam Əlinin mübariz aşiqlə döyüşü, cavan qazi və Rum qeysərinin qızının hekayəsi, Həsən Bəsri haqqında hekayə, İbrahim Ədhəm haqqında, Sultan Mahmud Qəznəvi və Hindistan padşahının oğlunun hekayəsi, İmam Qəzali və qardaşının hekayəsi, daim Xızrı arzulayan padşah haqqında hekayə, sözün ilkinliyi, yəni Allaha bağlı olması və mənaya həsr olunmuş xüsusi başlıqlar və başqa maraqlı məzmunlu hissələr Xacu Kirmaninin zəngin ideya-fəlsəfi görüşlərini və sənətkarlıq qüdrətini əks etdirir. Əsərin sonunda şairin Cəmaləddin Əbu İshaq İncuya sitayişi, oğlu Mücirəddin Əbu Səid Əliyə nəsihəti və kitabın xətm olunması haqqında bölmələr Xacu Kirmani sənətinin mükəmməl bədii-fəlsəfi xüsusiyyətlərini nümayiş etdirir.

Xacu Kirmani yaradıcılığında qoyulan ictimai-fəlsəfi məsələlər mahiyyət etibarilə Nizami ideyalarının davamıdır. Nizaminin "Sirlər xəzinəsi"ndən başlayaraq, bütün poemaları boyu qoyulmuş humanist sufi-islami ideyalar Xacu yaradıcılığında dövrün modern fikirləri və simvolik üslubu əsasında yenidən poeziyanın predmetinə çevrilmişdir. İnsan-Allah birliyi, insanın Allahın təcəllası olaraq yer üzündəki aliliyi, onun kamilliyə yüksəlməsi, könül azadlığı, mənəvi muxtariyyətinin qorunması və sair məsələlər "Kamalnamə" poemasının əsas ideyasıdır.

Xacu Kirmani öz əsərini minacatla başlayır:
بسم من لااله الاهو
صُنع لفظی وزین معناه
کو منز هست از عیب دری قا
عالمی کو مقدس است از ریب (Xacu, 1991:101).

Allahın adı ilə,
Söz sənəti və mənanı (yaradan)
Qadir (Allah) ki, o, günah və eyibdən uzaqdır,
O, bir aləmdir ki, şübhəsiz, müqəddəsdir.
Yaxud:
صید قید توام دلم بگشای
دم بسته را رهی بنمای من (Xacu, 1991:116).

Sənin uğrunda çalışıram, könlümü aç,
Mən nəfəsi kəsilmişə bir yol göstər.

Əsərdə şairin təriqət mürşidi Şeyx Əbu İshaq Kazeruniyə həsr etdiyi hissə diqqəti cəlb edir. Xacunun mürşidiyyə təriqətinə mənsub olduğunu, Şeyx Əbu İshaq Kazeruninin müridi olduğunu tədqiqatçılar qeyd etmişlər.

Səid Niyaz Kirmani “Xəmsə” külliyatının müqəddiməsində yazırdı ki, “Xacu Mürşidi təriqətinin imamı olan Şeyx Əbu İshaq Kazeruni təliminə bağlanmış, Şeyx Əlaüddövlə Simnaninin təsəvvüfə dair görüşlərindən təlim almışdır” (Səid Niyaz, Xəmse-yi Xacu Kirmani, 1991:26).

Abdürrəzzak Türk “Ərzurumun qəndilləri” əsərində Əbu İshaq Kaziruni haqqında məlumat verərək yazır: “Ebu İshak künyesiyle ve Kazeruni nisbesiyle meşhur olmuştur. m.963, h.352 senesi Ramazan ayının yarısına rastlayan Pazartesi günü Şiraz civarındaki Kazerun kasabasında dünyaya geldi. Miladi 1034, h.426 Senesinde Kazerunda vefat etti. Kabri şerifleri oradadır” (Abdürrəzzak, 2014:288).

Xacu “Divan”ında da Şeyx Əbu İshaq Kazerunini yad edərək yazmışdır:
کمال رتبت خواجو همین قدر کافیست
که هست بنده ئی از بندگان بواسحق (Xacu, 1995:264).

Xacunun kamali- rütbəsi həmin o miqdardadır
Ki, bəndəlikdə Əbu İshaqın bəndəsidir.

Xacu Kirmaninin təsəvvüfi görüşlərində Şeyx Əlaüddövlə Simnaninin təsiri görünməkdədir. Məlumdur ki, Şeyx Əlaüddövlə Simnani (1261-1336) Kübravilik təriqətinin mürşidlərindən olmuşdur. Xacu Simnanda olarkən, Şeyx Əlaüddövlə Simnaninin təlimi sayəsində ələvi görüşlərinə yiyələnmiş və bu təlim onun şeirlərində görünməkdədir.

“Kamalnamə” məsnəvisində islami fəlsəfənin təməl görüşləri əks olunur. Xacu Kirmani Şərq filosofu İbn Sinanın “Mabda və Maad” (Səfər-seyri-süluk və qayıtma) əsərində qoyulan fəlsəfi problemləri – insanın (salikin) həm özünü, həm də yaradanını dərk etməsi, 4 ünsürün bir-birnə keçməsi (od, hava, torpaq, su) və sair məsələləri bu məsnəvidə geniş şərh etmişdir.

“Kamalnamə”də dini-tarixi şəxsiyyətlər haqqında dərin fəlsəfi məzmunlu əxlaqi-tərbiyəvi hekayələr mühüm yer tutur. İmam Əliyə (ə) həsr olunmuş bir hekayəni nəzərdən keçirək.

Məlumdur ki, Həzrət Əmir əl-möminin İmam Əli (ə) Allahın və onun Rəsulunun sevib-seçdiyi işıqlı bir simadır. Məhəmməd Peyğəmbərin xəlifəsi, heyrətedici üstünlüklər sahibi Əli ibn Əbu Talibin igidlik və qəhrəmanlıqları, İslamın bütövlüyü və müsəlmanların birliyi uğrunda vuruşları, Allah yolunda cihadı din tarixində müstəsna yer tutur. Həzrət Əli (ə) kamillik və uzaqgörənliyi, alicənablığı, təmənnasızlılığı, inamı, səbr və dözümü və sair əxlaqi dəyərlərilə də bəşəriyyət tarixində nadir insanlıq nümunəsidir.

Comərdliyi və şücaətilə Heydər (aslan) adını daşıyan Əmir əl-möminin Xəlifə Əlinin qəhrəmanlıqları məşhurdur və klassik ədəbiyyatda “şahe-mərdan” − mərdlərin şahı − Əli ibn Əbu Talibə sonsuz ehtiram və məhəbbətlə saysız hekayələr həsr olunmuşdur.

Xacu Kirmani də “Kamalnamə” məsnəvisində bu mövzuya müraciət etmiş, “Əmir əl-möminin Əli (ə) və mübariz aşiq” əhvalatından bəhs edən bir hekayə ilə onun qəhrəmanlıq və əzəmətini tərənnüm etmişdir.

Novella xarakterli, orijinal süjet əsasında qurulmuş bu hekayə öz bədii-fəlsəfi məzmunu ilə diqqəti cəlb edir. Hekayədə nəql olunur ki, hələ heç kəsin məğlub edə bilmədiyi şahi-mərdan Əli ibn Əbu Talib bir gün atını kənara sürmüşdü. Qəflətən Yəmən yolundan ildırım kimi şığıyan bir atlı ilə rastlaşdı. Həmən atlı Cəhənnəm odundan qaçmış divə bənzəyirdi. Daş ürəyində qəzəb

qaynayırdı. Həmən adam nizəsini Əlinin nizəsinə atıb onunla vuruşdu. Daşın bağrında qan çeşməsi açdılar. Dinin şiri Əli qeyzindən düşməni torpağa yıxdı və bəbir kimi onun sinəsində oturdu, qılıncını lərzəyə gətirib daşı qana boyadı. Rəqibi əldən düşmüşdü və sanki bəbirin əsiri olmuş bir ahu idi. Əlinin (ə) ovu olan o gənc ah-naləni özünə sipər edib, fəğana gəldi: “Heyf ki, canı tərk edirəm və cahandan kam almadan gedirəm...”.

İmam Əli ondan soruşdu: “Sən bu dava və kininlə nə istəyirdin? Və nə üçün indi nalə edirsən? Sinəndəki bu ah tüstüsü nədəndir?”.

O zirehli cavan cavab verdi: “Mənim könlüm bir ahu gözlünün ovu olmuş, onun saçları kəməndinə bənd olmuşdur. Neçə müddətdir ki, könlüm əldən getmiş və adamlardan xəcil olmuşam. Qanımı içən o şəhla gözlü məndən Heydərin (Əlinin) başını istəyir. Odur ki, davaya gəlmişəm. Ah çəkirəm ki, könlümü bərbad etmişdim, indi də canımı yelə verəcəyəm”.

Mərdlərin başçısı Əli (ə) bu sözləri eşidən kimi onu öldürməkdən vaz keçdi. Xəncərini çıxarıb öz başı üstündə tutdu və dedi: “Bu mən − Əli, bu da mənim başım! Qüssə yemə, xəncəri çək və ürək kamını al!”.

Hekayədə məzmun davam etdirilir ki, bu mərdanə hərəkəti ilə Əli (ə) küfr qarasını o cavanın ürəyindən sildi, qəflət pərdəsini onun gözündən açdı; onu islam yolunu tutmağa çağırıb söylədi: “Sənəmə (bütə, gözələ) itaət etməkdən keç!”.

Əhvalat nikbin sonluqla başa çatır. Həzrət Əli (ə) atlandı, özü o gəncə yoldaş olub, onun sevdiyinin qala hasarına doğru gəldi və gənci öz məhəbbətinə qovuşdurdu. Hekayədə cəmiyyətdəki ictimai-dini münasibətlər iki aşiq-qəhrəman timsalında poetik səhnələrlə əks olunmuşdur. Din, Həqiqət aşiqi, qəhrəman Həzrət Əli və gözəl (büt) aşiqi başqa bir qəhrəman qarşılaşdırılır. Möminlərin əmiri Əlinin mənəvi kamilliyinin yetkinliyi və cavan aşiqin mənəvi təkamülünə göstərdiyi təsir hekayənin əsas qayəsini təşkil edir.

Təsvir olunan əhvalat, həmçinin Şərq xalq hekayəçiliyinə xas incəliyi və islamın mühüm əxlaqi məziyyətlərini özündə cəmləməsi ilə diqqəti cəlb edir. Xacu Kirmani öz hekayəsində Həzrət Əlinin humanist görüşlərini − insana sevgi və mərhəmətini, ədalətini, kamillik haqqında islami-fəlsəfi təfəkkürünü, əqidə uğrunda dönməzliyini məharətlə açır. Qılıncı ilə yenilməz olan Əli həm də xeyirxah, insanpərvər və mərhəmətli bir şəxsiyyətdir. O, Allahın lütf və mərhəmətinin nişanəsidir.

Dini-tarixi ədəbiyyatda “Allah-təalanın aslanı” adı ilə tanınan Əli obrazı Xacu yaradıcılığında da bu məşhur epitetlə təqdim olunur. Novellanın orijinal sonluğunda şair yazır:

صید این راه شیر مردانند زانکه از تیغ سر نگردانند (Xacu, 1991:134).

Bu yolun ovçusu mərd aslanlardır,
O üzdən, qılıncdan boyun qaçırmazlar.

Hekayədə şair poetikanın estetik imkanlarından geniş istifadə edərək zəngin obraz sistemi yaradır. Sözü gizli mənası ilə şeirə düzməyi bacaran Xacu Kirmani bu hekayədə də qəhrəmanın daxili aləmini, onun xarakterini açmaq üçün təşbih, istiarə, təlmihlərdən geniş istifadə edir. Məsələn, Əli ilə döyüşə gələn aşiq gəncin qəzəbini ifadə etmək üçün şair aşağıdakı poetik formanı yaradır:

همچو دیو از سقر برون جسته زین چو آتش به باد بسته (Xacu, 1991:132).

Cəhənnəm(odundan) qaçmış div kimiydi,
Buna görə də atəş kimi yelə bağlıydı.

Burada qəzəbli insan və yanar atəş obrazı müqayisə edilərək, təşbih yaradılır. Şair Əlinin obrazını “bahar nəfəsli”, “yel ayaqlı” ifadələrlə təşbih edir.

مرتضی در نفس چو باد بهار جست بر باد پای و گشت سوار (Xacu, 1991:134).

Mürtəza bahar yelinə bənzər nəfəsi ilə,
Yel (tək) ayağa qalxdı və atlandı.

Müəllif burada İmam Əlinin (ə) epitetlərindən birini − Mürtəza adını işlədərək, qəhrəmanın nəfəsini onun əməllərinə uyğun − ədalətli, xoş və gözəl bahar yelinə bənzətmiş və təşbihin incə poetik nümunəsini yaratmışdır.

## Nəticə

Göründüyü kimi, Xacu Kirmaninin "Kamalnamə" əsərinin əsas ideyası islami-humanizmin tərənnümü və təbliğidir. Nizami Gəncəvinin Allah, insan və eşq haqqında təsəvvüfə bağlı fəlsəfi konsepsiyası Xacu Kirmani əsərlərinin məzmun və üslubunda modern şəkildə dövrün poeziya ənənəsinə uyğun olaraq davam etdirilmişdir.

Xacu Kirmaninin "Xəmsə" mövzularında qələmə aldığı əsərlərin məzmun və süjetində simvolik elementlərin üstünlüyü diqqəti cəlb edir. Şair simvollaşma yolu ilə Şərq mistik fəlsəfəsilə xalq yaradıcılığının mifik elementlərini sintezləşdirən qüdrətli sənətkarlardan biridir.

## Ədəbiyyat

1. Zhirmunskiy, V. (1971). Srednevekovyye literatury kak predmet sravnitelnogo literaturovedeniya. Izvestiya AN SSSR. Otdeleniye literatury i yazyka. T.XXX. Vyp. 3. M., s.190.
2. Borev, YU. (1989). Khudozhestvennyy protsess (problemy teorii i metodologii). Khudozhestvennyye vzaimodeystviye kak vnutrenniye svyazi khudozhestvennogo protsessa. V knige: Metodologiya analiza literaturnogo protsessa. Moskva, Nauka, s.11
3. Kazımov, M. (2012). Xacu Kirmani. Farsdilli ədəbiyyatın yeddi əsri. Bakı: "Nafta- Press" nəşriyyatı, 391 s.
4. Hüseyn Kuhi Kermani. (h.1307/m.1928). Xacu-ye Kermani. Tehran: Çapxane-ye "Xavər".
5. Əli Nəzmi Təbrizi. (h.1378/m1999). Devist soxənvər (Təzkire-ye əl-şüəra-ye mənzum o mənsur). Tehran.
6. Səid Nəfisi. (h.1307/m.1928). Nəxlbənd-e şüəra. Əhval o müntəxəb-e əşar-e Xacu-ye Kermani, Tehran,
7. Divan-e ğəzəliyyat-e Xacu-ye Kermani, be kuşeş-e Həmid Məzhəri, çap-e sevvom, Kerman. (h.1374/m.1995). 470 s.
8. Xəmseyi-Xacu-ye Kermani. Be təshih-e Səid Niyaz Kermani, Daneşkəde-ye Ədəbiyyat-e v olum-e Ensani, Daneşqah-e şehid ba honər- Kerman. (1370).
9. Neda İbn Əli. Zərurət-e təshih-e enteqadi Kemalname-ye Xacu-ye Kermani, Qozareş-e Miras, şomare-ye 46. (h.1390/m.2011).
10. Bertels, Ye.E. (1962). Nizami i Fizuli. Izbrannyye trudy. Moskva: Izdatelstvo «Nauka», 554 s.
11. Səid Niyaz Kermani. (1370). Modəddeme. Xəmse-ye Xacu-ye Kermani Daneşkede-ye ədəbiyyat-e volume ensani. Daneşqah-e şehid ba honər-Kerman, 1370
12. Abdurrezak Turk. (2014). Candlesticks of Erzurum. Istanbul.

Göndərildi: 20.10.2022 Qəbul edildi: 01.01.2023

DOI: https://doi.org/10.36719/2663-4619/86/35-39

**Səbinə Əbülfət qızı Cəfərova**
Gəncə Dövlət Universiteti
dissertant
scafarova117@gmail.com

# MÜRƏKKƏB CÜMLƏ KOMPONENTLƏRİNİN HƏM ANALİTİK, HƏM DƏ SİNTETİK VASİTƏLƏRLƏ ƏLAQƏLƏNMƏSİ

**Xülasə**

Beləliklə, aydın olur ki, bağlayıcılar, bağlayıcı birləşmələri, bağlayıcı sözlər və şəkilçilərin (şəkilçiləşmiş ədatların proporsional şəkildə iştirak etdiyi) tabeli mürəkkəb cümlə tipləri analitik-sintetik tip hesab edilir. Komponentləri təkcə şəkilçiləşmiş ədatlarla bağlananlar sintetik, yalnız bağlayıcının köməyi ilə yaranan analitik tipdə hesab edilməlidir. Tabeedici intonasiyanın köməyi ilə yarananları isə asindetik adlandırmaq məqsədəuyğundur. Burada bir məsələni də unutmaq olmaz; o da istənilən bağlayıcı vasitəsinin ixtisar olunması və ya nəzərdə tutulmasıdır ki, bu da, təbii olaraq, cümlənin analitik, sintetik və ya analitik-sintetik adlanmasını şərtləndirir.

***Açar sözlər:*** *komponent, analitik, sintetik, prepozitiv, mürəkkəb cümlə*

**Sabina Abulfat Jafarova**
Ganja State University
dissertatist
scafarova117@gmail.com

## Linking complex sentence components by both analytical and synthetic means

**Abstract**

Thus, it is clear that subordinate complex sentence types with a proportional participation of conjunctions, conjunctions, conjunctions and suffixes (formed adverbs) are considered analytic-synthetic type. Those whose components are connected only by suffixed adverbs should be considered synthetic, analytical type created only with the help of conjunctions. Those formed with the help of subordinating intonation are appropriate to be called asyndetic. One issue should not be forgotten here, which is the reduction or implication of any connecting means, which, naturally, conditions the sentence to be called analytic, synthetic or analytic-synthetic.

***Keywords:*** *component, analytical, synthetic, prepositional, compound sentence*

## Giriş

Analitik-sintetik tipli tabeli mürəkkəb cümlələrin bir qismi də bağlayıcı sözlərlə bağlanan korrelyativ quruluşlu cümlələrdir. Belə cümlələrdə budaq cümlə, adətən, prepozitiv vəziyyətdə olur və bağlayıcı sözlər onların tərkibində işlənir. Baş cümlədə isə tabeli mürəkkəb cümlənin növünü müəyyənləşdirən korrelyatlar ("qarşılıq sözlər") işlənir və ya nəzərdə tutulur. Bu tip cümlələr tabeli mürəkkəb cümlələrin, demək olar ki, bütün növlərini əhatə edir və onların komponentləri -sa, -sə şəkilçiləşmiş ədatı və ya "isə" hissəciyinin ixtisarı ilə bağlanır. Bəzi tədqiqatçılar tərəfindən "nisbi tabelilik" adlandırılan bu cümlə quruluşlarına münasibət bildirən F.Korş yazır: "Məlumdur ki, nisbi cümlələr adlandırılan bu quruluşlar bütün dillər üçün az və ya çox dərəcədə ilkindir... belə ki, bütün dillərdə nisbi tabelilik az və ya çox inkişaf səviyyəsindədir" (Korsh, 1877: 14). T.P.Lomtev də belə bir fikir irəli sürür ki, mürəkkəb cümləyə olan ehtiyac vasitəli modallıq (nəqli olmayan) planında olan sadə cümlələrin başqa cümlələrlə birləşməsini doğurmuşdur ki, bundan da budaq cümlələr yaranmışdır (Lomtev, 1956: 490). Maraqlısı budur ki, V.A.Boqoroditski rus dilində şərt budaq cümləsinin (kursiv bizimdir − S.C.) sual cümləsi ilə əlaqəsindən danışarkən canlı nitqdən nümunə

gətirərək, bu zaman şərt budaq cümləsinin iki bərabərhüquqlu sadə cümlədən ibarət olmasını və bunlardan birincisinin sual cümləsi olduğunu göstərmişdir (Bogorotsky, 1935: 235). V.N.Yartseva qədim ingilis dilində "korrelyasiya" yolu ilə tabeli mürəkkəb cümlələrin yaranmasından danışır (Yartseva, 1961: 259). Bu tipli konstruksiyalar üçün onların birinci komponentində nisbi əvəzliklərin − bağlayıcı sözlərin, ikinci komponentində isə korreyatların − qarşılıq sözlərin işlənməsi xarakterik haldır.

Bu əvəzliklər (morfoloji vahid kimi) yeni sintaktik funksiya qazanır, bir qrammatik forma əlavə semantik yükə malik olur. Dilçilərin əksər qismi bu əvəzliklərin sual əvəzliklərindən törədiyini qeyd edirlər. "Mənşəyinə görə sual əvəzliyi olan sözlər tabeli mürəkkəb cümləni təşkil etməyə xidmət etdikdə nisbi əvəzliyə çevrilir" (Abdullayev, 1974: 114).

Tabeli mürəkkəb cümlələrin bu şəkildə yaranmasını ilkin hesab edənlər də var. Məsələn, dosent Ə.H.Cavadov özünün namizədlik dissertasiyasında ("Azərbaycan dilində tabeli mürəkkəb cümlənin məna özəyi (cütözəklilik)" tabeli mürəkkəb cümlənin bu cür inkişaf yolunu ünsiyyətin qədim forması ilə bağlayır:

"Bu ünsiyyət üçün sual-cavab sıralanması, daha doğrusu, sual cümlələrinin I komponent rolunu oynaması daha təbii və normaldır. Bu insanın ətraf aləmi öyrənməsi, dünyagörüşünün tədricən genişlənməsi kimi təbii-tarixi prosesin nəticəsi kimi meydana çıxır. Sual cümlələrinin II komponentdə işlənməsi (nisbi mənada) daha sonrakı mərhələdir" (Cavadov, 1988: 79). Məsələn:

"Kimi ürəyim istəyir, onu da alacağam" (İ.Şıxlı); "Nə qədər istəsə, o qədər yeyir" (S.Vurğun); "Hər kəs nə cür xörək yemək istəyirsə, onu da sifariş verirdi" (M.S.Ordubadi).

Bu cümlələrin üçündə də birinci komponentdə bağlayıcı sözlər iştirak edir, birinci cümlədə komponentlərin sərhədində -sa, -sə iştirak etmir, ancaq nəzərdə tutulur (istəyirsə), ikincidə bu vəzifəni -sa, -sə şəkilçiləşmiş ədatı, üçüncüdə "isə" hissəciyinin ixtisar forması yerinə yetirir. Budaq cümlələrin növü isə baş cümlədəki "qarşılıq sözlər" vasitəsilə müəyyənləşdirilir (ardıcıl olaraq, tamamlıq, kəmiyyət və tamamlıq budaq cümləsi). Amma hər üç cümlədə komponentlər arasında şərt məzmunu açıq-aşkar hiss olunur. Deməli, -sa, -sə iştirak etsə də, etməsə də, bu tipli cümlələr qarşılıqlı şərtlənmə məzmununa malik olur. Məhz buna görə də rusistikada bu tipli cümlələri «взаимообусловленный» ("qarşılıqlı şərtlənmiş") adlandırırlar (1963: 108).

Nisbi tabelilik əsasında qurulan cümlələrdə belə bir qanunauyğunluq özünü göstərir: bağlayıcı sözə "ki" qoşularkən -sa, -sə avtomatik şəkildə ixtisara düşür və onu bərpa etmək də uğursuz nəticə verir. Bu ixtisarı və ya fakültativliyi korrelyatın iştirak etməməsi ilə eyniləşdirmək olmaz. Korrelyat istənilən vaxt bərpa oluna bilər. Məsələn:

"Kim ki sevir öz qəlbində ilk baharı,
Eyvanı da, aynası da sarmaşıqdır" (S.Vurğun);
"Necə ki bağlamışdınız, elə də açın qollarını" (Ə.Musayev).

Hər iki komponentdə "isə" hissəciyinin ixtisar şəkli olan -sa, -sə-ni bərpa etmək olmaz; bu o zaman baş tuta bilər ki, "ki" ədatı öz mövqeyini tərk etsin: Kim sevirsə öz qəlbində ilk baharı... Tabeli mürəkkəb cümlənin növünə gəlincə, ikinci cümlədəki "elə" korrelyatı onun tərzi-hərəkət zərfliyi budaq cümləsi olmasını şərtləndirir. Birinci cümlədə nəzərdə tutulan korrelyat ("onun") müstəqil cümlə üzvü ola bilmir, lakin özündən sonra gələn mənsubiyyət şəkilçili sözlə birlikdə "onun eyvanı//aynası" cümlənin mübtədasıdır. Deməli, birinci cümlə mübtəda budaq cüməsidir, amma fakt faktlığında qalır ki, burada izah edilən, aydınlaşdırılan "qəlib" yiyəlik halda olan sözdür.

Türk ədəbi dillərində mürəkkəb cümlə sintaksisini araşdırıcılarından sayılan M.M.Musayev analitik quruluşlu cümlələri xarakteristika edərək yazır: "Türkoloji dilçilikdə analitik quruluşlu mürəkkəb cümlələr kimi daha çox bağlayıcılı, bağlayıcılı sözlü sintaktik vahidlər müəyyənləşdirilmişdir. Burada struktur əlamətlərlə yanaşı, asılı komponentlərin qrammatik-semantik mənalara görə bəzi funksional növləri də bir-birindən fərqləndirilmişdir" (Zemsky, Kryuchkov, Svetlaev, 1963: 78). Analitik-sintetik tipli tabeli mürəkkəb cümlələr komponentləri bağlayıcı söz və şəkilçiləşmiş ədatlarla, eləcə də bağlayıcı və ədatlarla bağlanan cümlələrdir. "O tabeli mürəkkəb cümlədə ki bağlayıcı söz iştirak edir, orada eyni zamanda, şəkilçiləşmiş -sa, -sə ədatı da işlədilir" (Cavadov, 1988: 145).

Fikrimizcə, bu məsələyə bir az başqa cür yanaşmaq lazımdır. Məlumdur ki, bağlayıcı söz işlənən budaq cümlədən sonra gələn baş cümlədə onun qarşılığı − korrelyatlar işlənir və ya nəzərdə tutulur; korrelyat, bir növ, bağlayıcı sözlə simmetriya təşkil edir. Əyani olaraq, aşağıdakı nümunələri müqayisə edək:

1. “Son vaxtlar rayonda “Moskviç”, “Volqa” markalı maşınlar nə qədər artmışdısa, at bir o qədər azalmışdı (İ.Hüseynov).
2. Anam nə qədər yalvarır, onu dilə tutur, heç cür razılaşmır” (M.İbrahimov).

Nisbi əvəzliklərlə (bağlayıcı sözlərlə) bağlanan tabeli mürəkkəb cümlə komponentləri əksərən -sa, -sə (isə) əlaməti ilə bağlanır. Özü də bunların hamısı şərt və qarşılaşdırma budaq cümlələri deyil, başqa növ tabeli mürəkkəb cümlələrdir. “... -sa, -sə əlaməti başqa növ budaq cümlənin sonunda da olur bunların hamısını şərt budaq cümləsi saymaq olmaz. Bu məsələdə biz budaq cümlənin quruluşunu, formasını nəzərə almaqla məzmununu yaddan çıxara bilmərik. Şərt budaq cümləsinə, eləcə də başqa budaq cümlələrə verilən təriflərdə budaq cümlənin baş cümləyə hansı cəhətdən xidmət etməsi nəzərə alınır” (Musayev, 2011: 267).

Bağlayıcı söz və -sa -sə şəkilçisi ilə əlaqələnmə şərt-qarşılaşdırma və qoşulma budaq cümlələri istisna edilməklə, bütün tabeli mürəkkəb cümlələrə şamil edilir.

1. Budaq cümlədə kim nisbi əvəzliyi və ya onun müxtəlif şəkilləri iştirak edir. Komponenetlər -sa, -sə ilə bağlanır. Baş cümlədə isə “qəlib” − əvəzlik nəzərdə tutulur; çox nadir hallarda isə korrelyatın iştirakı diqqəti çəkir. Məsələn:

Kimi əcəl hərləyirsə, qabağa çıxsın; Kim bu dünyada sıxıntı çəksə, elə axirətdə də əzab içində qıvrılacaq; Kim güclüdürsə, hər şeyi qamarlayıb aparır (İ.Şıxlı);

Kim məni xatırlasa,
Çıxaraq sahillərə
Mavi Xəzərə baxsın (N.Xəzri);

Bu yollardan kim keçsə, mənə bac-xərac verməlidir (Azərbaycan dastanları); Kimdə cürət varsa, meydanıma gəlsin (Azərbaycan nağılları).

2. Nisbi əvəzliyin köməyi ilə formalaşan cümlələrin bir qismində “kim” bağlayıcı sözü və ya onun variantları işlənir. Komponentlər yalnız tabeedici intonasiya ilə bağlanır. Fikrimizcə, -sa, -sə-nin öz mövqeyini tabeedici intonasiyaya tərk etməsi onun tipini dəyişmir, amma bu mülahizə mübahisəsiz də deyildir. Deməli, tabeli mürəkkəb cümlənin, daha dəqiq desək, mübtəda budaq cümləsinin formalaşmasının bütün ağırlığı bağlayıcı sözün və tabeedici intonasiyanın üzərinə düşür. Məsələn:

Kimin hünəri var, oynatsın (İ.Şıxlı); Kənddə kim var idi, kölgəlikdən çıxıb ata tamaşa edirdi (M.Süleymanlı).

Bu cümlələrin eləsinə də təsadüf olunur ki, bağlayıcı söz “ki” ədatı ilə işlənir. Bunun əvvəlkilərdən fərqi odur ki, ədat işlənən yerdə -sa, -sə-nin bərpası mümkün olmur və yaxud, bir növ, “artıqlıq” edir. Məsələn:

Kimə ki məktub gəlirdi, o, hədsiz dərəcədə sevinirdi (Mir Cəlal).

Bu cüməni “Kimə ki məktub gəlirdisə...” şəklində başlamaq məqbul hesab edilməz.

Mübtəda budaq cümlələrinin bir qismində “nə” bağlayıcı sözü işlənir. Bu bağlayıcı söz daha çox ismi xəbərlərə aid olur. Komponentlər isə (-sa, -sə) ilə bağlanır. Məsələn:

Mədəni bir ailə üçün nə lazımdırsa, hamısı varınızdır (İ.Əfəndiyev); Yadında, yaddaşında nə vardısa, hamısının altı üstünə çevrilmişdi; Dəyirmanın dörd yanında gözə nə görünürdüsə, hamısını mənası bu bir bölük toğludaydı (M.Süleymanlı).

**Komponentləri -sa, -sə şəkilçisi və bağlayıcı sözlə bağlanan tamamlıq budaq cümlələri.**

Tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrin analitik-sintetik tiplərindən biri də komponentləri bağlayıcı söz və -sa, -sə şəkilçiləşmiş ədatı ilə bağlananlardır. Bu növ budaq cümlələrin bir xüsusiyyəti diqqəti cəlb edir: budaq cümlədə işlənən bağlayıcı sözlər həmin cümlənin mübtədası vəzifəsindədir. Məhz buna görə də prof. M.Şirəliyev haqlı olaraq yazır: “Mübtədası qeyri-müəyyən əvəzliklə ifadə olunan tamamlıq budaq cümlələri, mübtədası qeyri-müəyyən əvəzliklərlə ifadə olunan mübtəda budaq cümlələrinə oxşayır. Bunları bir-birindən ayırmaq üçün

onların baş cümlələrindəki əvəzlikləri nəzərdən keçirmək lazımdır" (Bakı EA, 1959: 360). Bu zaman baş cümlədə əksər halda tamamlıq vəzifəsində nisbi əvəzliklərin qarşılığı kimi müəyyən əvəzlik iştirak edir. Bu deyilənlərdən çıxan nəticə odur ki, budaq cümlənin növü baş cümlədəki "qarşılıq-söz"dən asılı olaraq dəyişir. "Beləliklə, budaq cümlədəki qeyri-müəyyənlik və ümumilik baş cümlədə fərdiyyətə keçir" (Abdullayev, 1978: 209). Məsələn:

Kim mənim nöqsanlarımı göstərsə, mən ona təşəkkür eləyərəm; Qızım nə eləyiriksə, gərək tez eləyək (H.Abbaszadə); Kim o tərəflərdə hərlənsə, güllə ilə vururlar; Ürəyin nə istəyir, gətirim (İ.Şıxlı).

**Komponentləri -sa, -sə şəkilçisi və bağlayıcı sözlə bağlanan təyin budaq cümlələri.**

Elmi ədəbiyyatda bu tipli təyin budaq cümləsinin az işləndiyi qeyd olunur; prepozitiv budaq cümlədə bağlayıcı söz işlənir, komponentlər -sa, -sə şəkilçiləşmiş ədatı ilə bağlanır, baş cümlədə "qarşılıq-söz" işlənir. Məsələn: O hansı evlə qohum olsa, o evdə toy-bayramdır (S.Rəhman); İnsanın əli nəyə çatmırsa, onun həsrətini daha çox çəkir (H.Abbaszadə); Məleykə xatunun evi hansıdırsa, onun yanında balaca ayaq saxlarsan (Azərbaycan nağılları).

Azərbaycan dilində yiyəlik halın sintaktik funksiyasına dair ətraflı tədqiqatın müəllifi prof. Ə.Abdullayev bu tipli cümlələri təyin budaq cümləsi hesab edir. Bu zaman yiyəlik halda olan və III növ təyini söz birləşməsinin birinci tərəfi olan bu sözlər cümlə üzvü baxımından təyin hesab edilir (Abdullayev, 1978: 7).

Fikrimizcə, "qarşılıq-söz"ü və ya "qəlib"i yiyəlik halda olan bu cümlələrin növü müəyyənləşdirilərkən budaq cümlə növünün müəyyənləşdirilməsində olan vahid meyara – "qarşılıq-söz"ün hansı cümlə üzvü vəzifəsində işlənməsinə diqqət yetirilməlidir. Bu nümunələrdə "qarşılıq-söz" müstəqil işlənmədiyindən onun daxil olduğu söz birləşməsinə bütövlükdə yanaşmaq lazımdır. Təhlilə cəlb olunan yuxarıdakı cümlələrin birində "onun" sözü "onun həsrətini", ikinci cümlədə "onun yanında" birləşməsinin tərkibindədir. Birinci birləşmə tamamlıq, ikinci birləşmə isə yer zərfliyi rolunda çıxış etdiyindən biz çox asanlıqla təyin budaq cümlələri hesab edilən bu cümlələrin birini vastəsiz tamamlıq, o birini isə yer zərfliyi budaq cümləsi kimi qiymətləndirə bilərik. Bu fikirləri əsaslandırmaq üçün mürəkkəb cümlələrin bütövlükdə semantikasına da diqqət yetirmək lazımdır: təyin budaq cümləsində (birinci nümunə) əlamət məzmunu öndə olduğu halda, ikinci cümlədə əşya (obyekt), üçüncü cümlədə isə yer (məkan) məzmunu diqqəti çəkir.

Kəmiyyət budaq cümlələrinin bağlayıcı sözlə qurulan tipi bu budaq cümlə növü üçün yeganə və əsas tipdir. Budaq cümlədə nə qədər, nə qədər ki, hər nə qədər bağlayıcı sözü, baş cümlədə isə o qədər, o qədər də, bir o qədər, bir elə kimi "qəlib"lər işlənir, komponentlər -sa, -sə ədatı və ya "isə" hissəciyinin ixtisar şəkli ilə bağlanır. Məsələn:

Bədənin nə qədər sağlam olsa, xəstəliyə qarşı bir o qədər yaxşı mübarizə aparar (H.Abbaszadə); Ona tanış olmayan bu yerlər nə qədər gözəl, səfalı idisə, bir elə qorxunc idi (İ.Vəliyev); Canım üçün, Bəyim, Bədirxandan o qədər qorxmuram, nə qədər ki atandan qorxuram (İ.Əfəndiyev).

Birinci cümlə standartdır, kəmiyyət budaq cümləsidir, lakin ikinci cümlə zərfə və ya zərfliyə xas olan ikinci xüsusiyyətə malikdir: o, hərəkətin yox, əlamətin əlamətini (kəmiyyətini) bildirir. Üçüncü cümlədə isə baş və budaq cümlənin yeri dəyişmişdir və üslubi səciyyəyə malikdir.

Elə tipi cümlələrə də rast gəlinir ki, onların baş və budaq cümlələrində "o qədər", "bu qədər" tipli bağlayıcı vasitələr iştirak edir, lakin onları kəmiyyət budaq cümləsi hesab etmək olmaz. Məsələn: O qədər rəng vardı ki, Allahverdi ömründə bu qədər rəng görməmişdi (Elçin).

İlk baxışdan postpozitiv budaq cümləli tabeli mürəkkəb cümləni xatırladan bu konstruksiyanı təyin budaq cümləsi saya bilmirik. Elmi ədəbiyyatda təyin budaq cüməsinin zaman, yer, məqsəd, nəticə, müqayisə, hal-vəziyyət, qarşılaşdırma, arzu çalarlarından danışılır, lakin kəmiyyət məzmunu göstərilmir (Abdullayev, 1978: 245-248). Cümlə kəmiyyət budaq cümləsinin də məna münasibətlərinə görə ayrılmasına (müqayisəli, qarşılaşdırmalı, şərtli) da uyğun gəlmir. Fikrimizcə, bu cümlədəki "o qədər", "bu qədər" nə bağlayıcı söz, nə də korrelyat hesab edilə bilməz. Komponentlərin biri sadəcə olaraq informasiya verir, o biri komponent isə onu mübaliğəli şəkildə tamamlayır, sadəcə oaraq, birinci fikrə qoşulur. Bu isə qoşulma budaq cümləli tabeli mürəkkəb cümlədir. Məsələn, qoşulma budaq cümləsi olan bu nümunəyə diqqət yetirək: "Camaat da bu yolun

qırağından onların baxdığı səmtə baxırdılar ki, görəcəkləri günlər də o səmtdə idi...” (M.Süleymanlı). Altından xətt çəkilmiş ifadələr yer məzmunu bildirsə də, bu cümlə yer budaq cümləsi qoşulma budaq cümləli tabeli mürəkkəb cümlədir.

Nəticə budaq cümlələrinin də bir qismi nisbi tabelilk yolu ilə yaranır. “Nəticə budaq cümləsi baş cümlədən doğan nəticəni bildirir. Baş cümlədə ifadə olunan iş və ya hökm səbəb, budaq cümlə isə onun nəticəsi kimi meydana çıxır” (Abdullayeva, 1995: 308). Məhz bu mülahizədən çıxış edərək, nəticə budaq cümləsini “səbəb-nəticə budaq cümləsi” də adlandırmaq olar.

Prepozitiv tipli nəticə budaq cümlələrinin budaq cümləsində nə//nə günə, nə gündə, hara, necə, nə cür, nə qədər tipli sual əvəzlikləri bağlayıcı söz qismində iştirak edir, baş cümlədə qarşılıq sözlər işlənmir, budaq cümlə baş cümlənin konkret bir üzvü ilə deyil, ümumi məzmunu ilə bağlı olur.

## Nəticə

Aparılan tədqiqat işi bir daha aydın şəkildə göstərdi ki, tabeli mürəkkəb cümlə komponentlərinin bağlanmasında “şəriksiz” dominantlığa malik olan -sa, -sə şəkilçiləşmiş ədatı və ya “isə” hissəciyinin ixtisar şəkli mürəkkəb cümlə sintaksisinin bir çox məqamlarını aşkara çıxarmağa imkan verir. İkikomponentli, çoxkomponentli cümlələrin birləşməsindən əmələ gələn mürəkkəb cümlə quruluşları, eləcə də mətni təşkil edən cümlə konstruksiyaları bir-birindən bu və ya digər dərəcədə asılılıq mövqeyindədir. Bu asılılıq daha çox şərt semantikası ilə bağlıdır və məhz buna görə də komponentlərin bağlama vasitələri kimi feilin şərt kateqoriyasına “ehtiyacı vardır”. Bu ehtiyac nəticəsində də mürəkkəb cümlə quruluşları öz informativ yükünü ünsiyyətə yönəldəndə zəruri bağlama vasitələrindən istifadə edir.

## Ədəbiyyat

1. Korsh, F. (1877). Ways of relative subordination. Head of comparative subordination. M.: 110 p.
2. Lomtev, T.P. (1956). Essays on the historical syntax of the Russian language. M.: Ed. Moscow University, 596 p.
3. Bogoroditsky, V.A. (1935). General course of Russian grammar (from 5th). M., L.: Sotsekgiz, 356 p.
4. Yartseva, V.N. (1961). Historical syntax of the English language. M., L.: Ed. AN, 308 p.
5. Abdullayev, Ə.Z. (1974). Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı: “Maarif”, 418 s.
6. Cavadov, Ə.H. (1988). Azərbaycan dilində tabeli mürəkkəb cümlənin məna özəyi (cütözəklilik). Nam. Dissertasiya. Bakı, 143 s.
7. Müasir Azərbaycan dili (sintaksis). (1962). Bakı: “Azərtədrisnəşr”, 269 s.
8. Zemsky, A.M., Kryuchkov, S.E., Svetlaev, M.V. (1963). Russian language, part 2 (syntax), M .: Uchpedgiz, 183 p.
9. Musayev, M.M. (2011). Türk ədəbi dillərində mürəkkəb cümlə sintaksisi. Bakı: BSU nəşri, 404 s.
10. Azərbaycan dilinin qrammatikası, II hissə (sintaksis). (1959). Bakı: EA nəşri, 404 s.
11. Abdullayev, Ə.Z. (1978). Azərbaycan dilində yiyəlik halın sintaktik vəzifəsi. Ali və orta ixtisas təhsili nazirliyinin “Elmi əsərləri” (dil və ədəbiyyat seriyası). Bakı, № 4, s.3-7.
12. Abdullayeva, G.A. (1995). Azərbaycan dilində -sa, -sə şəkilçisinin sintaktik xüsusiyyətləri. Gənc alim və aspirantların respublika elmi konfransı. Bakı: N.Tusi adına APU, s.47-50.

**Rəyçi: fil.e.d. Hüseyn Əsgərov**

Göndərildi: 24.10.2022 Qəbul edildi: 19.12.2022

DOI: https://doi.org/10.36719/2663-4619/86/40-45

**Aytac Vazeh qızı Tağıyeva**
Bakı Dövlət Universiteti
dissertant
aytac760@mail.ru

# ƏNƏNƏVİ TƏHSİL PROQRAMLARINDA AZƏRBAYCAN COĞRAFİYASININ TƏDRİS VƏZİYYƏTİ

**Xülasə**

Məqalədə Azərbaycan Respublikasının müstəqillik qazanmasından əvvəlki dövrdə təhsil müəsisələrində istifadə olunan coğrafiya proqramlarının təhlilindən bəhs olunur. İlk coğrafiya proqramlarının yaranması, bu dövrdə mövcud olan tədris proqramlarının məzmunu, coğrafiya proqramlarında ölkəmizə ayrılan saatların miqdarı, proqramların hazırlanması sahəsində görülən işlərin sistemindən bəhs olunur.

Azərbaycanda yeni-yeni məktəblərin açılması, coğrafiya elminin inkişafı coğrafiya fənni üzrə yeni plan və proqramların yazılmasını zəruri edirdi. Məqalədə ənənəvi təhsil proqramlarında ölkəmizin tədris vəziyyəti Azərbaycan Demokratik Respublikası dövrü, Sovet dövrü və Müstəqillik dövrləri üzrə araşdırılmışdır.

***Açar sözlər:*** *tədris planı, tədris proqramı, Azərbaycan coğrafiyası, inkişaf tarixi, məktəb coğrafiyası, ümumtəhsil məktəbləri*

**Aytaj Vazeh Taghiyeva**
Baku State University
dissertatist
aytac760@mail.ru

## Teaching status of Azerbaijan geography in traditional educational programs

**Abstract**

The article deals with the analysis of geography programs used in educational institutions before the independence of the Republic of Azerbaijan. The creation of the first geography programs, the content of the existing educational programs in this period, the amount of hours allocated to our country in geography programs, and the system of work done in the field of program preparation are discussed.

The opening of new schools in Azerbaijan and the development of the science of geography made it necessary to write new plans and programs for the subject of geography. In the article, the educational situation of our country in traditional educational programs was investigated during the period of the Azerbaijan Democratic Republic, the Soviet period and the period of Independence.

***Keywords:*** *educational plan, syllabus, geography of Azerbaijan, history of development, school geography, general education schools*

## Giriş

Azərbaycan coğrafiyasının tədrisinin müasir dövrdə vəziyyətini qiymətləndirmək üçün tarixi inkişafının təhlilini aparmaq məqsədəuyğun olardı. Məlumdur ki, ölkə coğrafiyasının tədris tarixi uzun bir inkişaf yolu keçmişdir. Azərbaycan məktəblərində coğrafiya fənni hələ XIX əsrin 30-cu illərindən etibarən tədris edilməyə başlamışdır. Bu dövrdə Bakı, Şamaxı, Gəncə, Şuşa, Şəki və s. kimi iri şəhərlərdə "rus", "rus-tatar", və "realnı məktəblər" açıldıqdan sonra coğrafiya bir fənn kimi tədrisdə öz yerini tutdu (Sadıqlı, Allahverdiyev, 1986: 30).

Azərbaycan 1918-ci ilə qədər rus imperiyasının tərkibində olduğu üçün, məktəblərdə o zaman rus dilində mövcud olan coğrafiya dərsliklərindən, proqramlarından və tədris metodiki ədəbiyyatından istifadə olunurdu.

Ölkəmizdə məktəb coğrafiyasının tədrisi tarixinə nəzər yetirərkən, ilk coğrafiya proqramlarının hazırlanması sahəsində Azərbaycan Demokratik Respublikasının mövcud olduğu dövrdə (1918-1920-ci illər) böyük işlərin görüldüyü qənaətinə gələ bilərik.

Bu dövrdə Azərbaycan Maarif Nazirliyi tərəfindən tədris prosesinin təşkili məqsədilə tədris planları, proqramları hazırlanmışdı. Birinci realnı məktəbdə, qadın gimnaziyalarında tədris planlarında coğrafiya fənnin tədrisi aşağıdakı kimi qruplaşdırılmışdı:

- I realnı məktəbin tədris planında coğrafiya fənninə I, II, III, IV, V, VII siniflərdə həftədə 2 saat olmaqla 12 saat yer ayrılmışdı.
- Orta məktəblərin milli siniflərinin tədris planında coğrafiya üçün I, II, III sinifə həftədə 2 saat olmaqla 6 saat vaxt verilmişdi. Ümumtarix, ümumcoğrafiya, türk xalqlarının tarixi milliləşmiş orta məktəbin tədris planında I, II, III, IV sinifdə hər birində həftədə 2 saat olmaqla cəmi 8 saat tədrisinə yer verilmişdi. Ümumcoğrafiya tədris planında I sinifdə Ölkəşünaslıq, II sinifdə Asiya, Afrika, Şərqi Avropa, III sinifdə Amerika, Avstraliya, Mərkəzi və qərbi Avropa, IV sinifdə türk ölkələrinin coğrafiyasının tədrisi nəzərdə tutulurdu (Qəhrəmanova, 1993: 123-124).

Demokratik Respublikanın Maarif Nazirliyi tərəfindən Azərbaycanda təhsil sahəsində mühüm işlər görülürdü. Təhsili Ümumavropa səviyyəsinə qaldırmaq üçün bir sıra fənlər üzrə Parisdən proqramlar gətirilmişdi. 1919-cu ildə Maarif Nazirliyi bütün orta məktəblərdə tarix, coğrafiya, ədəbiyyat, ümumi coğrafiya və başqa fənnlər üzrə proqramların yenilənməsi məsələsini ən böyük vəzifə kimi qarşıya qoydu. Azərbaycan Demokratik Respublikası dövründə hazırlanan ilk proqramların milli ruhda olması böyük üstünlük idi. 1919-cu idə "Türk xalqlarının tarixi epizodik kursu" proqramı izahat vərəqi ilə birlikdə nəşr olunan çox maraqlı və milli ruhda yazılmış bir proqram idi. Proqramda tədris olunan materiallar şagirdlərdə Türk xalqlarının, o cümlədən Azərbaycan xalqının tarixi keçmişi haqqında kifayət qədər məlumat əldə etməyə imkan yaradırdı (Qəhrəmanova, 1993: 130-131).

Proqramın izahat vərəqəsində qeyd olunan 15-ci bənd diqqətimizi çəkdi, belə ki, burada qeyd edilir ki, "Doğma diyarı öyrənərkən əsas gücü ekskursiyalara vermək lazımdır ki, uşaqlar tarixi yerlər ilə, yəni təpə, yarğan, qədim tikililər, qədim hasarlarla tanış olsunlar və onlarda keçmişimizə, milli mədəniyyətimizə məhəbbət hissi oyansın" (Qəhrəmanova, 1993: 135). Buradan görə bilərik ki, şagirdlərdə milli ruhla bərabər öz doğma yurduna məhəbbət yaratmaq məsələləri də diqqət mərkəzindədir. Eyni zamanda proqramda diyarşünaslıq prinsipi də ön planda dayanır.

1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hökümətinin qurulması ilə təhsil sistemində əsaslı surətdə dəyişikliklər oldu. Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk illərdən, yəni 1920-1921-ci dərs illərindən başlayaraq şəhərlərdə və kəndlərdə yeni tipli bir və iki dərəcəli zəhmət məktəbləri təşkil edilirdi. 1920-ci ildə birinci dərəcəli məktəblərin dördüncü qrupu üçün "Coğrafiya" birinci hissə kitabında Azərbaycan Şura Cümhuriyyətinin mövqeyi, sahəsi, iqlimi, faydalı qazıntıları, əhalisinin məşğuliyyəti haqqında qısa məlumat verilirdi (Abdullayeva, 2009).

Həmin dövrdə yaradılan yeni tədris planı və proqramlarının təxmini olması yerli maarif orqanları və müəllimləri yaradıcılığa sövq edirdi. O zaman məktəblərdə əyani vəsaitlərin çatışmaması, coğrafiya, biologiya və digər fənnlər üzrə diyarşünaslıq işlərinin aparılmasını, xüsusən ətraf təbiətə və istehsalata ekskursiyaların təşkilini zəruri edirdi. Müəllimlər əvvəllər diyarşünaslıq işləri ilə məşğul olmadığı üçün onlar diyarşünaslıq işlərini təşkil etmək və aparmaq qaydalarını iş prosesində öyrənməli olurdular.

1923-cü ildə Xalq Maarif Komissarlığı tərəfindən respublikamızın I və II dərəcəli zəhmət məktəbləri üçün ilk proqramlar nəşr edildi. Həmin proqramlara əsasən birinci dərəcəli zəhmət məktəbinin IV-V qruplarında coğrafiyanın ayrıca bir fənn kimi tədris edilməsi nəzərdə tutulur və bunun üçün dərs planında hər qrup üçün həftədə 3 saat vaxt ayrılırdı. Bu proqrama əsasən I dərəcəli məktəbin 4-cü qrupunda ümumi coğrafi məlumatlar, V qrupunda isə əvvəlcə Zaqafqaziyanın ümumcoğrafi icmalı, sonra isə Azərbaycan ətraflı keçirilirdi. Azərbaycanda sonra Gürcüstan,

Ermənistan respublikaları, daha sonra isə ittifaqın başqa respublika və vilayətləri haqqında məlumat verilirdi (Zülfüqarov, 983: 82).

1920-1930-cu illərdə Azərbaycan SSR-də nəşr edilən coğrafiya plan və proqramları üzərində apardığımız təhlillər nəticəsində həmin proqramları əsas cəhətlərini belə ümumiləşdirə bilərik. Coğrafiya proqramları tərtib edilərkən diyarşünaslıq prinsipi diqqət mərkəzində idi. Şagirdlər öz yaşadığı ölkənin təbii şəraiti, əhalisi, əmək prosesləri, təsərrüfatı ilə yaxından tanış edilirdi. Diyarşünaslıq prinsipi sayəsində tədris praktikasında ekskursiyalar mühüm rol oynamağa başladı.

1930-cu illərin əvvəllərindən başlayaraq Sovet respublikalarında, o cümlədən Azərbaycan SSR ümumtəhsil məktəbləri üçün ÜİK/b/ PMK-nın Sovet məktəblərində "İbtidai və orta məktəbdə tədris proqramları haqqında" 25 avqust 1932-ci il qərarına əsasən yeni tədris plan və proqramları yaradıldı. Qəbul edilən qərarlar əsasında respublikamızın məktəblərində Azərbaycan coğrafiyasının tədrisi istiqamətində mühüm yenilik oldu. 1933/34-cü dərs ilindən etibarən Azərbaycan coğrafiyası ibtidai məktəbin III sinfində 12 saat olmaqla tədris edilməyə başladı. Proqramda nəzərdə tutulmuş vaxt ərzində Azərbaycan SSR-nin tədrisi üçün aşağıdakı mövuların tədrisi nəzərdə tutulurdu:

- ASSR-nin coğrafi mövqeyi və sərhədləri, təbii şəraiti, relyefi, iqlimi, çayları, gölləri, torpaq coğrafiyası, bitki və heyvanat aləmi, faydalı qazıntıları, enerji resursları, zəngin neft ehtiyatları, xammal resursları;
- ASSR-nin sənayesi;
- Kənd təsərrüfatı;
- Nəqliyyat;
- ASSR-nin inzibati-siyasi bölgüsü;
- ASSR-nin rayonlara bölgüsü. Dağlıq Qarabağ-ərazisi və əhalisi. Naxçıvan SSR-ərazisi və əhalisi (Orta Ümumtəhsil məktəblərinin proqramları, 1933: 50-51).

Proqramın təhlili göstərir ki, Azərbaycan coğrafiyasına 12 saat vaxt verilsə də, proqramda respublikamız haqqında daha çox materialın tədrisi nəzərdə tutulmuşdur. Azərbaycan SSR respublikasının fiziki-coğrafi icmalına proqramda daha az yer ayrılıb, respublikamızın iqtisadi-sosial coğrafiyasının icmalı isə əsas diqqət mərkəzindədir. Ölkəmizin iqtisadi-coğrai icmalı, xüsusən kənd təsərrüfatı, sənayesi, neft sənayesi, nəqliyyat, iqtisadi rayonlarının öyrənilməsinə daha çox üstünlük verilmişdir.

1941-ci il iyul ayının 7-də Azərbaycan SSR XMK kolleksiyasında Azərbaycan SSR coğrafiyası haqqında yeni proqram qəbul edildi. Proqrama əsasən ibtidai məktəbin IV sinifində ilk dəfə olaraq SSRİ coğrafiyasının tərkibində Azərbaycan coğrafiyasının tədrisinə 16 saat vaxt ayrıldı. Proqram qabaqcıl coğrafiya müəllimi və metodisti Vaqif Axundovun bilavasitə əsaslandırılması ilə hazırlandı. 1942-ci ildə proqram yenidən nəşr edilir və Azərbaycan coğrafiyasına ayrılan saatların miqdarı 16 saatdan 20 saata qaldırılır. Azərbaycan coğrafiya proqramının quruluşu IV sinifdə keçilən SSRİ coğrafiya proqramının quruluşuna uyğun tərtib edilmişdi (Orta Ümumtəhsil məktəblərinin proqramları, 1942: 59).

Azərbaycan SSR XMK ibtidai və orta məktəblər idarəsi 1945-ci ildə V.Axundovun redaktəsi ilə yeni orta məktəb coğrafiya proqramı nəşr edildi. Proqramda VII sinif SSRİ-nin fiziki coğrafiyasının tərkibində Azərbaycan SSR-nin fiziki coğrafiyasına 12 saat vaxt ayrıldı.

VIII sinifdə SSRİ-nin iqtisadi coğrafiyasının tərkibində "Zaqafqaziyanın müttəfiq respublikaları" bölməsinə verilən 14 saat vaxtın 10 saatı Azərbaycanının iqtisadi coğrafiyasının öyrənilməsinə ayrıldı. Nəşr edilən yeni proqramda Azərbaycan coğrafiyasının öyrənilməsinə 25 saat vaxt ayrıldı. Respublikamızın yediillik və orta məktəblərinin VII və VIII siniflərində tərtib edilən bu xüsusi proqram Azərbaycan coğrafiyasının öyrədilməsində çox böyük imkanlar yaratdı. Azərbaycan SSR coğrafiyasının bu proqramı sonrakı illərdə ümumittifaq proqramına daxil edilir. 1947-ci ildə isə IV, VII və VIII sinif üçün hazırlanmış Azərbaycan SSR coğrafiya proqramı ayrıca kitabça şəklində çap edilir və məktəblərə göndərilir (Orta Ümumtəhsil məktəblərinin proqramları, 1945: 57).

1951-ci ildə B.Əsgərov və T.Haşımovanın redaktəsi ilə 1951/52-ci tədris ili üçün yeni coğrafiya proqramı nəşr edildi. Azərbaycan SSR-nin fiziki coğrafiyasına ayrılan dərs saatı, "Çaylar, göllər və

bataqlıqlar" mövzusuna 1 saat əlavə edilməsi hesabına 14 saat müəyyənləşdi. Azərbaycan SSR-nin iqtisadi coğrafiyasına verilən dərs saatı, "Azərbycan SSR-nin rayonlar üzrə icmalı" mövzusuna 4 saat əlavə edilməsi ilə 14 saat oldu. Azərbaycan coğrafiyasına ayrılan dərs saatı 23 saatdan 28 saata qaldırıldı. Proqramda Azərbaycan SSR fiziki coğrafiyasına aid olan mövzular və ayrılan saatların həcmi aşağıdakı kimi olmuşdur:

- ✓ Coğrafi mövqeyi, sahəsi və ərazisi – 1 saat
- ✓ Səth quruluşu − 2 saat
- ✓ Faydalı qazıntılar və mineral sular − 1 saat
- ✓ İqlim – 1 saat
- ✓ Çaylar, göllər və bataqlıqlar − 2 saat
- ✓ Xəzər dənizi − 1 saat
- ✓ Torpaq − 1 saat
- ✓ Bitki − 1 saat
- ✓ Heyvanlar aləmi − 1 saat
- ✓ Əhali və siyasi inzibati bölgü – 1 saat
- ✓ Azərbaycan SSR Xalq təsərrüfatının qısa xarakteristikası – 2 saat (Orta Ümumtəhsil məktəblərinin proqramları, 1951: 38).

Proqramda Azərbaycan SSR-nin iqtisadi coğrafiyasına daxil olan mövzular və ayrılmış saatların həcmi aşağıdakı kimi verilmişdir:

- ✓ Azərbaycan təsərrüfatının ümumi xarakteristikası − 2 saat
- ✓ Azərbaycan SSR sənayesi – 1 saat
- ✓ Neft sənayesi – 1 saat
- ✓ Başqa sənaye sahələri – dağ mədən, maşınqayırma, metal emalı, kimya, meşə, ağac emalı, toxuculuq, yeyinti sənayesi – 1 saat
- ✓ Azərbaycan SSR-nin kənd təsərrüfatı − əkinçilik, dənli bitkilər – 2 saat
- ✓ Heyvandarlıq – 1 saat
- ✓ Azərbaycan SSR-nin nəqliyatı – 1 saat
- ✓ Azərbaycan SSR-nin rayonlar üzrə icmalı – 6 saat

Azərbaycan SSR-nin əsas iqtisadi-coğrafi rayonları və onların xarakteristikası: Abşeron-Qobustan, Kirovabad-Daşkəsən, Kür-Araz, Lənkəran-Astara, Nuxa-Zaqatala, Quba-Xaçmaz, Naxçıvan MSSR, Dağlıq Qarabağ MV, Kəlbəcər-Qubadlı (Orta Ümumtəhsil məktəblərinin proqramları, 1951: 60).

1957-ci ildə 1957/58-ci tədris ili üçün hazırlanmış yeni proqramda əvvəlki proqramlarda olduğu kimi, Azərbaycan SSR-nin fiziki coğrafiyasına 14 saat vaxt verilir. SSRİ fiziki coğrafiyası kursunun proqram materialının yenidən işlənməsi ilə əlaqədar olaraq, Azərbaycan SSR coğrafiyası proqram materialın məzmununda bəzi dəyişikliklər edilmiş və onun tədrisi III rübdən IV rübə köçürülmüşdür. Beləliklə, 1957/58-ci dərs ilindən başlayaraq VII sinifdə SSRİ-nin fiziki coğrafiyası kursu, Azərbaycan coğrafiyasının tədrisi ilə tamamlanır. Azərbaycan coğrafiyasının IV rübə keçirilməsi onun tədrisi prosesində məhəllin havası və ətraf mühitin təbii hadisələri üzərində müşahidə təşkil edilməsinə imkan yaradır. Azərbaycan SSR-nin coğrafiyası bölməsinə "Azərbaycan SSR-nin fiziki-coğrafi sahələri" adlı yeni mövzu əlavə edildi və tədrisi üçün 6 saat vaxt nəzərdə tutuldu. Azərbaycan SSR-nin iqtisadi coğrafiyası isə IX sinifdə daha geniş tədris edilir. Azərbaycan SSR iqtisadi coğrafiyasına 12 saat vaxt ayrılmaqla, tədris ilinin sonunda Orta Asiyadan sonra keçirilir. Nəticə olaraq Azərbaycan SSR-nin coğrafiyasına 26 saat vaxt ayrıldı (Orta Ümumtəhsil məktəblərinin proqramları, 1957; 1959).

Nəhayət 1966/67-ci tədris ilində VII sinif II yarımildə Azərbaycan SSR-nin fiziki coğrafiyası 17 saat, VIII sinif II yarımilində isə Azərbaycan SSR-nin iqtisadi coğrafiyası 15 saat həcmində tədris edilməyə başladı. Azərbaycan SSR-nin fiziki coğrafiyasına ayrılan 17 saatın 11 saatı ölkənin fiziki-coğrafi icmalına, 6 saatı isə Azərbaycanın fiziki-coğrafi sahələrinə − Böyük Qafqaz (2 saat), Kiçik Qafqaz (Naxçıvan MSSR və Dağlıq Qarabağ M.V. 2 saat), Lənkəran (1 saat), Kür-Araz ( 1 saat) müvafiq gəlirdi (Orta Ümumtəhsil məktəblərinin proqramları, 1966: 59).

Proqramın izahat vərəqəsində deyilirdi ki, Azərbaycan SSR coğrafiyasının xüsusi proqram və dərsliklər üzrə keçməkdə məqsəd, respublikamızın təbiətini, təsərrüfatını, şəhərlərini daha ətraflı öyrənməkdir. Azərbaycan SSR coğrafiyasının tədrisi prosesində ölkəşünaslıq işləri, yerli təbiətin qorunması və daimiləşdirilməsi məsələsinə xüsusi diqqət vermək lazımdır. Bu məqsədlə verilən biliklər məktəbin yerləşdiyi inzibati rayonlardan və ya coğrafi sahədən alınmış konkret faktlarla zənginləşdirilməlidir (Orta Ümumtəhsil məktəblərinin proqramları, 1966: 7).

Azərbaycan SSR Nazirlər kabinetinin kollegiyasının 22 iyun 1978-ci il 82 №-li qərarı ilə təsdiq etdiyi və 1979-cu ildə nəşr olunan yeni coğrafiya proqramında respublikanın fiziki coğrafiyası VII sinifdə, iqtisadi coğrafiyası isə VIII sinifdə SSRİ coğrafiyasının tərkibində tədris ediməyə başladı. Azərbaycan SSR-nin fiziki coğrafiyası 25 saat, iqtisadi coğrafiyasına isə 5 saat vaxt ayrıldı. Bundan əlavə, Azərbaycanın iqtisadi-coğrafi icmalının tədrisi VIII sinifdə Zaqafqaziya mövzusuna ayrılmış 3 saat vaxtda nəzərdə tutulmuşdu. Yeni proqramın mənfi cəhəti ondan ibarət idi ki, Azərbaycan SSR-nin fiziki coğrafiya proqramı həddən artıq yüklənmiş, Azərbaycan SSR-nin iqtisadi coğrafiya proqramında dolaşıqlıq nəzərə çarpır və tədrisi üçün hansı dərs vəsaitinin istifadə olunması nəzərə alınmamışdı.

Yeni proqramda SSRİ fiziki coğrafiyasının üçüncü bölməsi Azərabaycan SSR fiziki coğrafiyasına həsr olunmuşdur. Yeni proqram üzrə Azərbaycan SSR fiziki coğrafiyası bilavasitə respublikamızın ərazisinə daxil olan Qafqaz regionu öyrənildikdən sonra tədris etmək nəzərdə tutulmuşdur. Belə bir yanaşma Azərbaycan SSR ərazisinin Qafqazla birlikdə kiçik miqyasda, ayrılıqda isə orta və iri miqyasda öyrənməyə və bunun əsasında şagirdlərdə hər hansı bir ərazinin müxtəlif miqyaslarda tədqiqi və öyrənilməsi haqqında təsəvvür yaratmağa imkan verir. Azərbaycan SSR fiziki coğrafiyası proqramı aşağıdakı hissələrdən ibarətdir:

1. Azərbaycan SSR-nin fiziki-coğrafi icmalı;
2. Azərbaycan SSR-nin təbii-coğrafi vilayətlərinin təbii-şəraiti və təbii ehtiyatları;
3. Məktəbin yerləşdiyi muxtar respublikaların, muxtar vilayətlərin və ya iqtisadi rayonun təbiəti və təsərrüfatı.

Azərbaycan SSR fiziki coğrafiyasının tədrisində təbii şəraitin və onun ayrı-ayrı komponentlərinin təsərrüfat cəhətdən qiymətləndirilməsi, insanların ictimai istehsal fəaliyyətinin təsiri nəticəsində onların dəyişməsi rekonustruksiyası və mühafizəsi, habelə meliorasiya, suvarma su təchizatı, məsələlərinə geniş yer verilmişdir. Praktik işlər sisteminə ənənəvi iş üsulları ilə yanaşı, məhəllin süxurları ilə tanışlıq əsasında mineral kolleksiyasının hazırlanması, məktəb yerləşən məntəqə üçün ümumi radiasiyanın miqdarının, buxarlanma və rütubətlik əmsalının, şaxtalı və temperaturu +10$^0$C-dən yuxarı olan günlərin hesablanması, xəritənin tutuşdurulması əsasında müəllimin təklif etdiyi fiziki-coğrafi rayonun kompleks fiziki-coğrafi xarakteristikasının tərtibi, Nabran-Şahdağ, Puşkin-Kömürçay xətləri üzrə landşaft profillərinin tərtibi və s. kimi konstruktiv məsələlər mühüm yer tutur (Orta Ümumtəhsil məktəblərinin proqramları, 1979: 12-13).

Azərbaycan SSR-nin iqtisadi coğrafiyası yuxarıda qeyd etdiyimiz kimi VIII sinifdə tədris edilir. Azərbaycan SSR sənayesinin, kənd təsərrüfatının və nəqliyyatın coğrafiyasını SSRİ-nin müvafiq təsərrüfat sahələrinin coğrafiyasına həsr edilmiş mövzuların tədrisi prosesində, ölkənin ümumi təsərrüfat sahəsinin və sisteminin üzvi bir həlqəsi kimi, onunla qarşılıqlı əlaqə və müqayisə şəraitində öyrənilir (Orta Ümumtəhsil məktəblərinin proqramları, 1979: 18-19).

1992-ci ildə Azərbaycan Respublikasının müstəqillik əldə etməsi ilə coğrafiya fənninin məzmun və strukturunda ciddi dəyişikliklər edilmişdir. Buna müvafiq olaraq Azərbaycan Respublikası Xalq Maarif Nazirliyi tərəfindən təsdiq olunmuş yeni tədris planı və proqramları hazırlanır. Məktəblərdə yeni tədris planında coğrafiya fənninə ayrılan saatların miqdarı 459 saata çatdırılır. SSRİ adlı dövlətin ləğv edilməsi ilə əlaqədar olaraq eyniadlı fiziki və iqtisadi coğrafiya kursları da proqramdan çıxarılır. Azərbaycanın fiziki və iqtisadi coğrafiyasına verilən saatların miqdarı 30 saatdan 102 saata qaldırılır. Azərbaycan Respublikasının fiziki coğrafiyası VII sinifdə I-II rüblər həftədə 3 saat olmaqla 51 saat, Azərbaycan iqtisadi-sosial coğrafiyası VII sinifdə III-IV rüblər həftədə 3 saat olmaqla 51 saat həcmində tədris edilməyə başladı (Orta Ümumtəhsil məktəblərinin proqramları, 1992: 3-4).

Azərbaycan Respublikasının fiziki coğrafiyası kursu ölkəşünaslıq xarakterli olub, başlıca məqsədi respublikamızın Qafqazda və Yer kürəsində tutduğu əlverişli mövqeyi, ayrı-ayrı təbii komponentlərinin mənşəyini, formalaşma qanunauyğunluqlarını, qarşılıqlı əlaqələrini, təsərrüfat əhəmiyyətini, təbiəti mühafizə və səmərəli istifadəsi problemlərini, ayrı-ayrı təbii sahələrin və fiziki-coğrafi rayonların kompleks fiziki-coğrafi xarakteristikasını öyrətməkdir.

Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası kursu ölkəşünaslıq prinsiplərinə uyğun olub, Azərbaycan Respublikasının iqtisadi-coğrafi mövqeyi, əhalisi, siyasi-inzibati ərazi bölgüsü, təbii şərait və təbii ehtiyatların təsərrüfat əhəmiyyəti, maddi və qeyri-maddi istehsal sahələrinin inkişafı, nəqliyyat-iqtisadi əlaqələri, iqtisadi rayonlaşdırılması haqqında ətraflı məlumat öyrənməyə imkan yaradır.

## Nəticə

Nəticə olaraq deyə bilərik ki, məqalədə Azərbaycan Demokratik Respublikası, sovet dövrü və müstəqillik illərində tərtib edilmiş proqramlar təhlil edilmişdir. Azərbaycan Demokratik Respublikasının ömrü az olduğundan, yaradılan yeni plan və proqramlar uzunmüddətli istifadə edilə bilmədi, lakin tədris planı və proqramları az müddətdə istifadə edilsə də, o dövrdə təhsil alan şagirdlərdə milli ruh, azadlıq eşqi və vətənpərvərlik hisslərinin aşılanmasında mühüm rol oynamışdı.

Sovet dövründə müxtəlif illər üzrə yeni-yeni proqramlar hazırlanır, Azərbaycan SSR coğrafiyasına ayrılan saatlar artırılırdı. Proqramların hazırlanmasında V.Axundov, B.Əsgərov və T.Haşımovanın xidmətlərini xüsusi ilə qeyd edə bilərik. Qeyd etmək olar ki, ölkəmizin inkişafında sovet dövrünün nailiyyətləri daha çox göz önündə verilirdi. İnkişafın arxasında dayanan ölkəmizin əlverişli təbii şəraiti, yeraltı və yerüstü sərvətləri, əlverişli coğrafi mövqeyə malik olması, xalqımızın əzmkarlığı, gücü, vətən sevgisi isə arxa planda qalırdı.

Nəhayət, müstəqillikdən sonra SSRİ-nin fiziki və iqtisadi coğrafiya kursları proqramlardan çıxarılır və Azərbaycan coğrafiyasına ayrılan saatların miqdarı xeyli artırılır. Tərtib edilən proqramlarda xüsusən ölkəmizin təbii zənginlikləri, iqtisadi qüdrəti, təbii şəraiti, əhali və xalq təsərrüfatının xarakterik xüsusiyyətlərinə geniş yer verildi. Şagirdlərə ölkəmizin coğrafiyasını daha yaxşı mənimsəmək üçün tədris proqramlarında suallara, praktik fəaliyyət tələb edən tapşırıqlara, xəritə üzərində iş, ekskursiya və müşahidələrin keçirilməsi üçün əlavə imkanlar yaradıldı.

## Ədəbiyyat

1. Sadıqlı, H.Ə., Allahverdiyev, N.N. (1986). Məktəb coğrafiyasının inkişaf tarixi, məzmunu və anlayışları. Bakı, 119 s. 2
2. Qəhrəmanova, A.F. (1993). Azərbaycan Demokratik Respublikasında xalq maarifinin təşkili yolları. Bakı: Az. ETPEİ, 180 s. 1
3. Abdullayeva, Z.H. (2009). Azərbaycanın ümumtəhsil məktəblərində coğrafiyanın tədris tarixi. Bakı, 151 s.12
4. Zülfüqarov, M.A. (1983). Coğrafiya dərsinin səciyyəvi xüsusiyyətləri. Bakı, 116 s. 3
5. Orta Ümumtəhsil məktəblərinin proqramları, Coğrafiya. (1933). Bakı, 72 s.9
6. Orta Ümumtəhsil məktəblərinin proqramları, Coğrafiya. (1942). Bakı, 81 s. 5
7. Orta Ümumtəhsil məktəblərinin proqramları, Coğrafiya. (1945). Bakı, 78 s. 6
8. Orta Ümumtəhsil məktəblərinin proqramları, Coğrafiya. (1951). Bakı, 84 s. 7
9. Orta Ümumtəhsil məktəblərinin proqramları, Coğrafiya. (1957). Bakı, 86 s.10
10. Orta Ümumtəhsil məktəblərinin proqramları, Coğrafiya. (1979). Bakı, 124 s.11
11. Orta Ümumtəhsil məktəblərinin proqramları, Coğrafiya. (1966). Bakı, 66 s.8
12. Orta Ümumtəhsil məktəblərinin proqramları, Coğrafiya. (1992). Bakı, 82 s. 4

**Rəyçi: p.e.n. Nərminə Seyfullayeva**

Göndərildi: 11.10.2022 Qəbul edildi: 29.12.2022

DOI: https://doi.org/10.36719/2663-4619/86/46-51

**Cəlal Nizami oğlu Əliyev**
Bakı Dövlət Universiteti
magistrant
celal.aliyev24@gmail.com

# İŞÇİLƏRİN ƏMƏK HÜQUQLARININ MÜDAFİƏSİ VASİTƏLƏRİNDƏN BİRİ KİMİ FƏRDİ ƏMƏK MÜBAHİSƏLƏRİNƏ MƏHKƏMƏYƏ QƏDƏR BAXAN ORQANIN SƏCİYYƏSİ

**Xülasə**

Ölkəmizin müstəqillik əldə etdikdən sonra daxil olduğu bazar iqtisadiyyatı əmək münasibətlərinin durmadan inkişafı tendensiyasını şərtləndirir. Bu şəraitdə həmin münasibətlərin subyekti olan işçilərin Konstitusiya və qanunlarla təsbit edilmiş hüquq və azadlıqlarının səmərəli şəkildə müdafiəsinin təşkil edilməsi sözügedən tendensiyanın davamlılığı baxımından vacib əhəmiyyət kəsb edir. Hazırki dövrdə işçilərin əmək hüquqlarının müdafiəsi üsullarından biri kimi fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın fəaliyyətinin qiymətləndirilməsi onu deməyə əsas verir ki, təcrübədə bu orqan qanunla yaradılmasında qarşıya qoyulmuş məqsədə nail olunması baxımından effektiv olmamaqla, əvvəlki dövrün qanunvericiliyi ilə müqayisədə xeyli dərəcədə öz rolunu itirmişdir. Hazırki araşdırmanın predmetini də bu sahədə qanunvericilik, nəzəriyyə və praktikanın qarşılıqlı təhlili əsasında fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın fəaliyyətində mövcud olan problemlərin təsbit edilməsi təşkil edir.

***Açar sözlər:*** *fərdi əmək mübahisələri, fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqan, əmək mübahisələri komissiyası, işçilərin əmək hüquqları, əmək hüquqlarının müdafiəsi*

**Jalal Nizami Aliyev**
Baku State University
master student
celal.aliyev24@gmail.com

## The nature of the pre-trial body for individual labor disputes as one of the means of protection of labor rights of workers

**Abstract**

The market economy which our state entered this after gaining independence contains steadily developing trend of labor relations. In this circumstance organization of effective protection of the rights and freedoms that established by the Constitution and laws of employees who are the subjects of those relations is important in terms of the sustainability of the said trend. Evaluation of the activity of the pre-trial body for individual labor disputes as one of the methods of protection of labor rights of employees in the current period suggests that in practice, this body has lost its role to a great extent compared to the legislation of the previous period, not being effective in terms of achieving the goal set for its creation by law. The subject of the current study is the determination of existing problems in the activity of the pre-trial body for individual labor disputes, based on the mutual analysis of legislation, theory and practice in this field.

***Keywords:*** *individual labor disputes, pre-trial body for individual labor disputes, labor disputes commission, labor rights of workers, protection of labor rights*

## Giriş

Müasir dövrdə ölkəmizdə ictimai əməyin səmərəli şəkildə təşkilinin təmin edilməsində qanunvericilik sahəsində aparılan hüquqi islahatların, habelə müxtəlif sahələrdə aparılan sosial-

iqtisadi islahatların çox böyük rolu və əhəmiyyəti vardır və bu islahatların əsas məqsədlərindən biri ölkədə əmək məhsuldarlığının səviyyəsinin artmasına yönəlik olmasıdır.

Bu tendensiyanın sarsılmadan realizə edilməsində ən vacib tədbirlərdən biri əmək münasibəti subyektlərinin, xüsusən də işçilərin əmək hüquqlarının müdafiəsinin təmin edilməsidir. Məhz işçilərə Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunlarla verilmiş hüquqların səmərəli müdafiəsi qurulduğu halda ictimai əmək münasibətlərinin inkişafından danışmaq mümkündür. Lakin işçilərə verilmiş bu hüquqların müdafiəsi sferasında bir sıra problemlər vardır ki, bunlardan ən əsası həmin hüquqların müdafiəsinin bəzi vasitələrinin qənaətbəxş olmamasıdır.

Məhz sözügedən qəbildən olan vasitələrdən biri də fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqandır. Qeyd edilməlidir ki, hazırki dövrdə bu orqanın təşkili və fəaliyyətində mövcud olan problemlər işçilərin əmək hüquqlarının müdafiəsində sözügedən institutun müəyyən mənada səmərəsizliyinə səbəb olmaqla, onun təcrübədə, ümumiyyətlə, tətbiq edilməməsinə gətirib çıxarmışdır.

Qeyd olunan sahədə tədqiqat aparılarkən həmin sahədə araşdırma aparmış alim və mütəxəssislərin əsərlərindən, həmçinin MDB ölkələrinin və Azərbaycan Respublikasının əvvəlki dövrə aid əmək qanunvericiliyindən istifadə edilmiş, həmin mənbələr kompleks şəkildə analiz edilməklə qarşıya qoyulmuş problemin həlli istiqamətində müəyyən nəticələrə gəlinmişdir.

Hesab edirik ki, hazırki araşdırma qeyd olunan institutun təcrübədə tətbiqinin nə dərəcədə əhəmiyyətli olduğu, bu istiqamətdə aparılmış araşdırma əsasında gəlinmiş nəticələrin nəzərə alınması halında onun səmərəli olacağı barəsində oxucuda müəyyən müsbət fikirlər yaradacaqdır.

**İşçilərin əmək hüquqlarının müdafiəsi vasitələrindən biri kimi fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın səciyyəsi.**

Məlum olduğu üzrə, əmək hüquq münasibətinin subyekti kimi işçi iş vaxtı ərzində işəgötürənin sərəncamında olmaqla, əmək müqaviləsi ilə şərtləşdirilmiş əmək funksiyalarının icrasına cəlb edilir. Lakin təbii haldır ki, istənilən hüquq münasibətində ola bildiyi kimi, əmək hüquq münasibətlərinin tərəfləri də, bu münasibətin yarandığı, dəyişdiyi, yaxud xitam edildiyi zaman qanun və müqavilə ilə onlara təmin edilmiş hüquqların pozulması halları ilə qarşılaşırlar. Bu, sözügedən hüquq münasibətinin xarakteri baxımından işçiyə münasibətdə özünü daha çox büruzə verir. Bu səbəblə, qanunverici işçiyə əmək hüquqlarının müdafiə edilməsi imkanını, bu hüquqların pozulduğu hallarda isə pozulmuş hüquqlarının bərpasını iddia etmək hüququnu tanımışdır.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin (AR ƏM) 292-ci maddəsinin birinci hissəsinə görə, işçi bu Məcəllənin 288-ci maddəsində göstərilmiş məsələlərlə bağlı hüquqlarının və ya qanunla qorunan mənafeyinin pozulduğunu aşkar etdikdə, bu Məcəllədə nəzərdə tutulmuş qaydada fərdi əmək mübahisələrini həll edən orqanlara müraciət edərək pozulmuş hüquqlarının bərpa edilməsini tələb edə bilər. İstinad olunan maddənin ikinci hissəsində qanunverici bu hüquqların müdafiəsi üsullarının dairəsini müəyyən edərək göstərir ki, pozulmuş hüquqlarının bərpa edilməsi barədə işçi məhkəməyə, yaxud bu Məcəllənin 294-cü maddəsində nəzərdə tutulmuş məhkəməyə qədər əmək mübahisələrini həll edən müvafiq orqana müraciət edə, habelə bu Məcəllənin 295-ci maddəsi ilə müəyyən edilmiş şərtlərlə və qaydada təkbaşına tətil edə bilər (Azərbaycan Respublikasının Əmək Məcəlləsi, 2022: 192).

Göründüyü kimi, işçilərin əmək hüquqlarının müdafiəsi üsullarından biri kimi məhz ƏM-nin 294-cü maddəsi ilə müəyyən edilmiş məhkəməyə qədər əmək mübahisələrini həll edən orqan göstərilir. Həmin maddənin ikinci hissəsinə görə, kollektiv müqavilələrdə nəzərdə tutulmuş hallarda müəssisələrdə həmkarlar ittifaqları təşkilatının nəzdində fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın yaradılması nəzərdə tutula bilər. Bu orqanın yaradılması və fəaliyyət qaydası kollektiv müqavilələrlə nizama salınır (Azərbaycan Respublikasının Əmək Məcəlləsi, 2022: 192).

Qeyd edilməlidir ki, fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın yeni konsepsiyada yaradılması ilk dəfə "Fərdi əmək mübahisələrinin həlli haqqında" Azərbaycan Respublikasının 13.02.1996-cı il tarixli Qanununda nəzərdə tutulmuşdur (2). Həmin Qanunun 4-cü maddəsinin ikinci hissəsində qeyd olunurdu ki, kollektiv müqavilələrdə (sazişlərdə) nəzərdə tutuları hallarda müəssisələrdə həmkarlar ittifaqı təşkilatının nəzdində fərdi əmək mübahisələrinə

məhkəməyə qədər baxan orqanın yaradılması nəzərdə tutula bilər. Bu orqanların yaradılması və fəaliyyət qaydası işçinin məhkəməyə qədər mübahisələrə baxan orqana, yaxud bilavasitə məhkəməyə müraciət etmək hüququ saxlanılmaqla kollektiv müqavilələrlə (sazişlərlə) nizama salınır.

Göründüyü kimi, fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanla bağlı hazırda qüvvədə olan normaların yaradılmasında qanunverici hüquqi varislik kontekstindən çıxış etmişdir.

Qüvvədə olan ƏM-nin istinad olunan norması fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanla bağlı əmək qanunvericiliyində təməl norma hesab olunmaqla, həmin orqanın təsis olunmasının ümumi qaydalarını və dolayısı ilə şərtlərini müəyyənləşdirir.

Fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın işçilərin əmək hüquqlarının müdafiəsi sahəsində qanunvericilik səviyyəsində öz təsbitini tapmasına baxmayaraq, müasir dövrdə ölkəmizdə sözügedən institutun tətbiqi çox aşağı səviyyədədir. Bu sahədə problemin səbəblərini araşdıran Z.İ.Cəfərov qanunvericinin əmək mübahisələrinin həllinin demokratik üsulu olan əvvəlki əmək mübahisələri komissiyalarından imtina etməsini vaxtından qabaq atılmış addım hesab edir (Cəfərov, 2008: 96). Hazırda fərdi əmək mübahisələrinə baxan orqanla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş normalar təcrübədə tətbiq olunmamaqla, müəyyən mənada formallıq xarakteri kəsb etməkdədir. Bunun bir sıra səbəbləri mövcuddur ki, bunların sırasında, ilk növbədə, bu sahədə qanunvericilikdəki boşluqları nəzərə çatdırmağın vacib olduğunu hesab edirik.

Birincisi, qanunverici bu orqanların adlandırılması məsələsini ƏM-də açıq qoyaraq bunun həllini hüquq münasibəti subyektlərinin ixtiyarına buraxmışdır. Belə ki, ƏM-nin 31-ci maddəsinin ikinci hissəsinin "h" bəndi, 292-ci maddəsinin ikinci, 294-cü maddəsinin ikinci və dördüncü, 296-cı maddəsinin birinci hissəsində bu orqanlar ümumi şəkildə "fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqan" kimi adlandırılmışdır (Azərbaycan Respublikasının Əmək Məcəlləsi, 2022: 47, 192-194). Hesab edirik ki, bu orqanların vahid ad altında ifadə olunmaması, habelə "məhkəməyə qədər" şəklində ifadə olunması onun yaradılmasına və fəaliyyətinə mənfi təsir edən, habelə təyinatının yanlış anlaşılmasına səbəb olan amildir. Qeyd olunan fikri Z.İ.Cəfərov da təsdiq edərək bildirir ki, adın qeyri-müəyyənliyi təcrübədə, xüsusilə işçinin həmin orqanın qərarı ilə razılaşmadığı hallarda çox böyük çətinliklər doğurur (Cəfərov, 2008: 107). Həmçinin, ƏM-də bu orqanlara verilən anlayışda "məhkəməyə qədər" ifadəsinin işlədilməsi, hesab edirik ki, onun bir növ məhkəməyə hazırlıq mərhələsi kimi, hətta bir az da irəli getsək, ədalət mühakiməsi sisteminin bir hissəsi kimi anlaşılmasına əsas verir. Halbuki AR Konstitusiyasının 125-ci maddəsinin birinci hissəsində də təsbit olunduğu kimi, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər (Azərbaycan Respublikasının Konstitusiyası, 2018: 47). Buna görə də hesab edirik ki, qanunverici bu orqanı əmək mübahisələrinin alternativ həll yolu kimi təsbit etmişdir və onun yaradılmasındakı əsas məqsədi əmək münasibəti subyektlərinin pozulmuş hüquqlarının məhkəmədən kənar qaydada həll olunmasıdır.

Bundan fərqli olaraq, "Fərdi əmək mübahisələrinin həlli qaydası haqqında" 11.03.1991-ci il tarixli SSRİ Qanununun, habelə Azərbaycan Respublikasının 1971-ci il tarixli Əmək Qanunları Məcəlləsinin (bundan sonra – AR ƏQM) XV fəslində fərdi əmək mübahisələrinə baxan ilk orqan kimi məhz əmək mübahisələri komissiyası təsbit olunmuşdur (Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsi, 1997: 94-95). Maraqlıdır ki, qanunverici fərdi əmək mübahisələri ilə əlaqədar qüvvədə olan ƏM-də təsbit olunmuş normaların əksəriyyətinin yaradılmasında əvvəlki dövrün əmək qanunvericiliyindən bəhrələnmiş olmasına baxmayaraq, "əmək mübahisələri komissiyası" adını qanunvericilikdən çıxardaraq, bu orqanı ümumi şəkildə adlandırmışdır.

Qeyd edilməlidir ki, vaxtilə SSRİ-nin tərkibində olmuş bir sıra ölkələrin əmək qanunvericiliyində fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın adı dəyişdirilməmiş, eyni və ya oxşar ad altında ifadə edilmişdir. Məsələn, Rusiya Federasiyasının hazırda qüvvədə olan Əmək Məcəlləsinin 382-ci maddəsi, Ukrayna Respublikası Əmək Məcəlləsinin 221-ci maddəsi və Qırğızıstan Respublikası Əmək Məcəlləsinin 412-ci maddəsində fərdi əmək mübahisələrinə baxan orqanlardan biri kimi əmək mübahisələri komissiyası təsbit

olunmuşdur. Qazaxıstan Respublikası Əmək Məcəlləsinin 159-cu maddəsində fərdi əmək mübahisələrinə baxan orqan razılaşma komissiyası kimi adlandırılmışdır (6, 7, 8, 9).

İkincisi, Azərbaycan Respublikasının Əmək Məcəlləsində fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqana leqal anlayış verilməmişdir. Hesab edirik ki, bu orqanın anlayışının qanunvericilikdə müəyyən edilməsi, onun xüsusiyyətləri sadalanmaqla mahiyyətinə ətraflı şəkildə aydınlıq gətirilməsi həmin orqanın fəaliyyətinin məqsədlərinin dərk edilməsi baxımından əhəmiyyətli olardı.

Üçüncüsü, ƏM-nin 294-cü maddəsinin ikinci hissəsinin təhlilindən aydın olduğu üzrə, bu orqanların təsis olunmasından əvvəl müəyyən şərtlərə əməl olunması tələb olunur ki, həmin şərtlər yerinə yetirilmədikcə, bu orqanların mövcudluğundan danışmaq olmaz. Bu şərtlər qismində müəssisədə həmkarlar ittifaqı təşkilatının yaradılmış olması, habelə müəssisədə kollektiv müqavilənin bağlanmış olması çıxış edir. Qeyd olunanların həyata keçirilməsi əmək münasibəti subyektləri üçün məcburi olmayıb, onlara qanunvericiliklə təmin edilmiş hüquqlar sırasına aiddir. Bununla əlaqədar "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1-ci hissəsinin, 294 və 296-cı maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 30.07.2021-ci il tarixli Qərarında da qeyd olunduğu kimi, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 294-cü maddəsinin 2-ci hissəsinin tələbinə görə, fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın yaradılması yalnız kollektiv müqavilələrdə nəzərdə tutulmalı və bu orqan müəssisələrdə həmkarlar ittifaqları təşkilatının nəzdində yaradılmalıdır (10). Nəzərə alınsa ki, hazırda fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın yaradılması sözügedən hüquqların həyata keçirilməsindən asılıdır, o halda həmin hüquqlardan istifadə edilmədikcə, bu orqanların təsis edilməsi qeyri-mümkündür.

Dördüncüsü, qanunverici bu orqanın yaradılmasını dispozitivlik metoduna əsasən, əmək münasibəti subyektlərinin ixtiyarına vermişdir. ƏM-də fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanla əlaqədar təsbit olunmuş normaların ümumi şəkildə təhlili onu deməyə əsas verir ki, qanunverici həmin orqanı əmək mübahisələrinin həlli vasitələrindən biri kimi səciyyələndirir, həmin orqanın yaradılması və fəaliyyət qaydasının müəssisədə bağlanmış kollektiv müqavilə ilə nizama salındığını müəyyən edir və həmin orqana müraciət edilməsi ilə əlaqədar müddətləri tənzimləyir.

Azərbaycan Respublikasının əvvəlki əmək qanunvericiliyinə nəzər salsaq, görərik ki, 1971-ci il tarixli AR ƏQM-nin 223-cü maddəsinə əsasən, əmək mübahisələri komissiyası işçilərinin sayı ən azı 15 nəfər olan müəssisənin, idarənin, təşkilatın (bölmənin) əmək kollektivinin ümumi yığıncağında (konfransında) seçilirdi (Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsi, 1997: 94).

Rusiya Federasiyası ƏM-nin 384-cü maddəsinə əsasən, əmək mübahisələri komissiyası işçilərin (işçilərin nümayəndəli orqanı) və (və ya) işəgötürənin (təşkilatın, fərdi sahibkarın) təşəbbüsü ilə, işçi və işəgötürənin bərabər sayda təmsilçisindən təşkil olunur. Əmək mübahisələri komissiyasının yaradılması üçün yazılı təklif alan işəgötürən və işçilərin nümayəndəli orqanı təmsilçilərini on gün müddətində komissiyaya göndərməyə borcludur (6).

Qazaxıstan Respublikası ƏM-nin 159-cu maddəsinə görə, razılaşma komissiyası təşkilatda, onun filial və nümayəndəliklərində bərabər sayda işçi və işəgötürənin təmsilçilərindən ibarət olan daimi orqandır. Analoji anlayışlar Qırğızıstan Respublikası ƏM-nin 415-ci maddəsi və Ukrayna Respublikası ƏM-nin 223-cü maddəsində də müəyyən edilmişdir (7, 8, 9).

Z.İ.Cəfərov da qeyd olunan fikri bölüşərək bildirir ki, bütün müəssisələrdə kollektiv müqavilələr bağlanmadığından, aydındır ki, əvvəlki dövrdən fərqli olaraq, əmək mübahisələri komissiyası kimi fərdi əmək mübahisələrini həll edən orqanlar, praktik olaraq, yoxdur. Buna görə də söyləmək olar ki, qanunvericimiz onları uğurla "dəfn etmişdir" (Cəfərov, 2010: 370).

Beşincisi, bu orqanın yaradılması ilə yanaşı, qanunvericilikdə bu orqanın fəaliyyətinin tənzimlənməsi də ümumi şəkildə təsbit olunmaqla, məsələnin həlli əmək münasibətləri subyektlərinə həvalə olunmuşdur. Fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın fəaliyyət qaydası ilə əlaqədar AR ƏM-nin 294-cü maddəsinin ikinci hissəsinin kommentariyasına

əsasən, maddənin məzmunundan aydın olur ki, həmkarlar ittifaqı təşkilatının nəzdində yaradılan fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqan ona müraciət edən tərəflərin şikayət ərizəsi əsasında mübahisəyə mahiyyəti üzrə baxır və müvafiq qərar çıxarır. Əgər çıxarılan qərar işçini və ya işəgötürəni qane etməzsə, onda həmin mübahisənin həlli üçün tərəflər məhkəməyə müraciət edə bilərlər (Azərbaycan Respublikası Əmək Məcəlləsinin elmi-praktik kommentariyası, 2018: 1063-1064). Normanın məzmunundan çıxış edərək, razılaşmaq olar ki, qeyd olunan qayda fərdi əmək mübahisələrinə baxan bütün orqanlar üçün standart ümumi prosedurdur. Lakin, təəssüf ki, bu orqanın fəaliyyətinin əsasları qanunvericilikdə dəqiqliklə müəyyənləşdirilmədiyindən, həmin orqanın yaradılması halında belə, onun fəaliyyət qaydasının tənzimlənməsi ilə əlaqədar təcrübə olmadığı üçün onun fəaliyyəti çox aşağı səviyyədə olmaqla, hər hansı effektivliyə sahib olmayacaqdır.

Altıncısı, fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın çıxardığı qərarın qəti hesab olunması, həmin qərarın qüvvəyə minməsi müddəti, icra mexanizmi və icra edilməməsinə görə məsuliyyətlə bağlı qanunvericilikdə hər hansı normanın nəzərdə tutulmaması da bu institutun tətbiqində müsbət nəticə əldə edilməsini istisna edir.

Yeddincisi, AR ƏM-nin 288-ci maddəsinə əsasən, fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın səlahiyyətlərinin əvvəlki dövrdən fərqli olaraq, genişləndirilməsi ilə əlaqədar Z.İ.Cəfərov qeyd edir ki, bu o qədər də düzgün deyildir. Belə ki, işəgötürənin maddi (əmlak) mənafelərinə, bəzən isə həm də şərəfinə toxunan mürəkkəb məsələlərin həlli zamanı onların işçi barəsində ədalətli qərar çıxaracağına ümid etməyə dəyməz (Cəfərov, 2010: 372).

Yuxarıda qeyd etdik ki, bu orqanın yaradılması qanunvericiliklə müəssisə, idarə və təşkilatların ixtiyarına verilmişdir. Təcrübə və statistika göstərir ki, hazırda ölkədə fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlarda fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın mövcud olmasına və fəaliyyət göstərməsinə, demək olar ki, rast gəlinmir. Əvvəldə qeyd olunduğu kimi, bu orqanın işə baxılması ilə əlaqədar qəbul etdiyi qərarın qəti hesab olunmaması, qərarın icra edilməməsinə görə qanunvericiliklə hər hansı məsuliyyət tədbirinin nəzərdə tutulmaması, həmçinin həmin orqanlarda mübahisəyə obyektiv və qərəzsiz şəkildə baxılmasına, dolayısı ilə effektivliyinə olan inamın azlığı bu orqanların yaradılmasına maraq göstərilməməsinin əsas səbəblərindəndir.

Sadalanan problemlər hazırki dövrdə sözügedən institutun, ümumiyyətlə, işləməməsinə gətirib çıxarmışdır. Bu isə bütün əmək mübahisələrinin mediasiya və məhkəmə müstəvisinə qalxması ilə nəticələnir ki, işin qeyd olunan halı, öz növbəsində, əmək münasibətlərinin subyektləri üçün maddi və sosial problemlər yaratması ilə yanaşı, sonuncuların iş yükünün də artmasına səbəb olur.

Nəzərdən keçirilən sahədə araşdırma aparmış alimlərin, Azərbaycan Respublikasının əvvəlki əmək qanunvericiliyinin, habelə müxtəlif ölkələrin tədqiq edilmiş qanunvericilik aktlarının ümumi şəkildə təhlilinə əsasən hesab edirik ki, sözügedən institutun təkmilləşdirilməsi ilə əlaqədar hüquqi islahatların aparılması, qanunvericilikdə olan boşluqların aradan qaldırılması bu institutun inkişafına şərait yaratmaqla həmin orqanların əmək münasibəti subyektlərinin hüquqlarının müdafiəsində əhəmiyyətli rol oynamasına şərait yaradar.

## Nəticə

İşçilərin əmək hüquqlarının müdafiəsi sahəsində fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın rolunun öyrənilməsi, bu sahədə mövcud olan problemlərin dairəsinin müəyyənləşdirilməsinə dair aparılmış araşdırma, o cümlədən bununla əlaqədar hüquq ədəbiyyatında qeyd olunan fikirlərin, habelə ölkəmizin əvvəlki və bir sıra ölkələrin qüvvədə olan əmək qanunvericiliyinin kompleks şəkildə təhlil edilməsi aşağıdakı nəticələrin əldə edilməsinə şərait yaratmışdır ki, bu sadalananların öz növbəsində hazırki dövrdə yaranan və mövcud olan əmək mübahisələrinin xüsusiyyətləri və səbəbləri baxımından bu orqanın fəaliyyətinin dəyərləndirilməsində mühüm əhəmiyyətə malik olacağını hesab edirik:

- Fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın qanunvericiliklə tənzimlənməsi olduqca aşağı səviyyədədir;

- Fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqan qanunvericilikdə vahid ad altında ifadə edilməlidir;
- Fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqana qanunvericilikdə leqal anlayış verilməlidir;
- Fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın fəaliyyətinin qanunvericilikdə təkmilləşdirilməsinə ciddi zərurət vardır. Bu məqsədlə ölkəmizin əvvəlki əmək qanunvericiliyindən, habelə MDB ölkələrinin analoji sahədə qanunvericilik təcrübəsindən istifadə oluna bilər;
- Fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın baxdığı işlərin dairəsinə AR ƏM-nin 288-ci maddəsi ilə təsbit olunmuş bütün işlər deyil, yalnız komissiya baxışının effektiv təsirə malik ola biləcəyi növdən olan mübahisələr daxil edilməlidir;
- Fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqanın məcburi tətbiqi fərdi əmək mübahisələrinin həllində müsbət rol oynaya bilər;
- Qanunvericilikdə aparılacaq bir təkmilləşdirmənin fərdi əmək mübahisələrinin həllində həmin orqanın rolunu artırması istisna olunmur;
- Fərdi əmək mübahisələrinə baxan orqanın qanuni qüvvəyə minmiş qərarının icra edilməməsinə görə məsuliyyətin müxtəlif növləri qanunvericilikdə müəyyən edilməlidir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. (2022). Bakı: Hüquq Yayın Evi, 264 s.
2. "Fərdi əmək mübahisələrinin həlli haqqında" Azərbaycan Respublikasının 13 fevral 1996-cı il tarixli, 25-IQ nömrəli Qanunu. https://e-qanun.az/ framework/1763
3. Cəfərov, Z.İ. (2008). Əmək mübahisələrinə baxılması vətəndaşların əmək hüquqlarının müdafiəsinin forması kimi. Monoqrafiya. Bakı: Adiloğlu, 220 s.
4. Azərbaycan Respublikasının Konstitusiyası. (2018). Bakı: Hüquq Yayın Evi, 92 s.
5. Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsi. (1997). Bakı: Hüquq ədəbiyyatı.
6. Trudovoy Kodeks Rossiyskoy Federatsii. https://rulaws.ru/tk/
7. Kodeks zakonov o trude Ukrainy. https://continent-online.com/Document /?doc_id=30412508#pos=5;-142
8. Trudovoy Kodeks Kyrgyzskoy Respubliki. https://online.zakon.kz/ Document/?doc_id=30296269&pos=6;-106#pos=6;-106
9. Trudovoy Kodeks Respubliki Kazakhstan. https://online.zakon.kz/ document/?doc_id=38910832&pos=5;106#pos=5;-106
10. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1-ci hissəsinin, 294 və 296-cı maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 30 iyul 2021-ci il tarixli Qərarı. https://e-qanun.az/framework/48189
11. Cəfərov, Z.İ. (2010). Əmək hüquqlarının müdafiəsi üsulları konstekstində əmək mübahisələrinin hüquqi tənzimlənməsi. Monoqrafiya. Bakı: Qanun, 472 s.
12. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin elmi-praktik kommentariyası. (2018). Bakı: Hüquq Yayın Evi, 1100 s.


**Rəyçi: h.e.d. Zahid Cəfərov**

Göndərildi: 30.10.2022 Qəbul edildi: 20.12.2022

DOI: https://doi.org/10.36719/2663-4619/86/52-57

**Nərgis Yaşar qızı Tağıyeva**
Bakı Dövlət Universiteti
magistrant
tagiyeva.nargis@gmail.com

# ƏMƏK HÜQUQUNDA İSTİRAHƏT VAXTI ANLAYIŞI VƏ ONUN NÖVLƏRİ

**Xülasə**

Bu məqalədə işçiyə istirahət vaxtının verilməsi məsələsi əmək hüququna dair ədəbiyyat, eləcə də Azərbaycan Respublikasının və bəzi xarici ölkələrin qanunvericilik aktlarının mövcud normaları əsasında tədqiq olunur. Məqalənin əsasını təşkil edən tədqiqatın əsas məqsədi istirahət vaxtının anlayışını və növlərini müəyyən etmək, işçiyə istirahət vaxtının verilməsini tənzimləyən milli qanunvericiliyin və xarici dövlətlərin qanunvericiliyinin müddəalarının müqayisəli təhlilini apararaq, onların oxşar və fərqli cəhətlərini aşkar etməkdən ibarətdir.

***Açar sözlər:*** *əmək hüququ, işçinin hüquqları, istirahət vaxtı, gündəlik istirahət, həftəlik istirahət, bayram günləri, məzuniyyət*

**Nargis Yashar Taghiyeva**
Baku State University
master student
tagiyeva.nargis@gmail.com

## The concept of rest time in labor law and its types

**Abstract**

In this article the issue of granting an employee a rest time is researched based on the literature on labor law and the existing norms of the legislation of the Republic of Azerbaijan and certain foreign countries. The main purpose of the research underlying this article is to define the concept and types of the rest time, to conduct a comparative analysis of the provisions of the local legislation and the legislation of foreign countries regulating the granting of the rest time to the employee, to identify similarities and differences.

***Keywords:*** *labor law, employee's rights, rest time, daily rest, weekly rest, holidays, vacation*

## Giriş

Tədqiqat mövzusunun aktuallığı işçinin rifahının əmək fəaliyyətində iştirak dərəcəsindən birbaşa asılılığı ilə bağlıdır. İşçinin istirahət hüququnu həyata keçirməsi təkcə onun fiziki və mənəvi gücünün bərpasını deyil, həmçinin onun şəxsi inkişafını, təhsil prosesində və bədii yaradıcılıqda iştirakını, idmanla məşğul olmağını da təmin edir. İş vaxtı ilə istirahət vaxtı arasında optimal balansın müəyyən edilməsi, onların tənzimlənməsi müxtəlif sahələr üzrə mütəxəssislərin iştirakını tələb edən mürəkkəb problemdir.

"İstirahət vaxtı" termini əsas insan hüquqlarından və əməyin hüquqi tənzimlənməsi prinsiplərindən biri elan edilmiş istirahət hüququndan irəli gəlmiş hesab edilir. İstirahət hüququ bir çox beynəlxalq və yerli sənədlərdə təsbit edilmişdir. Məsələn, 1948-ci ildə qəbul olunan İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 24-cü maddəsində qeyd edilir ki, hər kəsin istirahət və asudə vaxt hüququ, o cümlədən iş vaxtının ağlabatan məhdudlaşdırılması və ödənişli vaxtaşırı məzuniyyət hüququ vardır (2006: 8).

Bundan savayı, istirahət hüququ Azərbaycan Respublikasının Konstitusiyasının 37-ci maddəsində də nəzərdə tutulmuşdur. Həmin maddənin 1-ci hissəsinə əsasən, hər kəsin istirahət hüququ vardır (2021: 63).

Əmək hüququ nöqteyi-nəzərindən istirahət vaxtı işçilərin qanuna və əmək müqaviləsinə uyğun olaraq əmək vəzifələrini yerinə yetirməkdən azad olunduğu və ondan öz mülahizəsinə əsasən istifadə etdiyi vaxtdır. İstirahət vaxtının, bu anlayışdan irəli gələn iki əhəmiyyətli xüsusiyyəti var. Birincisi, müəyyən edilmiş müddətdə işçi əmək vəzifələrini yerinə yetirməkdən azad olmalıdır. Eyni zamanda diqqət yetirmək lazımdır ki, işçi bəzi vəzifələrini, məsələn, işəgötürənin mülkiyyətini qorumaq, kommersiya sirrini saxlamaq və s. iş vaxtından kənarda da yerinə yetirməyə borcludur. İstirahət vaxtının ikinci xüsusiyyəti odur ki, işçi istirahət vaxtından öz mülahizəsinə görə istifadə edə bilər.

İstirahət vaxtı, hüquq ədəbiyyatında haqlı olaraq qeyd olunduğu kimi, qeyri-iş vaxtının strukturuna daxil olan digər qeyri-iş vaxtlarından fərqlənir. Yuxarıda qeyd edildiyi kimi, istirahət vaxtından işçi öz mülahizəsinə uyğun istifadə edir və bu vaxtın növləri və minimum hədləri qanunla müəyyən edilir.

Digər qeyri-iş vaxtları isə istirahət vaxtından fərqli olaraq, ilk növbədə, işçilərə məqsədyönlü şəkildə təqdim olunur, məsələn müalicə üçün, dövlət və ya ictimai vəzifələrin yerinə yetirilməsi üçün, təhsil üçün və s. (Volk, Gerasimova, Golovina, 2019: 367).

A.M.Qasımovun haqlı olaraq qeyd etdiyi kimi, istirahət vaxtının hüquqi cəhətdən tənzim edilməsinin məzmunu və əhəmiyyəti iş vaxtının qanunla müəyyən olunmuş müddətini məhdudlaşdırmaqla istirahət vaxtından səmərəli və real olaraq istifadə olunması üçün işçiyə hər cür şərait yaratmaqdan ibarətdir (Qasımov, 2007: 322).

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (bundan sonra qısaca olaraq AR ƏM) istirahət vaxtının anlayışı verilməsə də, AR ƏM-in V bölməsi istirahət vaxtı və işçilərin məzuniyyət hüquqlarının həyata keçirilməsi qaydalarını tənzimləyir (2022: 284). Xarici ölkələrin qanunvericiliyinə nəzər yetirsək, istirahət hüququnun orada da təsbit olunduğunu görə bilərik. Məsələn, Rusiya Federasiyasının Konstitusiyasının 37-ci maddəsinin 5-ci hissəsinə əsasən, hər kəsin istirahət etmək hüququ var; əmək müqaviləsi ilə işləyən şəxsə federal qanunla müəyyən edilmiş iş vaxtının uzunluğuna, qeyri-iş günləri və bayram günlərinə, illik ödənişli məzuniyyətlərə təminat verilir (6).

Əmək hüququnun "istirahət vaxtı" institutu əsasən beş növ istirahətin tənzimlənməsini əhatə edir: iş günü ərzində fasilələr; gündəlik istirahət; həftəlik istirahət; iş günü hesab olunmayan bayram günləri; ödənişli məzuniyyət. Bu istirahət növlərinin hər birini ayrı-ayrılıqda nəzərdən keçirək.

**İş günü ərzində fasilələr.** Bu fasilələrin məqsədi işçilərə nahar, istirahət etmək, həmçinin zəruri hallarda əməyin mühafizəsini təmin etməkdir. Əmək hüququ sahəsindəki ədəbiyyata və müxtəlif ölkələrin qanunvericiliyinə nəzər yetirdikdə, bu fasilələrin əsasən dörd növü müəyyən edildiyi görünür ki, bunlar həm mahiyyətcə, həm də hüquqi baxımdan bir-birindən fərqlənir. İş günü ərzində fasilələrin aşağıdakı növləri vardır: istirahət və nahar etmək üçün fasilələr, qızınmaq üçün fasilələr, uşağın yedizdirilməsi üçün fasilələr, texnoloji fasilələr (müəyyən növ avadanlıq, maşın, ofis avadanlıqları və s. üzərində işləyən şəxslər üçün).

İstirahət və nahar etmək üçün fasilə AR ƏM-in 103-cü maddəsi ilə tənzimlənir. Bu maddəyə əsasən, iş günü (növbəsi) ərzində işçilərə istirahət və nahar etmək üçün fasilə verilməlidir. Əmək şəraitinin xarakterinə görə işi dayandırmaqla fasilənin vaxtını və davamiyyətini müəyyən etmək mümkün olmadıqda, işəgötürən işçiyə nahar etməyə şərait yaratmalıdır (2022: 284). Bu fasilənin müddəti iş vaxtına daxil edilmədiyi və ödənilmədiyindən, işçi bu vaxtı öz mülahizəsi ilə istədiyi kimi istifadə edə bilər.

Müəyyən iş növləri üzrə işçilərə əməyin texnologiyası və təşkili ilə əlaqədar iş vaxtı ərzində xüsusi fasilələr də verilir. Məsələn, aşağı temperatur və şiddətli külək şəraitində, habelə ilin soyuq vaxtlarında açıq havada və ya qızdırılmayan qapalı binalarda işləyən işçilərə, zərurət yarandıqda, isitmə və istirahət üçün iş vaxtına daxil edilən xüsusi fasilələr verilir. Bu fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilir (2022: 284).

Bundan əlavə, iş günü ərzində qadınlara uşağın yedizdirilməsi üçün fasilələr də verilir. AR ƏM-in 244-cü maddəsinin 1-ci hissəsinə uyğun olaraq, yaş yarımına çatmamış uşağı olan qadınlara iş vaxtı ərzində istirahət və yemək üçün verilən ümumi fasilədən başqa, həm də uşağını

yedizdirmək üçün əlavə fasilələr verilməlidir. Bu fasilələrin hərəsi azı 30 dəqiqə olmaqla, hər 3 saatdan bir verilir. Qadının yaş yarımına çatmamış iki və daha çox uşağı olduqda hər fasilənin müddəti azı bir saat müəyyən edilir (2022: 284). Azərbaycan Respublikasından fərqli olaraq, Qazaxıstan Respublikasında uşağın yedizdirilməsi üçün fasilələr sadəcə qadınlara deyil, həm də uşaqları anasız böyüdən atalara da verilir. Qazaxıstan Respublikasının Əmək Məcəlləsinin 82-ci maddəsinin 3-cü hissəsinə əsasən, yaş yarımadək uşağı olan işləyən qadınlara, bir yaş yarımadək uşaqları anasız böyüdən atalara (övladlığa götürənlərə) ən azı hər üç saatdan bir uşağı (uşaqları) yedizdirmək üçün əlavə fasilələr verilir (2018: 112). Hər iki ölkənin qanunvericiliyi təmin edir ki, bu cür fasilələr cəmlənərək istirahət və nahar üçün verilən fasiləylə birləşdirilə və ya iş gününün əvvəlində, yaxud axırında istifadə edilə bilər.

Texnoloji fasilələrə gəldikdə isə, onlar adətən əməyin mühafizəsi, yorğunluğun aradan qaldırılması üçün verilir. Bu fasilələr əməyin texnologiyası və təşkili ilə əlaqədardır və müəssisədaxili intizam qaydaları ilə tənzimlənir.

Bu kateqoriyalı fasilələrə, məsələn, istehsalat gimnastikası üçün fasilələr, zərərli əmək şəraiti olan işlərdə işləyən insanlar üçün istehsalat əməliyyatları arasında fasilələr, kompüterdə müntəzəm işləyən insanlar üçün fasilələr daxildir.

**Gündəlik istirahət** – gündəlik işin bitməsindən növbəti iş gününün (növbəsinin) başlanğıcına qədər olan vaxtdır. Gündəlik istirahət vaxtı təyin edilərkən işçinin əmək qabiliyyətinin gün ərzində dəyişdiyi nəzərə alınmalıdır. Günün müxtəlif vaxtlarında insan orqanizmi iş yükünə fərqli reaksiya verir. İş dövrləri işçinin əmək qabiliyyətini tam bərpa edə bildiyi istirahət dövrləri ilə əvəz edilməlidir.

Kifayət qədər olmayan gündəlik istirahət fizioloji funksiyaların normal səviyyəsini bərpa etməyə imkan vermir, bədənin patoloji vəziyyətinə səbəb ola biləcək yorğunluğun yığılmasına səbəb olur və buna görə də nəinki əmək qabiliyyətinin davamlı azalmasına gətirir, həm də xəstəliklər və istehsalat xəsarətlərinə səbəb olur. Növbələrarası istirahət vaxtının müddəti əvvəlki növbənin müddətindən, əməyin ağırlığı və zərərliliyindən, onun intensivliyindən və işçilərin ayrı-ayrı kateqoriyalarının orqanizminin psixofizioloji xüsusiyyətlərindən asılıdır (Kasumov, Aleskerova, 2011: 49).

AR ƏM-in 103-cü maddəsinin 3-cü hissəsində qeyd edilir ki, işçinin bir iş günü ilə növbəti iş günü arasında gündəlik istirahət vaxtı ən azı 12 saat olmalıdır. Bundan fərqli olaraq, Rusiya Federasiyasının Əmək Məcəlləsi (bundan sonra qısaca olaraq RF ƏM) gündəlik istirahətin minimum müddətini müəyyən etmir və bu istirahətin müddətinin daxili əmək qaydaları və ya növbə cədvəli ilə müəyyən edildiyini göstərir. Təcrübəyə görə, gündəlik (növbələr arası) istirahətin minimum müddəti, istirahətdən əvvəlki gündə (növbədə) iş vaxtının uzunluğunun ən azı iki qatını təşkil edir.

Burada qeyd etmək lazımdır ki, gündəlik istirahət vaxtının müddəti birbaşa olaraq iş gününün davamlılığından asılıdır. AR ƏM-in 89-cu maddəsinin 1 və 2-ci hissələrinə görə gündəlik normal iş vaxtının müddəti 8 saatdan, həftəlik normal iş vaxtının müddəti isə 40 saatdan artıq ola bilməz (2022: 284). İşçilərin ayrı-ayrı kateqoriyalarına, onların yaşı, səhhəti, əmək şəraiti, əmək funksiyasının xüsusiyyətləri və digər hallar nəzərə alınaraq qısaldılmış iş vaxtı müəyyən edilə bilər. İş gününün maksimal həddinin müəyyən edilməsinə baxmayaraq, qanunvericilik işçinin iş vaxtından artıq işə cəlb olunması hallarını da nəzərdə tutur. Belə ki, AR ƏM-in 99-cu maddəsinin 1-ci hissəsinə əsasən, iş vaxtından artıq iş – işəgötürənin əmri və işçinin razılığı ilə əmək funksiyasını müəyyən olunmuş iş günü vaxtından artıq müddət ərzində yerinə yetirməsi sayılır. Hər bir işçi dalbadal gələn iki iş günü ərzində 4 saatdan, əmək şəraiti ağır və zərərli olan iş yerlərində isə 2 saatdan çox iş vaxtından artıq işlərə cəlb edilə bilməz (2022: 284).

Bir sıra xarici ölkədə, məsələn ABŞ və Danimarkada iş vaxtından artıq işin müddəti qanunla məhdudlaşdırılmır. Lakin əksər ölkələrdə yalnız qanunla müəyyən edilmiş maksimum müddətdə iş vaxtından artıq işə icazə verilir. Bu maksimum müddət gündəlik, həftəlik, aylıq, illik müəyyən edilə bilər. Bir sıra ölkələrdə işçilərin iş vaxtından artıq işə cəlb edilməsinə əmək müfəttişliyinin və ya həmkarlar ittifaqının icazəsi ilə yol verilir. Bu ölkələrə məsələn İtaliya, Fransa və Yaponiya aiddir

(Kiselev, 2005: 385). İş vaxtından artıq iş saatları, bir qayda olaraq, əlavə ödəniş ilə kompensasiya edilir, lakin bəzi ölkələr var ki, orada qanunla və ya kollektiv müqavilələrlə müəyyən edilmiş şərtlərdə iş vaxtından artıq iş saatları əlavə istirahət vaxtı ilə də kompensasiya edilə bilər.

Rusiya Federasiyasına gəldikdə, orada qanunla müəyyən edilir ki, iş vaxtından artıq işin müddəti hər bir işçi üçün ardıcıl iki gün ərzində 4 saatdan və ümumi olaraq ildə 120 saatdan çox olmamalıdır. RF ƏM-in 99-cu maddəsinə əsasən, işçinin işəgötürən tərəfindən iş vaxtından artıq işə cəlb edilməsinə onun yazılı razılığı ilə aşağıdakı hallarda yol verilir:

1) zərurət yarandıqda, istehsalın texniki şərtləri ilə əlaqədar gözlənilməz gecikmə səbəbindən işçi üçün müəyyən edilmiş iş vaxtı ərzində yerinə yetirilməsi mümkün olmayan, başlanmış işi yerinə yetirmək üçün, əgər bu işin yerinə yetirilməməsi işəgötürənin əmlakının, dövlət və ya bələdiyyə əmlakının zədələnməsinə, insanların həyatına və sağlamlığına təhlükə yaradılmasına səbəb ola bilərsə;

2) mexanizmlərin və ya qurğuların təmiri və bərpası üzrə müvəqqəti işlərin görülməsi üçün, əgər onların nasazlığı işçilərin əksəriyyəti üçün işin dayandırılmasına səbəb ola bilərsə;

3) iş fasiləyə imkan vermədikdə, əvəz edən işçinin olmadığı halda işi davam etdirmək üçün (2022: 288).

Finlandiya "İş vaxtı aktının" 29-cu maddəsinə əsasən adi iş rejimi şərtlərində iş növbəsinin başlanmasından sonrakı 24 saat ərzində işçilərə ən azı 11 saat fasiləsiz istirahət vaxtı verilməlidir. İş saatları sərbəst olduqda və işçilər işlərinin başlama və qurtarma vaxtına özləri qərar verdikdə gündəlik istirahət vaxtının müddəti qısaldıla bilər. Bu zaman, gündəlik istirahət müddəti ən azı 7 saat olmalıdır (11).

Bundan əlavə, işçilərin iş vaxtından artıq işə cəlb edilməsinin şərtləri Finlandiya qanunvericiliyində də öz əksini tapır. Belə ki, "İş vaxtı aktının" 29-cu maddəsinə əsasən iş vaxtından artıq iş dedikdə, işəgötürənin təşəbbüsü ilə normal iş vaxtından əlavə olaraq görülən iş başa düşülür. İşçinin əlavə olaraq işə cəlb edilməsi üçün hər dəfə onun xüsusi razılığı tələb olunur. Dörd aylıq müddət ərzində əlavə iş vaxtının maksimum müddəti 138 saatdan, bir təqvim ili ərzində isə 250 saatdan çox olmamalıdır (11).

**Həftəlik istirahət** − işçinin təqvim həftəsi ərzində işdən azad olduğu günlərdir. AR ƏM-in 104-cü maddəsinin 1-ci hissəsinə əsasən, hər bir işçiyə həftələrarası fasiləsiz istirahət günlərindən istifadə etməyə şərait yaradılmalıdır. Həftələrarası istirahət günlərinin sayı beşgünlük iş həftəsində iki gün, altıgünlük iş həftəsində isə bir gün olmalıdır (2022: 284).

Eyni qaydalar Rusiya Federasiyasında da tətbiq olunur. Ümumi istirahət günü olaraq bazar günü təyin edilir. Beşgünlük iş həftəsində ikinci istirahət günü kollektiv müqavilə və ya daxili əmək qaydaları ilə müəyyən edilir. Hər iki istirahət günü adətən ardıcıl qaydada verilir. İstehsalat və əmək şəraitinə görə istirahət günlərində işi dayandırmaq mümkün olmayanda müəssisənin daxili əmək qaydalarına uyğun olaraq həftənin müxtəlif günlərində hər bir işçi qrupuna növbə ilə istirahət günləri verilir.

Finlandiyanın "İş vaxtı aktı" müəyyən edir ki, işçilərə həftədə ən azı 35 saat bazar gününə yaxın fasiləsiz istirahət vaxtı təmin edilməlidir. Həftəlik istirahət vaxtı həmçinin elə təşkil edilə bilər ki, 14 günlük müddət ərzində orta hesabla 35 saat təşkil etsin. Bu zaman, həftəlik istirahət vaxtı ən azı 24 saat olmalıdır.

Müəssisədə işi yerinə yetirmək üçün işçilərdən müvəqqəti olaraq istirahət vaxtlarında işləmək tələb olunursa, işçilərin işə sərf etdikləri vaxta görə adi gündəlik iş saatlarının müddəti azaldılmalıdır. Bununla belə, işçinin razılığı olduqda, gündəlik iş saatlarının müddəti azaldılmadan ona bu cür iş üçün pul mükafatı da verilə bilər.

**Bayram günləri.** Həftəlik istirahət günləri ilə yanaşı, işçilər iş günü hesab edilməyən bayramlarda da işdən azad edilirlər. Əmək hüququnda iş günü hesab edilməyən bayramlara qanunla müəyyən edilmiş, ölkə üçün mühüm və əlamətdar hadisələrə və tarixlərə həsr olunmuş, işçilərin işdən azad edilən günlər daxildir.

İşçinin işə cəlb edilməsi baxımından iş günü hesab edilməyən bayram günləri həftəlik istirahət günlərindən onunla fərqlənirlər ki, həftəlik istirahət günləri istehsalatın xarakterindən asılı olaraq

həftənin istənilən günləri təqdim edilə bilərlər. İş günü hesab edilməyən bayram günləri isə hər il eyni qanunla müəyyən edilmiş tarixlərə düşür. Bu səbəbdən, fasiləsiz istehsalatlarda və əhaliyə xidmətlə bağlı təşkilatlarda adətən bayram günlərində işçiləri işə cəlb etmək zərurəti yaranır (Smirnov, 1999: 259).

AR ƏM-in 105-ci maddəsində qeyd edildiyi kimi, Azərbaycan Respublikasında bayram günlərinə aşağıdakılar daxildir:

- Yeni il bayramı (yanvarın 1 və 2-si);
- Qadınlar günü (martın 8-i);
- Faşizm üzərində qələbə günü (mayın 9-u);
- Müstəqillik günü (mayın 28-i);
- Azərbaycan xalqının Milli qurtuluş günü (iyunun 15-i);
- Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü (iyunun 26-sı);
- Müstəqilliyin bərpası günü (oktyabrın 18-i);
- Zəfər günü (noyabrın 8-i);
- Azərbaycan Respublikasının Dövlət bayrağı Günü (noyabrın 9-u);
- Konstitusiya günü (noyabrın 12-si);
- Milli dirçəliş günü (noyabrın 17-si);
- Dünya azərbaycanlılarının həmrəyliyi günü (dekabrın 31-i);
- Novruz bayramı − beş gün;
- Qurban bayramı − iki gün;
- Ramazan bayramı − iki gün.

Bu maddədə ümumi bayram günləri qeyd olunub ki, onların bəziləri qeyri-iş günü, digərləri isə iş günü hesab edilir. Yeni il bayramı, Qadınlar günü, Faşizm üzərində qələbə günü, Müstəqillik günü, Azərbaycan xalqının milli qurtuluş günü, Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü, Zəfər günü, Azərbaycan Respublikasının Dövlət bayrağı günü, Dünya azərbaycanlılarının həmrəyliyi günü, Novruz bayramı, Qurban bayramı, Ramazan bayramı günləri iş günü hesab edilmir. İş günü hesab edilməyən bayram günlərində işçilərin işə cəlb olunmasına yalnız qanunla nəzərdə tutulmuş müstəsna hallarda yol verilə bilər.

Bundan əlavə, həftələrarası istirahət günləri və iş günü hesab olunmayan bayram günləri üst-üstə düşərsə, həmin istirahət günü bilavasitə bayram günündən sonrakı iş gününə keçirilir (2022: 284).

## Nəticə

Yekun olaraq, araşdırmanın nəticələrini ümumiləşdirərək bu məqalədə qarşıya qoyulan məqsədlərə nail olunduğu qənaətinə gəlmək olar.

Məqalədə istirahət vaxtının ümumi anlayışı və istirahət vaxtının növlərinin hər biri ayrı-ayrılıqda müəyyən edilib, onları tənzimləyən milli qanunvericiliyin və xarici dövlətlərin qanunvericiliyinin müddəalarının təhlili aparılıb. Nəticədə, Azərbaycan Respublikasının və Rusiya, Qazaxıstan, Finlandiya kimi bəzi xarici ölkələrin mövcud əmək qanunvericiliyini nəzərdən keçirdikdən sonra qeyd edə bilərik ki, işçilərin istirahət hüququ bu və ya digər səviyyədə dünyanın əksər ölkələrində tanınır.

## Ədəbiyyat

1. İnsan hüquqları haqqında Ümumi Bəyannamə. (2006). Bakı: Qanun, 8 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası. (2021). Bakı: Hüquq Yayın Evi, 63 s.
3. Volk, E.A., Gerasimova, E.S., Golovina, S.Y. i dr. (2019). Yevraziyskoye trudovoye pravo: uchebnik. Moskva: Prospekt, 496 s.
4. Qasımov, A.M. (2007). Əmək hüququ: Dərslik. Bakı: Adiloğlu, 560 s.
5. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. (2022). Bakı: Hüquq Yayın Evi, 284 s.
6. Konstitusiya Rossiyskoy Federatsii http://duma.gov.ru/legislative/documents/constitution/

7. Trudovoy Kodeks Respubliki Kazakhstan. (2018). Almatı: Norma-K, 112 s.
8. Kasumov, A.M., Aleskerova, L.G. (2011). Vremya otdykha: uchebnoye posobiye. Baku: Ganun, 152 s.
9. Kiselev, I.Y. (2005). Trudovoye pravo Rossii i zarubezhnykh stran. Mezhdunarodnyye normi truda. Moskva: Eksmo, 608 s.
10. Trudovoy Kodeks Rossiyskoy Federatsii. (2022). Moskva: Eksmo, 288 s.
11. Working Hours Act 605. (1996). Finland. https://www.ilo.org/dyn/natlex/docs/ELECTRONIC/46245/60791/F672726630/FIN46245%20English.pdf
12. Smirnov, O.V. (1999). Trudovoye pravo: uchebnik. Moskva: Prospekt, 512 s.

**Rəyçi: h.ü.e.d. Əbülfəz Hüseynov**

Göndərildi: 10.10.2022 Qəbul edildi: 25.12.2022

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/86/58-62

**Könül Şaiq qızı Bayramova**
Gəncə Dövlət Universiteti
konul.bayramova.2911@mail.ru

# YOVŞAN BİTKİSİNİN *İN VİTRO* ŞƏRAİTİNDƏ ANTİHELMİNT TƏSİRİNİN ÖYRƏNİLMƏSİ

**Xülasə**

Azərbaycan florası dərman bitkiləri ilə zəngindir. Kimyəvi preparatlardan üstünlüyü ilə fərqlənən bitki mənşəli vasitələrdən istifadə etmək daha səmərəlidir. Belə bitkilərdən olan yovşan Azərbaycan ərazisində çox geniş yayılmışdır. Zəngin tərkibə malik olan yovşan bitkisi tibb sənayesində geniş istifadə olunur. Antihelmint tərkibli yovşan bitkisinin tətbiqindən sonra parazitlərin bəzi sistemlərində patomorfoloji dəyişkənliklər müşahidə olunur. Yovşandan hazırlanmış dəmləmələrin *in vitro* şəraitində helmintlərə təsir mexanizmini müəyyən etmək üçün bir neçə mərhələli təcrübələr aparılmışdır. Məlum olmuşdur ki, sestod 220 dəqiqədə, trematod 240 dəqiqədə və nematod 235 dəqiqədə yovşan bitkisinin təsirindən *in vitro* şəraitində məhv olmuşdur.

***Açar sözlər:*** *yovşan, in vitro, parazit, antihelmint, dərman bitkiləri, ev quşları*

**Konul Shaig Bayramova**
Ganja State University
konul.bayramova.2911@mail.ru

## Study of antihelmintic effect of wormwood plant *in vitro*

**Abstract**

The flora of Azerbaijan is rich in medicinal plants. It is more effective to use herbal remedies, which differ in their advantages from chemical preparations. Wormwood from such plants is very widespread in the territory of Azerbaijan. Wormwood, which has a rich composition, is widely used in the medical industry. Pathomorphological changes are observed in some systems of parasites after the application of wormwood containing anthelmintic. In order to determine the mechanism of action of wormwood infusions on helminths *in vitro*, several staged experiments were conducted. It was found that cestodes were destroyed in 220 minutes, trematodes in 240 minutes and nematodes in 235 minutes under the influence of wormwood *in vitro*.

***Keywords:*** *wormwood, in vitro, parasite, antihelmintic, medicinal plants, domestic birds*

### Giriş

Kənd təsərrüfatının ən gəlirli və iqtisadi baxımdan daha səmərəli sahələrindən olan quşculuq Respublikamızda genis yayılmışdır. Quşculuq son dövrlərdə daha sürətlə inkişaf etsə də, fərdi və fermer təsərrüfatlarında parazitlərə kütləvi yoluxma halları müşahidə olunur.

Azərbaycanda ev quşlarının qarışıq helmintozlarına qarşı yeni antihelmint preparatların müalicə səmərəsinin öyrənilməsinə və dərman vasitələrinin işlənib hazırlanmasına, tətbiqinə aid elmi araşdırmalar çox az miqyasda aparılmışdır.

İndiki dövrdə quşçuluq təsərrüfatlarında istifadə edilən antihelmint təsirli dərman preparatlarının müxtəlif ölkələrdən valyuta ilə alınması və gətirilməsində müəyyən çətinliklər yaranır. Həmçinin kimyəvi preparatların toksiki və kumulyativ təsirlər yaratdığını nəzərə alsaq, bunların tətbiqindən sonra quş məhsullarının istifadə edilməsi insan sağlamlığı üçün təhlükəli ola

bilir. Ona görə də ev quşlarının qarışıq helmintozlarına qarşı daha səmərəli, az toksiki təsirli, özəlliklə bitki mənşəli preparatların hazırlanmasını və tətbiqini aktual problem kimi qarşıya qoyulub. Helmintəleyhinə tədbirlərin səmərəliliyinin yüksəldilməsi, ev quşlarının helmintozlarının aradan qaldırılması üçün daha mütərəqqi mübarizə üsul və vasitələrinin işlənib hazırlanması hal-hazırda xüsusi əhəmiyyət daşıyan məsələlərdəndir (Musayev, Hacıyev, 1991:160).

Azərbaycan florasının dərman əhəmiyyətli, efir yağlı, vitaminli, yemək üçün yararlı, aşı maddələri ilə zəngin, qatranlı, kauçuklu, sodalı və müxtəlif tərkibli, bəzək üçün, nektarlı, yağlı və boya maddələri ilə zəngin bitki örtüyü vardır.

Respublikamızın florasının bu cür dərman bitkiləri ilə zəngin olması son illər kənd təsərrüfatı heyvanlarının və quşlarının müxtəlif helmintozlarına qarşı bəzi dərman bitkilərinin aşkar edilməsi bu istiqamətdə tədqiqat işlərini davam etdirib, ev quşlarının helmintozlarında da istifadə edilə biləcək, tərkibində antihelmint təsirli dərman bitkiləri və kimyəvi preparatlar az olan qarışıqların müəyyən edilməsinə və təsərrüfatlarda tətbiqinə əsas verir.

Belə bitkilərdən biri də parazit qurdlar əlehinə güclü təsiri ilə fərqlənən yovşan bitkisidir. Yovşan bitkisinin ehtiyatı böyük olduğundan Azərbaycanın ehtiyacını tam ödəməklə bərabər, başqa ölkələrə də ixrac etmək olar.

Yovşan bitkisi Azərbaycan ərazisində geniş yayılmışdır. Bu bitkidən əçzacılıq sənayesində geniş istifadə etmək iqtisadi baxımdan daha səmərəlidir.

Xalq təbabətində və baytarlıqda istifadə edilən bir çox dərman bitkiləri heyvan və quşların helmintozlarına qarşı da yüksək müalicəvi təsir göstərə bilir. Helmintəleyhinə təsir göstərməklə yanaşı orqanizm tərəfindən yaxşı mənimsənilən dərman bitkilərinin axtarılıb, müəyyən edilməsi, helmintozların müalicəsində işlədilməsi həm ekoloji, həm də iqtisadi cəhətdən çox əlverişlidir.

Dərman bitkilərinin tərkibində orqanizmə spesifik təsir göstərən birləşmələr mövcuddur. Belə bioloji fəal birləşmlərdən alkaloidlər, qlikozidlər, efir yağları, bitki qatranları və üzvi turşular xüsusi əhəmiyyətə malikdir (Dəmirov, Prilikov, 1988: 12).

Bir çox tədqiqat işlərində dərman bitkilərinin antihelmint xüsusiyyəti müəyyən edilmiş, onların tərkibində olan bioloji aktiv maddələrin təsir mexanizmi öyrənilmişdir. Antihelmint preparatları təsir mexanizminə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

a) helmint hüceyrələrinə zəhərli təsir edən maddələr (hüceyrə zəhərləri);
b) helmintlərin sinir-əzələ tənzimlənməsi proseslərini pozan maddələr;
c) əsasən yastı qurdların sinir-əzələ sistemini iflic etməklə, onların örtük toxumasının zədələnməsinə səbəb olan preparatlar;
d) baçlıca olaraq helmintlərin mübadilə proseslərinə təsir göstərən birləşmələr;
e) helmint toxumasının həll olunmasına səbəb olan proteolitik fermentlər (Krotov, 1971: 35)

Kimyəvi mənşəli antihelmint preparatların tətbiqinin daha yüksək müalicə səmərəsi verməsinə baxmayaraq, bu maddələr helmintə təsir göstərməklə yanaşı, heyvan və quşların orqanizmində də toksiki dəyişikliklərə səbəb olur. Ona görə də antihelmint maddələr veridikdə, onların parazitə spesifik təsirinə və sahib orqanizmində isə mümkün qədər zəif dəyişiklər əmələ gətirilməsinə nail olmaq çox vacibdir. Bu məqsədlə respublikamızın ərazilərində geniş yayılan, antihelmint xüsusiyyətlərə malik bitkilərin tətbiqi böyük maraq doğurur.

Bitki mənşəli vasitələrin üstünlüyü ondadır ki, bitki hüceyrələri ilə heyvan orqanizmindəki hüceyrələr oxşar xüsusiyyətlərə malikdirlər. Buna görə də dərman bitkiləri orqanizm tərəfindən asan mənimsənilir və tez təsir göstərir.

Dərman bitkilərinin tərkibindəki bioloji fəal birləşmələrdən alkaloidlər, qlikozidlər, efir yağları, aşı maddələr, qatranlar, flavonoid birləşmələr, saponinlər, üzvi turşular və s. bir çox xəstəliklərin, o cümlədən parazitar xəstəliklərin müalicəsində xüsusi əhəmiyyət kəsb edir (Turova, Sapojnikova, 1984: 205).

Azərbaycanda bitən müxtəlif bitkilərin − yovşan, ilankölgəsi, dərman sabunotu, qaraqınıq, dağnanəsi, andızın tərkibində olan efir yağlarının və digər komponentlərin helmintlərə təsir mexanizminin daha səmərəli olduğunu müəyyən etmişdir.

Mürəkkəbçiçəklilər fəsiləsinə mənsub olan yovşan birillik, ikiillik, çoxillik ot və ya yarımkol bitkisidir. Yovşanın tərkibində kifayət qədər efir yağı, flavonoid, kumarin, seksiterpen laktonları, absintin, anabsintin, artabsın, xamazulen, vitaminlər, üzvi turşular, şəkər və alkolidlər var. Yovşanın müalicəvi təsiri hələ qədim zamanlardan insanlara məlum idi. Bu cür zəngin kimyəvi tərkibə malik olan yovşan tibb sahəsində geniş istifadə olunur. Dərman məqsədi ilə onun yuxarı hissələrini çiçək açan dövrə kimi toplayırlar. Əsasən may ayında toplanmış hissələri daha güclü təsirə malik olur (Mustafayev, Qasımov, 1992: 98).

Acı yovşan çoxillik ot bitkisidir. Özünəməxsus ətirli iyi, çox acı dadı vardır. Gövdəsi odunlaşmış, çöxlu qol-budaqları saplaqlı, boz yaşıl olur. Gövdəsində və yarpaqlarında 2%-ə qədər tuyon, tuyol, felandren olan efir yağları, absintin, artabsin, aşı maddələri, flavonoidlər vardır.

Yovşanın çiçəkləmə dövründə gövdə və yarpaqlarında 2-3%-ə qədər xüsusi acı maddə − taurelizin toplanır (Chikov, 1989: 56).

Yovşandan alınmış efir yağlarının və onun ayrı-ayrı komponentlərinin (tuyon, tuyol, fellandren) müxtəlif qatılıqlarda, *in vitro* və *in vivo* şəraitlərində helmintlərə təsirinin öyrənmişlər. Bu birləşmələrin təsirindən helmintlərin kutikulasında, fermentativ sistemidə gedən histoloji dəyişikliklər müəyyən edilmişdir. Bitkilərin efir yağlarının komponentlərindən olan aromadendren 0,1% qatılıqda askaridiləri iflic edir. Tuyolun 0,1%-li sulu məhlulu nematodlarda uzun müddətli qıcıqlar törədərək, qüvvətli oyanmalara səbəb olur. Sineol 0,5%-li qatılıqda helmintlərdə güclü əzələ oyanması və qıcolmalar törədir. Tuyon zəif qatılıqda (0,1%) askaridilərin toxumalarında katalitik prosesləri sürətləndirərək zədələnmələrə səbəb olur. Ölmüş helmintlərin kutikulasının histoloji müayinəsində aromadendrenin təsirindən nekrotik dəyişikliklərin, tuyonun təsirindən isə kutikula qatının dağıldığını müşahidə olunmuşdur (Rzayev, 2010: 208).

Hindyovşanı bitkisindən (A.cina) alınmış bioloji fəal birləşmələrdən santonin maddəsinin helmint əzələsini iflic etdiyini müəyyən etmişdir (Tsaryev, 1964: 74).

Amidostomum anseris nematodunun orqan və toxumalarına *in vivo* şəraitində acı yovşan bitkisinin təsir mexanizmi öyrənilərkən müəyyən edilmişdir ki, bitkinin tətbiqindən doqquz gün sonra helmintin orqan və toxumalarında, xüsusilə də həzm sistemində daha çox destruktiv dəyişikliklər baş vermişdir. Həmçinin antihelmint təsirli yovşan bitkisinin tətbiqindən sonra nematodların ən çox örtük toxuması və cinsiyyət sistemləri patomorfoloji dəyişikliklərə uğrayır (Rzayev, 2011: 22).

Antihelmint tərkibli bitkilərin tərkibindəki flavonoid birləşmələrin helmintlərin sinir-əzələ sisteminə təsir etdiyini öyrənmişdir.

Ədəbiyyat məlumatlarını təhlil edərkən belə nəticəyə gəlinir ki, dərman bitkilərinin tərkibində olan spesifik, bioloji fəal birləşmələrin təsirindən helmintlərdə müxtəlif patomorfoloji dəyişiklilər əmələ gəlir. Bu maddələr helmintlərə hüceyrə zəhəri kimi təsir edərək, sinir-əzələ oyanmaları yaratmaqla onları məhv edir. Bir çox orqan və toxumalarda dərin patoloji, nekrotik dəyişikliklər yaradaır, geri dönməyən proseslər yaradırlar (Harwood, 1953: 46).

## Nəticə

Aparılan tədqiqatlar son illərdə Azərbaycanın Qərb bölgələrindən olan Ağstafa, Daşkəsən və Gədəbəy rayonlarının fərdi və fermer quşçuluq təsərrüfatlarında aparılmışdır. Qeyd etmək lazımdır ki, bu rayonların ərazilərində şirin su tutarlar, çaylar və xırda göllər mövcuddur ki, bütün bunlar burda ev su quşlarının saxlanmasına imkan verir. Tədqiqatın gedişində təsərrüfatlara vaxtaşırı gedilərək, kal nümunələr götürülmüş, kəsilmiş və ya ölmüş quşların daxili orqanları laboratoriyaya gətirilərək müayinələrdən keçirilmişdir. Ev quşlarının (qaz, ördək və toyuq) helmintlərlə yoluxma dərəcəsi, eləcə də helmintozların təsərrüfatlarda yayılma səviyyəsi helmintoovoskopik və helmintoloji yarma müayinələrinə əsasən aparılmışdır (Məmmədov, Hacıyev, 1986: 307).

Helmintoloji müayinələrin nəticələri də statistik cəhətdən işlənərək, invaziyanın ekstensivlik faizi (Eİ, %) və bağırsaqlarda askar edilən helmint sayına görə invaziyanın intensivliyi (İİ, helmint sayı/quş) müəyyənləşdirildi.

Tədqiqatların aparıldığı rayonlarda ev quşlarında helmintozların yayılma səviyyəsini dəqiqləşdirmək üçün rayon baytarlıq idarələrinin statistik məlumatlarından istifadə edilmişdir.

Ev quşlarında parazitlik edən helmintlərə qarşı müalicə səmərəsini öyrənmək məqsədilə antihelmint tərkibli bitkilərdən olan yovşan bitkisindən istifadə olundu. Bu bitki Azərbaycan florasına daxil olmaqla tədqiqatların aparıldığı qərb bölgəsində, xüsusilə Daşkəsən və Gədəbəy rayonlarının dağlıq, dağətəyi otlaqlarında geniş yayılmışdır. Əczaçılıq praktikasında qəbul edilmiş qaydalara əsasən bu bitkilərin dəmləmələri hazırlandı. Bitkilərdən hazırlanmış preparatların helmintlərə təsiri *in vitro* şəraitdə öyrənildi. Təcrübələrin *in vitro* şəraitində aparılması üçün bitkilərin üyüdülmüş kütlələri şüşə stəkana qoyularaq üzərinə 1:10 nisbətində qaynar su əlavə edildi və 30 dəqiqə müddətində su hamamında saxlanılaraq dəmləmə hazırlandı. Hazırlanmış dəmləmələr *in vitro* şəraitdə helmintlərə tətbiq edilərək bir neçə seriyada təcrübələr aparıldı.

Təcrübələrin gedişində yenicə kəsilmiş quşların bağırsaqlarından götürülmüş helmintlər qruplaşdırıldı. Belə ki, helmintlərin morfoloji quruluşlarına uyğun olaraq hər sinifdən bir növ helmint seçildi (Hacıyev, Əliyev, Əliyev, 1989: 123).

Helmintlərin hər bir sinif üzrə (sestod, trematod və nematod) morfo-bioloji xüsusiyyətlərinin, əsasən oxşar olduğunu nəzərə alaraq, sestodların nümayəndəsi olaraq Drepanidotaenia lanceolata, trematodlardan Echinostoma revolutum və nematodlardan isə Ascaridia galli götürüldü.

Kəsilmiş quşların bağırsaqlarından, əzələvi mədəsindən götürülmüş helmintlər icərisində $40^0$C temperaturda bitki ekstraktları olan Petri fincanlarına keçirildi (hər fincana 10-15 helmint). Sonra həmin fincanlar termostada qoyuldu və $42\text{-}43^0$C temperaturda saxlanılaraq helmitlərin hərəkətlərinin zəifləməyə başladığı zamandan tam məhv olduqları vaxta qədərki müddət qeyd edildi. Helmintlərin tam məhv olması entomoloji iynənin köməyi ilə parazitə toxunmaqla müəyyən edildi.

Hər bir bitki ekstratının təsiri öyrənildiyi zaman, anoloji olaraq həmin növdən olan helmintlər icərisində fizioloji məhlul olan fincanlara qoyularaq termostadda nəzarət qrupu kimi saxlanılmışdır.

Yovşan bitkisinin helmintlərə təsir xüsusiyyətini müəyyən etmək üçün təcrübələr zamanı bitki dəmləmlərinin təsirindən hansı müddətə helmintlərin hərəkətlərinin zəifləməsi və tam dayanması prosesləri üzərində müşahidələr aparıldı. Təcrübə zamanı alınmış nəticələr aşagıdakı cədvəldə verilmişdir.

**Cədvəl.**
**Yovşan dəmləməsinin *in vitro* şəraitdə helmintlərə təsiri**

| Helmint bitki | I | | | II | | | III | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Dr. lanceolata | Ech. revolutum | A. galli | Dr. lanceolata | Ech. revolutum | A. galli | Dr. lanceolata | Ech. revolutum | A.galli |
| Yovşan | 130 | 150 | 145 | 165 | 200 | 180 | 220 | 240 | 235 |
| Nəzarət | 1100 | 1400 | 1350 | 1200 | 1470 | 1400 | 1800 | 1750 | 1910 |

Qeyd:
I − helmintlərin hərəkətinin zəifləməyə başladığı müddət (dəqiqə);
II − helmintlərin hərəkətinin dayandığı müddət (dəqiqə);
III − bütün helmintlərin tam məhv olduğu müddət (dəqiqə).

Antihelmint təsirini öyrəndiyimiz yovşan bitkisinin dəmləməsinin tətbiqindən 130 dəqiqə keçdikdən sonra D.lanceolata sestodlarının hərəkətləri zəifləməyə başlamış və 165 dəqiqə sonra isə dayanmışdır. Bitki dəmləməsinin tətbiqindən 220 dəqiqə sonra bütün sestodların məhv olduğu müşahidə edildi.

Anoloji təcrübələrin aparıldığı E.revolutum trematodlarının olduğu Petri fincanlarında dəmləmənin tətbiqindən 150 dəqiqə sonra helmintlərin hərəkətlərinin zəifləməyə başladığı və 200 dəqiqə sonra isə dayandığı müşahidə edildi. Yovşan bitkisinin dəmləməsinin tətbiqindən 240 dəqiqə keçdikdən sonra isə sestodların hamısının məhv olduğu aşkar edildi.

Yovşan bitkisinin dəmləməsinin A.galli nematoduna təsirinin müəyyən etmək üçün təcrübələr aparıldı. Belə ki, dəmləmənin tətbiqindən 145 dəqiqə sonra helmintlərin hərəkətləri zəifləməyə başlamış və 180 dəqiqədən sonra tamamilə dayanmışdır. Təcrübələrin gedişində müəyyən edildi ki,

yovşan dəmləməsinin tətbiqindən 235 dəqiqə sonra Petri fincanında olan nematodların hanısı məhv olmuşdur.

Təcrübələrdə alınacaq nəticələri müqayisəli təhlil etmək üçün isitifadə etdiyimiz nəzarət qruplarında 1100 dəqiqə keçdikdən sonra D.lanceolata sestodlarının hərəkətləri zəifləməyə başlamış və 1200 dəqiqə sonra dayanmışdır. Təcrübənin başlanğıcından 1800 dəqiqə sonra sestodların hamsının məhv olduğu müşahidə edilmişdir.

Anoloji təcrübələrin aparıldığı E.revolutum trematodlarının olduğu nəzarət qrupunda 1400 dəqiqə sonra helmintlərin hərəkətlərinin zəifləməyə başladığı və 1450 dəqiqə sonra isə dayandığı müşahidə edildi. Təcrübə qoyulduqdan 1750 dəqiqə keçdikdən sonra isə sestodların hamısının məhv olduğu aşkar edildi.

Təcrübə seriyasında A.galli nematodları olan Petri fincanında 1350 dəqiqə sonra helmintlərin hərəkətlərinin zəifləməyə başladığı və 1400 dəqiqə sonra isə tamamilə dayandığı müşahidə edildi. Təcrübənin başlanğıcından 1910 dəqiqə sonra nematodların hamısının məhv olduğu müəyyən edildi.

Özünəməxsus antihelmint təsirili yovşan bitkisinin təsirindən *in vitro* şəraitində D.lanceolata sestodunun 220, E.revolutum trematodunun 240 və A.galli nematodunun isə 235 dəqiqəyə məhv olduğu müşahidə edildi.

İqtisadi baxımdan daha səmərəli hesab olunan antihelmint tərkibli dərman bitkilərinin quşçuluq təsərrüfatlarına tətbiqi daha məqsədəuyğundur.

## Ədəbiyyat

1. Musayev, M., Hacıyev, A., Yolçuyev, Y., Vahidova, S., Mustafayeva, Z. (1991). Azərbaycanda ev quşlarının parazitləri və onlara qarşı mübarizənin elmi əsasları. Bakı: Elm, 160 s.
2. Damirov, I, Prilipko, L., Shukurov D. (1988). Lekarstvennyye rasteniya Azerbaydzhana. Baku: Maarif, 12 s.
3. Krotov, A. (1971). Meditsinskaya parazitologiya i parazitarnye bolezni. Moskva. 35 s.
4. Turova, A., Sapozhnikova, E. (1984). Lekarstvennyye rasteniya SSSR i ikh primeneniye. Moskva: Meditsina, 205 s.
5. Mustafayev, İ., Qasımov, M. (1992). Azərbaycanın faydalı bitki sərvətləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 98 s.
6. Jikov, P. (1989). Spravochnik lekarstvennyye rasteniya. Moskva: Agropromizdat, 56 s.
7. Rzayev, F. (2010). Amidostomum anseris nematodunun orqan və toxumalarına in vitro şəraitində acı yovşan bitkisinin təsir mexanizmi. Bakı: Azərbaycan Zooloqlar Cəmiyyətinin əsərləri, 208 s.
8. Tsaryev, S. (1964). Lekarstvennyye rasteniya v veterinarii. Moskva: Meditsina, 74 s.
9. Rzayev, F. (2011). Azərbaycanda ev quşlarında patogen qurdlara qarşı yerli bitki mənşəli preparatların təsir mexanizminin öyrənilməsi. Bakı: Avtorefarat, 22 s.
10. Harwood. (1953). Experiment Station Record: Volume 94. United States of America, 46 p.
11. Məmmədov, A., Hacıyev, Y., Şirinov, N., Ağayev, Ə. (1986). Baytarlıq parazitologiyası. Bakı: Azərnəşr, 307 s.
12. Hacıyev, D., Əliyev, R., Əliyev, S. (1989). Parazitizmin bioloji əsasları. Bakı: Maarif, 123 s.

**Rəyçi: b.ü.f.d. Elfira Ağayeva**

Göndərildi: 22.10.2022 Qəbul edildi: 12.12.2022

DOI: https://doi.org/10.36719/2663-4619/86/63-67

**Günay İlyas qızı Məlikova**
Elm və Təhsil Nazirliyinin akademik Abdulla Qarayev
adına Fiziologiya İnstitutu
doktorant
melikovagunay82@gmail.com

# AMİQDALA HAQQINDA MÜASİR MƏLUMATLAR

**Xülasə**

Amiqdala limbik systemin bir hissəsi olub, davranış və fizioloji təzahürlərin inteqrasiyasından məsul olan mütəşəkkil sinir sisteminin bir hissəsi kimi narahatlıq, təcavüz, qorxu, emosional yaddaş və sosial idrakın tənzimlənməsində iştirak edir. Əksər beyin bölgələri kimi, amigdala tək bir kütlə deyil, fərqli nüvələrdən ibarətdir və onun hər bir nüvəsinin unikal giriş və çıxışları var. Amigdala çox sayda normal davranış funksiyaları və psixiatrik vəziyyətlərdə iştirak edən mürəkkəb bir quruluşdur. İnsanların əziyyət çəkdiyi bir sıra neyropsixiatrik xəstəliklər məhz amiqdalanın disfunksiyası ilə əlaqədardır.

***Açar sözlər:*** *amiqdala, yaddaş, qorxu, stress, neyropsixiatrik xəstəliklər*

**Gunay Ilyas Malikova**
Institute of Physiology named after academician Abdulla Garayev
of the Ministry of Science and Education
Ph.D student
melikovagunay82@gmail.com

## Modern information about amigdala

**Abstract**

